ABA CEELI

*Promoting the Rule of Law*

# İNSAN ALVERİNƏ QARŞI MÜBARİZƏ SAHƏSİNDƏ AZƏRBAYCAN TƏCRÜBƏSİ

Redaktor: Pərvanə Bayramova
*hüquq üzrə fəlsəfə doktoru*

Təqdim olunan kitab Azərbaycanda insan alverinə qarşı mübarizə sahəsində fəaliyyət göstərən altı qeyri-hökumət təşkilatının müvafiq sahədə öz təcrübələri əsasında daxili qanunvericilik və onun tətbiqinə dair hazırladıqları hesabatların məcmusudur. Hesabatlar Azərbaycan Miqrasiya Mərkəzi, "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi, "Gənc Qadın Hüquqşünaslar Hüquqi İslahatlar Uğrunda" İctimai Birliyi, Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası, Azərbaycan Uşaqlar Birliyi və Qadın Krizis Mərkəzi tərəfindən hazırlanıb.

Hesabatlarda əks olunmuş fikirlər müəlliflərə aiddir, ABŞ Dövlət Departamentinin və ABA CEELİ-nin mövqeyini əks etdirməyə bilər.

## ÖN SÖZ

ABŞ Dövlət Departamentinin 2011-ci il İnsan alverinə dair hesabatında Azərbaycan ikinci qrup ölkələr siyahısındadır ki, bu qrupa minimal tələblərə tam cavab verməyən, lakin bu istiqamətdə müəyyən addımlar atan dövlətlər daxildir. 2004-cü ildə Azərbaycan Respublikasında İnsan alverinə qarşı Mübarizə üzrə ilk Milli Fəaliyyət Planı qəbul edilmişdir. 2005-ci ildə "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilmiş, Cinayət Məcəlləsinə insan alverinə dair maddələr əlavə edilmişdir, insan alverinə qarşı mübarizə sahəsində yeni hökumət strukturları yaradılmışdır. 2009-cu ildə Azərbaycan Respublikasının İnsan alverinə qarşı mübarizə üzrə 2009-2013-cü illər üçün Milli Fəaliyyət Planı təsdiq edilmişdir. Bütün bunlar insan alverinə qarşı mübarizə sahəsində Azərbaycanın müəyyən irəliləyiş əldə etdiyini göstərir.

ABA CEELİ-nin ABŞ Dövlət Departamenti tərəfindən maliyyələşdirilən "İnsan alveri sahəsində maarifləndirmə və hüquqi yardım təşəbbüsü" layihəsi 2010-cu ilin oktyabrından 2012-ci ilin dekabrına qədər fəaliyyət göstərdiyi müddət ərzində Azərbaycanda insan alverinə qarşı mübarizə sahəsində ictimaiyyəti maarifləndirmə, hüquq təhsili və praktik təlim proqramları həyata keçirmişdir. Layihə çərçivəsində ABA CEELİ Azərbaycanda dövlət məmurlarını, vətəndaş cəmiyyətini və əhalinin insan alverinə məruz qalmaq üçün daha çox risk qrupunda olan hissəsini insan alveri cinayəti haqqında maarifləndirmiş, hakimlər, prokurorlar, müstəntiqlər, vəkillər və praktik hüquqşünaslar üçün insan alverinə qarşı mübarizə sahəsində qanunların effektiv tətbiqinə və insan alveri üzrə işlərin aparılmasına dair təlimlər keçirmiş, eləcə də bir sıra insan alveri qurbanlarını hüquqi yardımla təmin etmişdir.

Nəşr olunan kitab ABA CEELİ-nin "İnsan alveri sahəsində maarifləndirmə və hüquqi yardım təşəbbüsü" layihəsi çərçivəsində hazırlanmış və çap olunmuşdur. Kitab Azərbaycanda insan alverinə qarşı mübarizə sahəsində fəaliyyət göstərən altı qeyri-hökumət təşkilatının (Azərbaycan Miqrasiya Mərkəzi, "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi, "Gənc Hüquqşünas Qadınlar Hüquqi İslahatlar Uğrunda" İctimai Birliyi, Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası, Azərbaycan Uşaqlar Birliyi və Qadın Krizis Mərkəzi) hesabatlarının məcmusudur. Hesabatlar təşkilat və onun insan alverinə qarşı mübarizə sahəsində fəaliyyəti haqqında məlumatı əks etdirir. Hər təşkilat insan alveri ilə mübarizənin ixtisaslaşdığı sahəsi üzrə beynəlxalq və daxili qanunvericiliyi təhlil edir, öz təcrübəsinə əsaslanaraq Azərbaycanda insan alverinə qarşı mübarizə sahəsində mövcud sistemin güclü və zəif tərəflərini müəyyənləşdirməyə çalışır.

Sonda hər QHT Azərbaycanda müvafiq qanunvericiliyin və insan alveri qurbanlarına dəstəyin təkmilləşdirilməsi istiqamətində tövsiyələrini təqdim edir.

Biz ümid edirik ki, təqdim olunan hesabatlar məcmusu Azərbaycanda insan alverinə qarşı effektiv mübarizə sahəsində qanunvericilik və praktikanın təkmilləşdirilməsində əhəmiyyətli rol oynayacaq.

**Robert Steere**
**ABA CEELİ-nin**
**Azərbaycan üzrə direktoru**



## MÜNDƏRİCAT

**İnsan alverinə qarşı mübarizə: qanunvericilik və təcrübə................. 6**
Azərbaycan Miqrasiya Mərkəzi - *Əlövsət Əliyev, Aynurə Gözəlova, Könül Bayramova*

**İnsan alveri qurbanlarının effektiv reabilitasiya və reintegrasiya prosesi daxili qanunvericilik kontekstində........................................ 33**
"Təmiz Dünya" Qadınlara Yardım İB - *Mehriban Zeynalova, Ruslan Vəliyev, Abbas İsmayılov*

**İnsan alveri qurbanlarına dəymiş mənəvi ziyanın ödənilməsi: daxili və beynəlxalq qanunvericilik...................................................................... 49**
"Gənc Qadın Hüquqşünaslar Hüquqi İslahatlar Uğrunda" İB - *Azər Nağıyev*

**Məcburi əmək: qanunvericilik və onun tətbiqi praktikası.................. 59**
Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası - *Sahib Məmmədov*

**Uşaq alveri ilə mübarizə beynəlxalq və daxili qanunvericilik kontekstində........................................................................................... 84**
Azəbaycan Uşaqlar Birliyi - *Kəmalə Ağazadə, Cabbar Həsənov*

**Cinsi istismar insan alveri kimi............................................................ 105**
Qadın Krizis Mərkəzi - *Mətanət Əzizova*

## İnsan alverinə qarşı mübarizə: qanunvericilik və təcrübə
*(AZƏRBAYCAN MİQRASİYA MƏRKƏZİ)*

### 1.Təşkilat haqqında məlumat

"Azərbaycan Miqrasiya Mərkəzi" İctimai Birliyi (bundan sonra AMM) 1999-cu ildə yaradılmış, 2007-ci ildə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmışdır. Təşkilat yaradıldığı vaxtdan fəaliyyətinin əsas istiqamətləri kimi aşağıdakılar müəyyən edilmişdir:

- Qaçqınların, ölkə ərazisində məskunlaşmış məcburi köçkünlərin, əcnəbilərin, vətəndaşlığı olmayan şəxslərin, habelə miqrasiyaya meylli əhalinin beynəlxalq və yerli qanunların tələbi baxımından maarifləndirilməsi;
- Milli qanunvericiliyin beynəlxalq hüququn imperativ normalarına, Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğunlaşdırılması istiqamətində iş aparılması;
- İnsan hüquq və azadlıqları sahəsində beynəlxalq təcrübənin öyrənilməsinin təmin edilməsi və ayrı-ayrı ölkə hüquqşünaslarının qüvvələrinin birləşdirilməsi;
- Qeyri-hökumət təşkilatlarının inkişafına kömək göstərilməsi və vətəndaş cəmiyyətinin formalaşmasında iştirak;
- Azərbaycan Respublikasının ərazisində məskunlaşmış qaçqın və məcburi köçkünlərə, əcnəbi və vətəndaşlığı olmayan şəxslərə və insan alveri qurbanlarına pulsuz hüquqi və digər yardımların göstərilməsi, onların müxtəlif dövlət və məhkəmə orqanlarında təmsil edilməsi.

AMM-nin işçi heyəti 9 nəfərdən - təşkilatın Prezidentindən, İcraçı Direktordan, 4 hüquqşünas, 2 sosial işçi, 1 ofis meneceri və 1 mühasibdən ibarətdir.

AMM miqrasiya sahəsində ixtisaslaşmış QHT olaraq əcnəbilərə, vətəndaşlığı olmayan şəxslərə və sənədsiz şəxslərə, insan alveri və məcburi əməyin qurbanlarına müxtəlif istiqamətlərdə yardım göstərir. Təşkilatda fəaliyyət göstərən "Qaynar xətt" vasitəsilə müraciət edən şəxslərə ixtisasca hüquqşünas olan "Qaynar xətt" mütəxəssisləri tərəfindən hüquqi məsləhət verilir və onlar müvafiq dövlət orqanlarına, beynəlxalq təşkilatlara və ya QHT-lərə istiqamətləndirilir. Hüquqi yardıma ehtiyacı olan şəxslər isə təşkilatın hüquqşünaslarına yönəldilir və pulsuz hüquqi yardımla təmin edilir.

Müraciət edən şəxslərə təşkilatın hüquqşünasları tərəfindən aşağıdakı xidmətlər göstərilir:

**•Dövlət orqanlarına ərizələrin / şikayətlərin yazılması;**

**•Bütün instansiya məhkəmələrinə ərizələrin hazırlanması və həmin instansiyalarda ərizəçinin təmsil olunması;**

**•Ölkədaxili hüquqi müdafiə vasitələri tükəndikdə Avropa İnsan Hüquqları**

Məhkəməsinə müraciət edilməsi.



AMM 2009-cu ildən başlayaraq insan alveri və məcburi əməyə qarşı mübarizə ilə bağlı bir sıra layihələri uğurla həyata keçirmişdir:

**•Azərbaycanda əmək istismarına məruz qalan şəxslərə/insan alveri qurbanlarına hüquqi yardım" layihəsi**. ATƏT-in Demokratik Təsisatlar və İnsan hüquqları Bürosunun maliyyə dəstəyi ilə bu layihənin icrasına 30 iyul 2009-cu il tarixdən başlanılmış və layihə 1 il müddətinə icra edilmişdir. Layihənin əsas məqsədi Azərbaycanda əməyin istismarına və insan alverinə məruz qalmış şəxslərə pulsuz hüquqi yardım göstərməkdən və qurbanlara kompensasiyanın ödənilməsinin zəruriliyi barədə hüquq-mühafizə orqanları üçün təlimlərin təşkili və əmək istismarı ilə bağlı ictimai məlumatlılığın artırılması olmuşdur.

**•"İnsan alverinə qarşı birgə mübarizə" layihəsi**. Layihə Norveç Krallığının Azərbaycandakı Səfirliyinin maliyyə dəstəyi ilə həyata keçirilmişdir. Layihənin icrasına 2009-cu ilin iyul ayında başlanılmış və layihə 1 il müddətində həyata keçirilmişdir. Layihənin əsas məqsədi Şirvanda Yardım Mərkəzinin yaradılması, müvafiq dövlət orqanlarının əməkdaşları üçün təlimlərin təşkili və insan alveri ilə bağlı ictimai məlumatlılığın artırılmasından ibarət olmuşdur.

**•"İnsan alveri ilə bağlı məlumatlandırma, istiqamətləndirmə və qurbanlara ilkin yardım göstərilməsi məqsədilə Gəncə şəhərində regional mərkəzin yaradılması" layihəsi**. Layihənin icrasına Beynəlxalq Əmək Təşkilatının maliyyə dəstəyi ilə 2009-cu ilin aprelində başlanılmış və layihə 4 ay müddətində həyata keçirilmişdir. Layihənin əsas məqsədi insan alverinə qarşı mübarizəni gücləndirmək, bu sahədə regionda fəaliyyət göstərən QHT-lərin əməkdaşlarını, habelə hüquq mühafizə və icra hakimiyyəti orqanlarının, bələdiyyələrin, səhiyyə və tibb işçilərini təlimlərə cəlb etməklə onların bu sahədə məlumatlılığını artırmaq və bilik səviyyəsini yüksəltmək və ehtiyacı olan şəxslərə yüksək keyfiyyətli hüquqi yardım göstərilməsini təmin etməkdən ibarət olmuşdur.

**•"Əmək istismarına qarşı birgə mübarizə" layihəsi**. Layihənin icrasına ATƏT-in Demokratik Təsisatlar və İnsan Hüquqları Bürosunun maliyyə dəstəyi ilə 2010-cu ilin avqust ayında başlanılmış və layihə 2011-ci ilin mart ayınadək həyata keçirilmişdir. Layihənin əsas məqsədi Azərbaycanda əməyin istismarı və insan alverinin səviyyəsinin azaldılması və aşkar olunmuş qurbanlara pulsuz hüquqi yardımın göstərilməsindən ibarət olmuşdur.

**• "Əmək istismarı və insan alveri qurbanlarının hüquqi yardımla təmin edilməsi" layihəsi**. ATƏT-in Demokratik Təsisatlar və İnsan hüquqları Bürosunun maliyyə dəstəyi ilə bu layihənin icrasına 2011-ci ilin may ayında başlanılmış və 8 ay müddətinə həyata keçirilmişdir. Layihənin əsas məqsədi Azərbaycanda əmək istismarı/insan alverinin səviyyəsinin azaldılması, potensial insan alveri/əmək istismarı qurbanlarının (vətəndaşlığı olmayan şəxslərin) sayının azaldılmasına yardım etmək və əmək istismarı ilə bağlı ictimai məlumatlılığın artırılması olmuşdur.

•**"İnsan alveri və əmək istismarı qurbanlarına hərtərəfli hüquqi yardım" layihəsi.** ATƏT-ın Bakı ofisinin maliyyə dəstəyi ilə bu layihənin icrasına 2012-ci ilin yanvar ayında başlanılmış və bir il müddətinə davam etdiriləcəkdir. Layihənin əsas məqsədi məcburi əməyin və ya insan alverinin qurbanı olan kişilər üçün sığınacağın təşkil edilməsi və onlara pulsuz hüquqi yardımın göstərilməsindən, insan alveri və məcburi əməyə qarşı mübarizədə Hökumətə dəstəyin verilməsindən ibarətdir.

•**"İnsan alveri qurbanlarına hüquqi yardım və təhlükəsiz sığınacağın təşkili" layihəsi.** ABŞ-ın Azərbaycandakı Səfirliyinin maliyyə dəstəyi ilə bu layihənin icrasına 1 iyul 2012 - ci ildən başlanılıb. Layihənin əsas məqsədi insan alveri qurbanı olmuş kişiləri təhlükəsiz sığınacaqla təmin etmək və onlara hüquqi yardım göstərməkdən ibarətdir.

AMM müxtəlif dövlət orqanları, beynəlxalq təşkilatlar, müxtəlif ölkələrin Azərbaycandakı səfirlikləri, konsulluqları və yerli və xarici qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq edir.

AMM-in nəzdində insan alveri və məcburi əməyin qurbanı olmuş kişilər üçün sığınacaq 2012-ci ilin yanvar ayından fəaliyyət göstərir. Sığınacaq 2 otaq, mətbəx və vanna otağından ibarətdir. Sığınacaq 12 çarpayı, 3 şkaf, 1 soyuducu, 2 televizor və yaşayış üçün zəruri olan digər vəsaitlərlə təchiz olunmuşdur. Sığınacaqdan indiyə qədər 67 nəfər istifadə etmişdir. Bunlardan 17 nəfəri Türkiyə, 1 nəfəri Tacikistan, 1 nəfəri Pakistan, 45 nəfəri Türkmənistan, 1 nəfəri Azərbaycan, 2 nəfəri Özbəkistan, 1 nəfəri Ermənistan və 1 nəfəri də İran İslam Respublikası vətəndaşı olmuşdur.

**2010-cu il üzrə təşkilata müraciət edənlərin sayı: 1 218 nəfər - 646** nəfərlə bağlı birbaşa müraciətlər hazırlanıb; 193 nəfər müxtəlif dövlət orqanlarına istiqamətləndirilib; 379 nəfərə isə telefon vasitəsi ilə məsləhət verilib.

**2011- il üzrə təşkilata müraciət edənlərin sayı: 1 119 nəfər - 487** nəfərlə bağlı birbaşa müraciətlər hazırlanıb; 138 nəfər müxtəlif dövlət orqanlarına istiqamətləndirilib; 494 nəfərə isə telefon vasitəsi ilə məsləhət verilib.

**2012-ci il üzrə (avqust ayına qədər) təşkilata müraciət edənlərin sayı: 790** nəfər - 295 nəfərlə bağlı birbaşa müraciətlər hazırlanıb; 83 nəfər müxtəlif dövlət orqanlarına istiqamətləndirilib; 412 nəfərə isə telefon vasitəsi ilə məsləhət verilib.

2010-cu il ərzində AMM-ə bilavasitə müraciət edənlərin sayı 1023 nəfər olmuşdur. Daxil olan müraciətlər ümumilikdə 2461 şəxsin problemlərini əhatə etmişdir. Daxil olan hər bir müraciət üzrə müvafiq dövlət orqanlarına müraciətlər göndərilmişdir. Bilavasitə müraciət edən 1023 şəxsdən 150 nəfər (123 nəfəri Əfqanıstan vətəndaşı, 16 nəfəri Çin Xalq Respublikasının vətəndaşı, 4 nəfəri Pakistan vətəndaşı, 3 nəfəri Bosniya və Herseqovina vətəndaşı, 2 nəfər Türkiyə Respublikasının vətəndaşı, 1 nəfəri Rusiya Federasiyasının vətəndaşı, 1 nəfər Türkmənistan Respublikasının vətəndaşı) Azərbaycan Respublikasının ərazisində məcburi əməyin qurbanı olmasını



bildirmiş, 12 nəfər isə xaricdə işləmək üçün bağladıqları müqavilələrin etibarlı olub-olmamasının araşdırılmasını xahiş etmişdir.

Məcburi əməyin istismarına məruz qalma faktına görə AMM-ə müraciət edənlərə işəgötürənlər tərəfindən 2010-cu ildə 212 000 AZN, cinsi istismara məruz qalanlara isə insan alverçiləri tərəfindən 17 500 AZN məbləğində ziyanın məhkəmədən kənar ödənilməsi təmin edilmişdir.

2011-ci ildə AMM-ə müraciət edən 581 nəfər şəxsə birbaşa hüquqi yardım göstərmişdir. Onlardan 171 nəfər əməyin istismarına məruz qalan şəxslərdir. Əməyin istismarı qurbanları əsasən Azərbaycan, Türkiyə, Əfqanıstan və İran İslam Repsulikasının vətəndaşlarıdır. Onların əksəriyyəti "Kaspi Lit Engineering" MMC, "Istanbul Charshi" Şirkəti, Karadeniz Yaman" Construction Firm (contractor of DIA Holding), "Sevene Mimarlik" LTD, "Azinko" Holding, "Accord" Construction Şirkəti tərəfindən istismara məruz qalmışlar. AMM onlara işəgötürən tərəfindən 207 951 AZN məbləğində ödənilməmiş əmək haqqının ödənilməsinə və öz ölkələrinə geri qayıtmalarına köməklik etmiş, bundan başqa əcnəbilərin işlədikləri şirkətlərin rəhbərliyi ilə görüşlər keçirərək təxminən 500 000 AZN məbləğində ödənilməmiş əmək haqqının dolayı benefisiarlara da ödənilməsinə nail olmuşdur.

Ötən il ərzində təşkilata 14 nəfər cinsi istismar qurbanını müraciət etmişdir. Müraciət edənlərin əksəriyyəti Özbəkistan və Azərbaycan Respublikasının vətəndaşlarıdır. Təşkilat Özbəkistan Respublikası vətəndaşlarının öz ölkələrinə geri qayıtmalarına köməklik göstərmişdir.

Bundan başqa, AMM orqanların transplantasiyası cinayətinin qurbanı olan 1 nəfər şəxsə də hüquqi yardım göstərmiş və onun pozulmuş hüquqlarını AR Ali Məhkəməsində müdafiə etmişdir.

Təşkilat keçən il ərzində potensial qurban olan 80 nəfər sənədsiz şəxsin şəxsiyyəti təsdiq edən müvafiq sənəd əldə etmələrinə köməklik göstərmişdir.

2012-ci ilin ilk 6 ayı ərzində (yanvar-iyun 2012-ci il) AMM-ə 253 nəfər müraciət etmişdir. Onlardan 181 nəfərinə təşkilatın hüquqşünasları tərəfindən birbaşa hüquqi yardım göstərilmişdir. Qalan 72 nəfər isə müxtəlif dövlət orqanlarına, QHT-lərə, beynəlxalq təşkilatlara və səfirliklərə istiqamətləndirilmişdir.

Müraciət edənlərin 67-si əməyin istismarına məruz qalan şəxslərdir. Əmək istismarı qurbanları əsasən Türkiyə, Əfqanıstan, Azərbaycan və İran İslam Repsulikasının vətəndaşlarıdır. Onların əksəriyyəti "ROTA", Karadeniz Yaman", "Sevene Mimarlik" LTD, "Karsac" Şirkəti, (DIA Holdingin sudpordaçı təşkilatları), "Atlas" Tikinti tərəfindən istismara məruz qalmışlar. AMM onlara işəgötürən tərəfindən 47 472 AZN məbləğində ödənilməmiş əmək haqqının ödənilməsinə və öz ölkələrinə geri qayıtmalarına köməklik etmiş, bundan başqa əcnəbilərin işlədikləri şirkətlərin rəhbərliyi ilə görüşlər keçirərək təxminən 46 000 AZN məbləğində ödənilməmiş əmək haqqının dolayı benefisiarlara da ödənilməsinə nail olmuşdur.

Eləcə də, ev qulluqçuluğuna cəlb edilən 1 Filippin vətəndaşı da təşkilata müraciət etmişdir.

## 2. İnsan alverinə qarşı mübarizə üzrə beynəlxalq və daxili qanunvericilik: tahlili və tətbiqi problemləri

### 2.1. İnsan alverinə qarşı mübarizə üzrə normativ hüquqi aktlar:

#### 2.1.1. Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq sənədlər:

•BMT–nin "İnsan alverinə və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarına qarşı mübarizə haqqında" 2 dekabr 1949-cu il tarixli Konvensiyası (qoşulma tarixi: 31 may 1996-cı il);

•BƏT-in "Məcburi əməyin ləğv edilməsi haqqında" 25 iyun 1957-ci il tarixli Konvensiyası (qoşulma tarixi: 2000-ci il);

•"İnsan alverinin qarşısının alınması və ona qarşı mübarizə haqqında" Brüssel Bəyannaməsi (qoşulma tarixi: 20 sentyabr 2002-ci il);

•BMT-nin Transmilli mütəşəkkil cinayətkarlığa qarşı 12 dekabr 2000-ci il tarixli Konvensiyası və onu tamamlayan İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında və Miqrantların quru, dəniz və hava ilə sərhəddən qanunsuz keçirilməsinə qarşı Protokolları (qoşulma tarixi: 13 may 2003-cü il);

•"Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlər arasında insan alverinə, insan orqanları və toxumalarının qanunsuz ticarətinə qarşı mübarizə sahəsində əməkdaşlıq haqqında" 25 noyabr 2005-ci il tarixli Saziş (qoşulma tarixi: 23 may 2006-cı il);

•"Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin insan alverinə qarşı mübarizə sahəsində 2007-2010-cu illər üçün əməkdaşlıq Proqramı haqqında" 28 noyabr 2006-cı il tarixli Qərar (qoşulma tarixi: 30 dekabr 2008-cı il);

•Avropa Şurasının "İnsan alverinə qarşı mübarizə haqqında" 16 may 2005-ci il tarixli Konvensiyası (qoşulma tarixi: 11 may 2010-cu il);

#### 2.1.2. Daxili Qanunvericilik:

•Azərbaycan Respublikasının Cinayət Məcəlləsi;
•Azərbaycan Respubikasının İnzibati Xətalar Məcəlləsi;
•Azərbaycan Respublikasının Əmək Məcəlləsi

Bundan əlavə, 2004-cü ildə Azərbaycan Respublikasında İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı təsdiq edilmişdir. 2009-cu ildə isə yeni Milli fəaliyyət Planı təsdiq edildi (2009-2013-cü illər üzrə). Milli Fəaliyyət Planına uyğun olaraq aşağıdakı qanunvericilik aktları qəbul edildi:

• "İnsan orqan və (və ya) toxumalarının transplantasiyası haqqında" Azərbaycan Respublikasının Qanunu (28 oktyabr 1999-cu il);

• "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu (28 iyun 2005-ci il);



• "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu (30 sentyabr 2005-ci il). Həmin qanunla AR CM-ə insan alveri (maddə 144-1), məcburi əmək (maddə 144-2), insan alverindən zərər çəkmiş şəxs haqqında konfidensial məlumatları yayma (maddə 316-1) maddələri əlavə edilmişdir. Eyni zamanda, həmin vaxta qədər CM-in 173-cü maddəsi ilə cinayət məsuliyyəti nəzərdə tutan "Yetkinlik yaşına çatmayanın alqı-satqısı" maddəsi çıxarıldı və həmin maddənin dispozisiyasında nəzərdə tutulanlar 144-1-ci maddədə təsbit edildi;

•"İnsan alveri cinayəti qurbanları üçün xüsusi müəssisələrin yaradılması, maliyyələşdirilməsi, fəaliyyəti, habelə onların fəaliyyətinə nəzarət Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (09 noyabr 2005-ci il);

• "İnsan alveri qurbanlarına kömək Fondu haqqında" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (12 yanvar 2006-cı il);

•"İnsan alveri qurbanlarının müvəqqəti yaşaması üçün sığınacaq haqqında Nizamnamə"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin əmri (17 fevral 2006-cı il);

• "İnsan alveri qurbanlarının sosial reabilitasiyasının həyata keçirilməsi Qaydaları"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (06 mart 2006-cı il);

• "İnsan alverindən zərər çəkmiş şəxslərə reinteqrasiya dövründə ödənilən müavinətin məbləğinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (17 iyun 2006-cı il);

• "İnsan alveri cinayəti qurbanlarının insan alverinə qarşı mübarizə üzrə xüsusi polis qurumuna təhvil verilməsi Qaydalarının təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (01 fevral 2008-ci il);

• "İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi Qaydaları"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (11 avqust 2009-cu il);

• "İnsan alveri qurbanlarının müəyyən edilməsi" Qaydalarının təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (03 sentyabr 2009);

• "İnsan alverinin qurbanı olmuş uşaqların sığınacaqda yerləşdirilməsi və saxlanılması Qaydaları"nın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (19 noyabr 2009-cu il);

•"İnsan alverinə şərait yaradan sosial problemlərin aradan qaldırılması üzrə Proqram"ın təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (20 may 2011-ci il);

•"İnsan orqan və (və ya) toxumalarının transplantasiyası Qaydaları və Şərtləri"nin təsdiq edilməsi barədə Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı (17 noyabr 2011-ci il);

### 2.2. Qanunvericiliyin təhlili və tətbiqi praktikası

***2.2.1. "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun təhlili və implementasiyası***

Azərbaycan Respublikasında İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planına uyğun olaraq, 04 avqust 2005-ci ildə "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi.

Qanun Azərbaycan Respublikasında insan alverinin profilaktikasını, insan alverinə qarşı mübarizənin hüquqi və təşkilati əsaslarını, habelə insan alveri qurbanlarının hüquqi vəziyyətini müəyyən edir, insan alveri qurbanlarının müdafiəsi və onlara yardım göstərilməsi məsələlərini tənzimləyir.

Qanunun qəbul olunması zamanı BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyasının və onu tamamlayan "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" Protokolun, habelə 2002-ci il sentyabrın 20-də qəbul edilən "İnsan alverinin qarşısının alınması və ona qarşı mübarizə haqqında" Brüssel Bəyannaməsinin müddəaları nəzərə alınmışdır.

"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununa görə, **"insan alveri" dedikdə**, zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə hədə-qorxu və ya məcburetmə vasitələri ilə, oğurlama, dələduzluq, aldatma, yolu ilə təsir imkanlarından və ya hakimiyyətdən sui-istifadə etməklə, yaxud da digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə və ya almaqla insanların istismar məqsədi ilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi, və ya qəbul edilməsi başa düşülür.

BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyanı tamamlayan "İnsan alverinin, xüsusilə qadın və uşaq alverinin qarşısının alması, aradan qaldırılması və cəzalandırılması haqqında" Protokoluna görə "insan alveri" dedikdə, güc tətbiq etmək hədəsi ilə və ya güc tətbiq etməklə və ya məcbur etmə, oğurlama, dələduzluq, aldatma, hakimiyyətdən və ya vəziyyətin zəifliyindən sui-istifadə etməklə, yaxud da digər şəxsə nəzarət edən şəxsin razılığını almaq üçün ödəniş və ya mənfəət şəklində rüşvət verməklə insanların istismar məqsədi ilə cəlb edilməsi, daşınması, təhvil verilməsi, gizlədilməsi və alınması başa düşülür.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində insan alverinin anlayışı yuxarıda göstərilən anlayışlarla müqayisədə daha genişdir. Konvensiya və qanun yalnız istismar niyyəti ilə törədilən əməlləri insan alveri kimi qiymətləndirdiyi halda, Cinayət Məcəllәsində istismar bütün hallar üçün nəzərdə tutulmur. Başqa sözlə, Azərbaycan Respublikası Cinayət Məcəlləsinə görə insan alveri cinayəti istismar niyyəti olmadan da törədilə bilər.

Belə ki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 144-1.1-ci



maddəsinə görə, insan alveri dedikdə, şəxsin alqı-satqısı və ya ona sahiblik ilə əlaqədar digər əqdlərin bağlanması, yaxud onun istismar edilməsi məqsədilə Azərbaycan Respublikasının dövlət sərhədindən keçirilməsi üçün və ya eyni məqsədlə digər şəxslərə verilməsi üçün cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və qəbul edilməsi başa düşülür.

Göründüyü kimi, "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" Protokolda verilmiş anlayışdan fərqli olaraq Cinayət Məcəlləsi aşağıdakı 4 alternativ halı cinayət məsuliyyəti yaradan əməl kimi qiymətləndirmişdir ki, onların da ikisində istismar nəzərdə tutulmayıb:

- şəxsin alqı-satqısı (istismar nəzərdə tutulmayıb);
- şəxsə sahiblik ilə əlaqədar digər əqdlərin bağlanması (istismar nəzərdə tutulmayıb);
- şəxsin istismar edilməsi məqsədilə Azərbaycan Respublikasının dövlət sərhədindən keçirilməsi;
- şəxsin istismar məqsədilə başqalarına verilməsi.

Göstərilən alternativ hallardan sonuncu ikisi üçün şəxsin cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi cinayət məsuliyyətinə səbəb olan hal kimi nəzərdə tutulmuşdur.

CM-nin 144-1.1-ci maddəsinin dispozisiyasında insan alverinə anlayış verilən zaman BMT-nin "İnsan alverinə və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarına qarşı mübarizə haqqında" Konvensiyası, "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyası və həmin Konvensiyanı tamamlayan "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" Protokolundan, "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş anlayışlardan istifadə olunmaqla yanaşı, Cinayət Məcəlləsinin həmin vaxta kimi qüvvədə olan 173-cü maddəsinin dispozisiyasından da istifadə olunmuşdur. Həmin maddənin dispozisiyası 144-1.1-ci maddəyə daxil edilmiş və 173-cü maddə Məcəllədən çıxarılmışdır.

Hesab edirik ki, insan alverinə qarşı mübarizənin effektivliyini təmin etmək məqsədilə 144-1.1-ci maddədə insan alverinə verilən anlayış "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" Protokol və "İnsan alverinə qarşı mübarizə haqqında" Qanunla müqayisədə daha geniş şəkildə verilmiş və məqsədindən asılı olmayaraq şəxsin alqı-satqısı və ya ona sahiblik ilə əlaqədar digər əqdlərin bağlanması cinayət məsuliyyəti yaradan əməl kimi nəzərdə tutulmuşdur.

MDB məkanında olan bəzi dövlətlərin insan alverinə qarşı mübarizə ilə bağlı qəbul etdikləri qanunlarla müqayisədə, "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun kifayət qədər mükəmməl olmasına baxmayaraq, Qanunun tətbiqində aşağıdakı problemlər mövcuddur:

"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə Azərbaycan Respublikası Prezidentinin 04 avqust 2005-ci il tarixli Fərmanının 1.1-ci bəndi ilə, Azərbaycan Respublikasının Nazirlər Kabinetinə tapşırılıb ki, qüvvədə olan qanunvericilik aktlarının "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa uyğunlaşdırılması barədə təkliflərini hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

Hesab edirik ki, göstərilən Fərmanda "Azərbaycan Respublikasının qüvvədə olan qanunvericilik aktlarının həmin qanuna uyğunlaşdırılması" dedikdə, eyni zamanda Cinayət Məcəlləsinin "insan alveri" əməli ilə oxşar xarakterli əməllərə görə cəza müəyyən edən maddələrinin də sanksiyalarında müvafiq dəyişikliklərin edilməsi nəzərdə tutulur. Lakin həmin maddələrin sanksiyalarında müvafiq dəyişikliklərin aparılması ilə bağlı Fərmanda nəzərdə tutulan tədbirlər Nazirlər Kabineti tərəfindən həyata keçirilməyib. Qanunun qəbul edilməsindən sonra Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə "insan alveri"ni cinayət məsuliyyətinə səbəb olan əməl kimi nəzərdə tutan yeni 144-1 maddə əlavə edildi.

Lakin Cinayət Məcəlləsində insan alveri ilə oxşar xarakterli əməllərə görə məsuliyyət müəyyən edən digər maddələrdə Fərmanda nəzərdə tutulan dəyişikliklər edilmədi. Belə ki, insan alveri faktına görə əmlakı müsadirə olunmaqla beş ildən on beş ilədək müddətə azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulsa da, məcburi əməyə (maddə 144-2) görə iki ilədək müddətə islah işləri və ya 2 ilədək müddətə azadlıqdan məhrum etmə cəzası, yetkinlik yaşına çatmayanları fahişəliyə cəlb etmə (maddə 171) faktına görə dörd ildən səkkiz ilədək müddətə azadlıqdan məhrumetmə cəzası, fahişəliyə cəlb etmə (maddə 243) faktına görə üç ildən altı ilə qədər azadlıqdan məhrumetmə cəzası nəzərdə tutulmuşdur.

İnsan alverinə qarşı mübarizə sahəsində Azərbaycan Respublikasının da qoşulduğu beynəlxalq sənədləri imzalayan dövlətlərin əksəriyyəti, məsələn Gürcüstan, Almaniya, Avstriya və s. ölkələrin Cinayət Məcəlləsinə "insan alveri"ni cinayət əməli kimi nəzərdə tutan maddə əlavə etdikləri zaman oxşar xarakterli cinayətlərə görə məsuliyyət müəyyən edən maddələrin də sanksiyalarında dəyişikliklər etmiş və insan alveri əməlinə görə məsuliyyət nəzərdə tutan sanksiyaya uyğunlaşdırmışlar.

Apardığımız araşdırma zamanı müəyyən olunmuşdur ki, barəsində Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 144-1.1 -ci maddəsi ilə cinayət işi başlanılmış şəxslərə bu maddədə nəzərdə tutulan sərt cəzaların tətbiqinin qarşısını almaq və onların məsuliyyətini yüngülləşdirmək məqsədilə istintaq orqanları tərəfindən onların əməlləri əsassız olaraq daha yüngül cəza nəzərdə tutan digər maddələrə tövsif edilir və cinayət işləri baxılması üçün məhkəmələrə göndərilir.



Məhkəmələr də həmin şəxslərə bir qayda olaraq azadlıqdan məhrumetmə ilə bağlı olmayan cəzalar təyin edir. Bütün bunlar insan alveri cinayəti törətmiş şəxslərin təkrar olaraq həmin cinayəti törətmələrinə şərait yaradır. Məhz insan alveri cinayəti törətmiş şəxslərə tətbiq edilən cəzaların onların törətdikləri cinayətlərə adekvat olmadığının nəticəsidir ki, bu kateqoriyadan olan cinayətləri törədənlərin 20 faizdən çoxu əvvəllər oxşar əmələ görə cinayət məsuliyyətinə cəlb olunan şəxslərdir. Odur ki, Cinayət Məcəlləsinin yuxarıda göstərilən maddələrinin sanksiyalarında uyğunlaşma aparılması məsələsi nəzərdən keçirilməlidir.

"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, Milli Koordinator Azərbaycan Respublikasının Prezidentinə, Milli Məclisinə, İnsan Hüquqları üzrə Müvəkkilinə insan alverinə qarşı mübarizəyə dair illik hesabat təqdim etməlidir. Lakin nədənsə həmin hesabatda nəzərdə tutulan məlumatlar ictimaiyyətə açıqlanmır. Təqdim olunan məlumatın (hesabatların) açıq olması potensial qurbanları gözləyən təhlükə, dövlət tərəfindən həyata keçirilən tədbirlər, dövlət tərəfindən təmin edilən müdafiə tədbirləri barədə potensial qurbanların məlumatlandırılması baxımından mühüm əhəmiyyətə malik olmuş olardı.

Eyni zamanda, digər ölkələrin təcrübəsində Milli Koordinator mülki şəxs olduğu halda, Azərbaycan Respublikasında Milli Koordinator Daxili İşlər Nazirinin müavinidir. Milli Koordinatorun Daxili İşlər Nazirinin müavini olması DİN-nin tabeliyində yaranmış sığınacağın da müstəqil olmasını şübhə altına qoyur.

Qanunun 12-ci maddəsinə görə, insan alveri qurbanlarının müdafiəsi məqsədilə xüsusi müəssisələrin, sığınacaqlar və yardım mərkəzlərinin yaradılması nəzərdə tutulmuşdur. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 09 noyabr 2005-ci il tarixli 203 saylı Qərarı ilə "İnsan alveri qurbanları üçün xüsusi müəssisələrin yaradılması, maliyyələşdirilməsi, fəaliyyəti, habelə onların fəaliyyətinə nəzarət Qaydaları" təsdiq edilmişdir.

Qanunda Azərbaycan Respublikasında sığınacaqların açılması nəzərdə tutulsa da, bu vaxta kimi ancaq bir sığınacaq (Bakı şəhərində) açılmışdır. Respublikada cəmi bir sığınacağın fəaliyyət göstərməsi isə insan alverinə qarşı mübarizənin səmərəliliyini şübhə altına qoyur.

Sığınacaq Daxili İşlər Nazirliyi tərəfindən yaradılır və həmin Nazirliyin tabeliyində olan dövlət büdcəsi vəsaiti hesabına saxlanılan qurum kimi fəaliyyət göstərir.

Qanunun tələbinə görə, sığınacaq davranışından, cinayət təqibi orqanları ilə əməkdaşlıq etmək və insan alverçilərinə qarşı ifadə vermək istəyindən asılı olmayaraq, insan alverinin qurbanına onun xahişi ilə 30 gün müddətinə təqdim edilir. Sığınacaq verilmə müddəti xüsusi polis qurumunun və ya insan alveri qurbanının vəsatəti ilə uzadıla bilər. Bütün hallarda sığınacağa yerləşdirmə və sığınacaq vermə müddətinin uzadılması insan alveri qurbanının razılığı ilə həyata keçirilir. Hesab edirik ki, insan alveri

qurbanlarının sığınacaqda qalma müddətinin uzadılması eyni zamanda, qurbanın vəkilinin vəsatəti ilə də həyata keçirilməlidir.

Qanunun 14.1-ci maddəsinə görə, insan alveri qurbanlarına onların hüquq və mənafelərinin müdafiəsinə dair mövcud inzibati və hüquqi prosedurlar haqqında izahatlar vermək, tibbi psixoloji və digər zəruri yardımın göstərilməsi, habelə insan alveri qurbanlarının sosial reabilitasiyasına kömək məqsədilə yardım mərkəzləri yaradılmalıdır. Yardım mərkəzləri Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən yaradılmalıdır. Hələlik yardım mərkəzləri yaradılmayıb.

Qanun insan alverindən zərər çəkmiş şəxslərə reinteqrasiya dövründə dövlət büdcəsi və digər mənbələr hesabına Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məbləğdə müavinət ödənilməsini nəzərdə tutmuşdur. Azərbaycan Respublikasının Nazirlər Kabineti insan alverindən zərər çəkmiş şəxslərə reinteqrasiya dövründə ödənilən müavinəti 200 manat məbləğində müəyyən etmişdir.

İnsan alveri qurbanlarının şəxsi və ailə həyatının sirri olan məlumatların yayılması Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq məsuliyyətə səbəb olur. İnsan alverindən zərər çəkmiş şəxsin, onun yaxın qohumlarının, habelə insan alverinə qarşı mübarizəyə yardım göstərən şəxslərin həyat və sağlamlığına təhlükə yarada bilən məlumat konfidensial hesab edilir və onun yayılması qadağandır. Bundan başqa, bəzən əxlaqsızlıq yuvalarında çəkilişlərlə keçirilən əməliyyat axtarış tədbirlərinin tərəflərin sifətlərinin gizlədilmədən elektron KİV-lərdə göstərilməsinin şahidi olmuşuq. Belə hallar indi də davam etməkdədir.

Qanunun 18-ci maddəsində insan alverindən zərər çəkmiş şəxslərin təhlükəsizliyinin təmin edilməsi prinsipləri nəzərdə tutulub. Qanunun tələbinə görə, təhlükəsizliyin təmin edilməsi "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun həyata keçirilir.

Həmin Qanuna görə, cinayət işi üzrə istintaq və ya məhkəmə icraatına kömək etmələri ilə bağlı müdafiə olunan şəxslər barəsində öldürməklə hədənin icra ediləcəyi, zor tətbiq ediləcəyi, həmin şəxslərin əmlakının məhv ediləcəyi və ya ona ziyan vurulacağı qorxusunun mövcudluğu barədə təhlükəsizliyi təmin edən orqanlar tərəfindən müəyyən edilmiş real məlumatlar təhlükəsizlik tədbirlərinin tətbiqi üçün əsasdır.

Təhlükəsizlik tədbirlərinin həyata keçirilməsi insan alveri ilə bağlı cinayətlərə dair ibtidai araşdırma, məhkəmə baxışı, habelə məhkəmənin yekun qərarı çıxarıldıqdan sonrakı dövr də daxil olmaqla, təhlükə tam aradan qalxanadək davam etdirilməlidir.

[1] "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 17.2-ci maddəsi
[2] "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 17.4-cü maddəsi



"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunun 18.3-cü maddəsinə görə, insan alverindən zərər çəkmiş şəxslərin şəxsiyyətinin anonimliyinin təmin edilməsi məqsədi ilə uydurma adlardan istifadə edilə bilər. Bu göstəriş "Cinayət prosesində iştirak edən şəxslərin dövlət müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununda da nəzərdə tutulmuşdur. Həmin Qanunun 13-cü maddəsində göstərilir ki, müdafiə olunan şəxslərin təhlükəsizliyini başqa tədbirlərlə təmin etmək mümkün olmadıqda, onların razılığı əsasında müstəsna hallarda, onlara anket məlumatları dəyişdirilmiş, şəxsiyyəti təsdiq edən sənəd və digər sənədlər verilə bilər, habelə onların xarici görkəmi dəyişdirilə bilər.

Aparılan sorğular bu sahədə də maarifləndirmənin aşağı səviyyədə olmasını göstərmişdir.

Əcnəbi və ya vətəndaşlığı olmayan şəxs insan alverindən zərər çəkmiş şəxs hesab olunduqda, onun barəsində 1 il müddətində Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarma tətbiq edilmir. Lakin Qanunun başqa normasına görə, şəxsiyyətini müəyyən etmək mümkün olmayan əcnəbi və ya vətəndaşlığı olmayan insan alveri qurbanlarına Azərbaycan Respublikasında yaşamaq hüququ verilə bilməz. Belə şəxsin Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxarılması üçün tədbirlər görülür.

Bir qayda olaraq, qurbanların sənədləri insan alverçiləri tərəfindən məhv edilir, onların mənşə ölkələri barədə məlumatlar saxtalaşdırılır. Bu hərəkətlər təbii ki, daha çox qurbanların şəxsiyyətlərinin müəyyənləşdirilməsində problemlərin yaradılmasına yönəldilmişdir. Şəxsiyyəti bəlli olmayan əcnəbi və ya vətəndaşlığı olmayan qurbanın ölkədən çıxarılması qaydası da başa düşülən deyil. Odur ki, qurban əcnəbi və ya vətəndaşlığı olmayan şəxs olduqda onun şəxsiyyətini müəyyən etmədən ölkədən çıxarılması həmin şəxsin qanunda nəzərdə tutulan hüquq və azadlıqlarının pozulmasına səbəb olur.

İnsan alverində iştirak edən şəxslər Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş qaydada cinayət məsuliyyətinə cəlb edilirlər. Vəzifəli şəxsin insan alverinə şərait yarada biləcək hərəkət və hərəkətsizliyinin məsuliyyətə səbəb olması göstərilib. Əslində isə bu vaxta kimi Azərbaycan Respublikasında insan alverinə görə cinayət məsuliyyətinə cəlb edilən vəzifəli şəxs olmayıb.

İnsan alverindən əldə edilmiş bütün əmlak (daşınmaz əmlak, pul vəsaitləri, qiymətli kağızlar və sair əmlak) qanunvericiliklə müəyyən edilmiş qaydada məhkəmənin qərarı ilə müsadirə olunur və xüsusi yaradılmış insan alveri qurbanlarına kömək fonduna keçirilir.

Qanunda nəzərdə tutulmasına baxmayaraq, bu vaxta kimi insan alverindən əldə edilmiş əmlakın müsadirəsi təcrübəsi də olmayıb.

[3] "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 20.6-cı maddəsi

Qanunun 23-cü maddəsinə görə məhkəmələr insan alveri qurbanlarına dəymiş maddi və mənəvi ziyanın ödənilməsi məsələsini həll edirlər. Bu sahədə müəyyən təcrübə formalaşsa da, dövlət hesabına kompensasiya ödənilməsi təcrübəsi hələ ki, yoxdur.

Qanuna görə, insan alverindən zərər çəkmiş şəxslərə dəymiş ziyan prosessual qanunvericiliyə uyğun olaraq insan alverçilərinin əmlakı hesabına ödənilməlidir. Bu əmlak kifayət etmədikdə, dəymiş ziyan məhkəmənin qərarına əsasən insan alveri qurbanlarına kömək fondunun vəsaiti hesabına ödənilə bilər .

## 2.2. "İnsan alveri qurbanlarına kömək Fondu haqqında" Əsasnamə

"İnsan alverinə qarşı mübarizə haqqında" Qanuna uyğun olaraq, 12 yanvar 2006-cı ildə Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən insan alveri qurbanlarına kömək fondu haqqında Əsasnamə təsdiq edilmişdir . Həmin Əsasnamənin 1.2-ci maddəsinə əsasən, Kömək Fondu DİN-in nəzdində yaradılmışdır.

Əsasnaməyə görə, Fondun əsas vəzifəsi Azərbaycan Respublikasında insan alveri qurbanlarının xərclərinin ödənilməsi, onlara yardım göstərilməsi və insan alveri qurbanlarının sosial reabilitasiyası ilə bağlı digər işlərin öz səlahiyyətləri çərçivəsində maliyyələşdirilməsini təmin etməkdir .

Fondun vəsaiti qanunvericiliklə müəyyən edilmiş qaydada məhkəmənin qərarı ilə müsadirə olunmuş və Fondun hesabına köçürülmüş insan alverindən əldə edilmiş bütün əmlakdan (daşınmaz əmlak, pul vəsaitləri, qiymətli kağızlar və sair əmlak) ibarətdir. İdarə, müəssisə və təşkilatlar, fiziki şəxslər və beynəlxalq qurumlar fonda ianələr və qrantlar verə bilər.

İnsan alveri qurbanlarının hüquqları, həmçinin "Cinayət prosesində iştirak edən şəxslərin müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanunu ilə də müdafiə olunur . Bu Qanun cinayət işi üzrə zərər çəkən şəxslərin və cinayət prosesində iştirak edən digər şəxslərin təhlükəsizliyinin təmin edilməsini və sosial müdafiəsini nəzərdə tutan tədbirlər sistemini müəyyənləşdirir.

Qanunun 3-cü maddəsi həmin Qanunla müdafiə olunan şəxslərin siyahısını müəyyən etmişdir və həmin siyahıya cinayət işi üzrə zərərçəkən və ya onun nümayəndəsi də daxildir.

[4] "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 21.1-ci maddəsi
[5] "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 22.1-ci maddəsi
[6] "İnsan alverinə qarşı mübarizə haqqında" Qanunun 23.2-ci maddəsi
[7] "İnsan alveri qurbanlarına kömək fondu haqqında" Əsasnamənin 2.1-ci bəndi

[9] Qanun 1 dekabr 1998-ci il tarixdə qəbul edilmişdir.



Azərbaycan Respublikasında insan alveri və məcburi əmək qurbanlarına insan alverçisi və ya istismarçısının qanunsuz hərəkətləri nəticəsində vurulmuş maddi və mənəvi ziyanın ödənilməsi cinayət mühakimə icraatı və mülki mühakimə icraatı qaydasında həyata keçirilir.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi qurbanlara dəymiş ziyanın ödənilməsi üçün konkret prosessual qaydalar nəzərdə tutmuşdur. Mülki prosessual qanunvericiliyin normaları cinayət mühakimə icraatının prinsiplərinə zidd olmadıqda və mülki iddia üzrə icraatda zəruri olan qaydalar bu Məcəllədə nəzərdə tutulmadıqda mülki prosessual qanunvericiliyin tətbiqinə yol verilir. Şəxs cinayət mühakimə icraatı zamanı mülki iddia verməmişsə, o, mülki mühakimə icraatı qaydasında mülki iddia verməyə haqlıdır. Cinayət mühakimə icraatı zamanı verilmiş, lakin məhkəmə tərəfindən baxılmamış saxlanılmış mülki iddia sonradan mülki mühakimə icraatı qaydasında verilə bilər .

Cinayətdən zərərçəkmiş şəxslərə dövlət hesabına kompensasiyanın verilməsi qaydası Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə müəyyən edilmişdir .

Həmin Məcəllənin 189-cu maddəsinə görə, cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə vurulmuş ziyana görə zərər çəkmiş şəxs kompensasiya almaq hüququna iki halda malikdir. Birincisi, ona qarşı bu əməlin törədilməsi haqqında məhkəmənin hökmü olsun. İkincisi, cinayət prosesini həyata keçirən orqanın yekun qərarı olmuş olsun.

Cinayət-Prosessual Məcəlləsində dövlət hesabına kompensasiyanın verilməsi məsələsinin həlli qaydaları da müəyyən edilir . Azərbaycan Respublikasının Dövlət büdcəsinin vəsaiti hesabına zərər çəkmiş şəxsə cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə vurulmuş ziyana görə kompensasiya verilməsi məsələsini zərər çəkmiş şəxsin ərizəsi ilə məhkəmə həll edir.

Göründüyü kimi, Cinayət-Prosessual Məcəlləsində qurbanlara kompensasiya ödənilməsi üçün müəyyən hallar nəzərdə tutulub və həmin Məcəllənin göstərilən maddələrinin tətbiq olunması kompensasiyaların ödənilməsi baxımından müsbət rol oynaya bilərdi. Lakin həmin maddələrin tətbiqinə başlanılmamışdır . Belə ki, "Cinayət Prosessual Məcəlləsinin tətbiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikası Qanununun 2-ci maddəsinə görə, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin zərərçəkmiş şəxsə kompensasiya verilməsinə dair müddəaları məhkəmə-hüquq islahatı başa çatdıqdan və müvafiq qanun qəbul edildikdən sonra qüvvəyə minəcək.

[10] Azərbaycan Respublikasının Cinayət Prosessual Məcəlləsinin 179.1, 179.2,180.2, 180.3-cü maddələri
[11] Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 189, 190, 191-ci maddələri
[12] Azərbaycan Respublikası Cinayət Prosessual Məcəlləsinin 191-ci maddəsi
[13] "Cinayət Prosessual Məcəlləsinin tətbiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanunu (14 iyul 2000-ci il)

Azərbaycanda məhkəmə hüquq islahatları başa çatmayıb, "Zərərçəkmiş şəxslərə dövlət tərəfindən kompensasiya verilməsi" haqqında Qanun qəbul edilməyib. Odur ki, cinayətdən zərərçəkmiş şəxslərə, o cümlədən insan alverinin qurbanlarına dövlət tərəfindən kompensasiyanın ödənilməsi həyata keçirilmir. Hesab edirik ki, ən qısa müddətdə adı çəkilən qanunun qəbul olunması üçün müvafiq tədbirlər görülməlidir.

### *2.3.Məcburi əməyin anlayışı və ona dair normalar*

Azərbaycan Respublikasının Konstitusiyası, Azərbaycan Respublikasının Əmək Məcəlləsi, digər qanunlar və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr məcburi əməyi qadağan edir. Belə ki, Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsinin 3-cü hissəsinə görə, heç kəs zorla işlədilə bilməz.

Azərbaycan Respublikası Əmək Məcəlləsinin 17-ci maddəsinə görə, hər-hansı qayda və üsulla, zor işlətməklə, həmçinin əmək müqaviləsinə xitam veriləcəyi hədə-qorxusu ilə işçini onun əmək funksiyasına daxil olmayan işi (xidməti) yerinə yetirməyə məcbur etmək qadağandır. İşçini məcburi əməyə cəlb edən təqsirkar şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilirlər.

Azərbaycan Respublikası Konstitusiyası, Azərbaycan Respublikasının Əmək Məcəlləsi, digər qanunlar və Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrlə qadağan edilmiş məcburi əməyə görə təqsirkar şəxslər üçün Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi və Cinayət Məcəlləsi ilə müvafiq məsuliyyət nəzərdə tutulmuşdur.

Belə ki, İnzibati Xətalar Məcəlləsinin 53-cü maddəsinə görə, əmək müqaviləsinə xitam veriləcəyi və ya kollektiv müqavilədə müəyyən edilmiş güzəşt və imtiyazlardan məhrum ediləcəyi hədə-qorxusu ilə işçinin əmək funksiyasına daxil olmayan işin (xidmətin) yerinə yetirilməsinə məcbur edilməsi məcburi əmək kimi qiymətləndirilmişdir.

Göründüyü kimi, məcburi əmək o vaxt inzibati məsuliyyətə səbəb olur ki, 1) məcburi əməyə cəlb olunan əmək müqaviləsi ilə işləmiş olsun, 2) hədə-qorxu kollektiv müqavilədə müəyyən edilmiş güzəşt və imtiyazlardan məhrum edilməsinə yönəlmiş olsun, 3) işçi isə onun əmək funksiyasına daxil olmayan işin (xidmətin) yerinə yetirilməsinə məcbur edilmiş olsun.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində məcburi əmək (maddə 144-2) cinayət məsuliyyətinə səbəb olan əməl kimi nəzərdə tutulmuşdur. Həmin maddəyə görə, hədə-qorxu, zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə, habelə qanunvericiliklə müəyyən edilmiş xüsusi hallardan başqa şəxsin azadlığını məhdudlaşdırmaqla müəyyən işin yerinə yetirilməsinə (xidmətin göstərilməsinə) məcbur etmə məcburi əmək hesab olunur.

İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulan məcburi əmək Cinayət Məcəlləsində nəzərdə tutulan məcburi əməkdən aşağıdakı xüsusiyyətlərinə



görə fərqlənir:

1.İnzibati Xətalar Məcəlləsində nəzərdə tutulan məcburi əməyə cəlb olunanlar Cinayət Məcəlləsində nəzərdə tutulan məcburi əməyə cəlb olunan şəxslərdən fərqli olaraq əmək müqaviləsi əsasında işləyən şəxslər olur.

2.İnzibati xəta kimi məcburi əməyə cəlb olunan şəxsə edilən hədə-qorxu cinayət əməli hesab edilən məcburi əməyə cəlb olunan şəxslərə tətbiq olunan hədə-qorxudan fərqli olaraq, əmək müqaviləsinə xitam verilməsi, kollektiv müqavilədə müəyyən edilmiş güzəşt və imtiyazlardan məhrum edilməsi hədə qorxusu ilə işçinin əmək funksiyasına daxil olmayan işin (xidmətin) yerinə yetirilməsinə məcbur edilməsinə yönəlmişdir.

Beynəlxalq sənədlərdə avaralıq, dilənçilik və parazit həyatın digər yolları məcburi əməyə səbəb olan əsas kimi qəbul edilsə də, Azərbaycan Respublikasının Cinayət Məcəlləsində həmin əməllərə görə cinayət məsuliyyəti nəzərdə tutulmamışdır. Yalnız Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin 307-1-ci maddəsi avaralıqla məşğul olmağa görə 10 günə qədər inzibati həbs nəzərdə tutmuşdur. Həmin Məcəllənin 307-1.2-ci maddəsi ilə yetkinlik yaşına çatmayanların öz valideynləri və başqa şəxslər tərəfindən avaralığa cəlb edilməsinə görə inzibati həbs müəyyən olunmuşdur. Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə görə, "avaralıqla məşğul olan" dedikdə, müəyyən yaşayış yeri və ya yaşamağa vəsaiti olmayan hər hansı ictimai faydalı işlə və ya peşə fəaliyyəti ilə məşğul olmayan (qanunvericiliklə müəyyən olunmuş qaydada işsiz statusu almış şəxslər istisna olmaqla), mütəmadi olaraq xırda oğruluq və ya dilənçilik yolu ilə dolanan şəxslər başa düşülür.

2000-ci ildə Azərbaycan Respublikasının qoşulduğu "Məcburi əməyin ləğv edilməsi haqqında" 1957-ci il tarixli (105 saylı) Konvensiyanın 1-ci maddəsinin "a" bəndində göstərilir ki, Beynəlxalq Əmək Təşkilatının bu Konvensiyanı təsdiq edən hər bir üzvü siyasi təzyiq, yaxud tərbiyə vasitəsi kimi və ya mövcud siyasi, sosial, yaxud iqtisadi sistemə zidd siyasi görüşlərin olmasına, yaxud siyasi görüşlərin ifadəsinə görə cəza kimi məcburi, yaxud icbari əməyi ləğv etməyi və onun hər hansı formasına əl atmamağı öhdəsinə götürür. Lakin bu Konvensiyanı ratifikasiya etmiş Azərbaycan Respublikasının Cinayət Məcəlləsi ilə toplantıları keçirmə qaydasını pozmaya görə 2 ilədək müddətə islah işləri müəyyən etmişdir. Bundan başqa, həmin Məcəllənin 233-cü maddəsi ilə nəzərdə tutulan ictimai qaydanın pozulmasına səbəb olan hərəkətləri təşkil etmə və ya bu cür hərəkətlərdə fəal iştirak etməyə görə iki ilədək müddətə islah işləri müəyyən edilmişdir. Hesab edirik ki, həm Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 169.1 və 233-cü maddələrinin , həm də Azərbaycan Respublikası Cəzaların İcrası Məcəlləsinin 95-ci maddəsinin daha geniş şəkildə araşdırılmasına ehtiyac vardır.

### 3. Azərbaycan Miqrasiya Təşkilatının insan alveri üzrə apardığı bəzi işlər

#### Joan – ev qulluqçuluğu işi

Joan Azərbaycan Respublikası ərazisində ev qulluqçuluğuna cəlb edilməklə əməyin istismarına məruz qalmışdır. O, 25 mart 1985-ci ildə Filippinin Poblacion San Luis Batanqas vilayətində anadan olub. 09 sentyabr 2010-cu il tarixdə Azərbaycan Respublikasının vətəndaşı, 1975-ci ildə Azərbaycan Respublikasında anadan olmuş İ.H. tərəfindən dayə kimi işlədilməsi üçün Azərbaycana Respublikasına gətirilib.

09 sentyabr 2010-cu il tarixdə onu Beynəlxalq Hava Limanında İ.H özü qarşılayıb və elə oradaca onun pasportunu alaraq bir daha geri qaytarmayıb. Joan işlədiyi evdə İ.H.-dan başqa, onun arvadı Samirə, uşaqları Ömər və Elmar da yaşayırmış. O, hər gün səhər saat 07:00-da yuxudan oyanaraq İ.H.-i işə yola salıb, daha sonra gecə saat 01:00- a qədər evin digər işləri ilə məşğul olurmuş. Ev işləri ilə yanaşı o, İ.H.-nin uşaqları (ərizəçi Azərbaycana gələrkən uşaqların birinin 1 yaşı, digəri isə 1 aylıq olmuşdur) ilə məşğul olur və arvadının qulluğunda dayanırmış. Azərbaycana gəldiyi ilk iki ayda ona yaxşı davransalar da sonradan ona olan münasibət dəyişib. O, Azərbaycanda yaşadığı 1 il 7 ay müddətində Azərbaycandan kənara çıxmayıb, hətta onun çalışdığı evdən kənara çıxmasına da icazə verilmirmiş. O, Bakıda olduğu müddətdə İ.H.-nin uşaqlarını gəzdirmək üçün cəmi üç dəfə İ. H.-nin arvadı ilə birlikdə evdən kənara çıxıb. İ.H. ona bildirib ki, əgər bu barədə polisə xəbər versən Azərbaycanda qanunsuz yaşadığın üçün səni cəzalandıracaqlar. O, yalnız uşaqları yedizdirdikdən sonra onlardan qalmış yemək artıqları ilə qidalanırmış. Axşam isə uşaqların otağında yatırmış.

İ.H. ona heç bir zaman əmək haqqını birbaşa ödəməmiş və bank vasitəsilə ərizəçinin ailəsinə göndərmişdir. Əmək haqqının alınmasını Joanın əri onunla telefon danışıqları vasitəsilə təsdiq edirmiş, onun özünün telefon vasitəsilə ailəsinə zəng vurmasına icazə verilmirdi, həmişə əri telefon edərək əlaqə saxlayıb, yalnız bir dəfə internet (Skype) vasitəsilə 15 dəqiqə müddətində əri ilə danışmağına imkan verilib.

İşin ağırlığına dözməyən Joan 16 aprel 2012-ci il tarixdə nahardan sonra saat 16:33-də işlədiyi evi tərk edərək üzərindəki 10 manat pulu taksi sürücüsünə verməklə onu Fəvvarələr meydanına aparmasını söyləmişdir. Fəvvarələr meydanında taksidən düşərək, "Park Bulvar" Ticarət Mərkəzinə getmiş və Ticarət Mərkəzində bir şəxsə yaxınlaşaraq ona kömək etməsini xahiş etmişdir. Həmin şəxs də onu "Azərbaycan Miqrasiya Mərkəzi" İctimai Birliyinə aparmışdır.

"Azərbaycan Miqrasiya Mərkəzi" İctimai Birliyinə müraciətdən sonra Joan İctimai Birliyin sığınacağına yerləşdirilmiş və Birliyin 30 aprel 2012-ci il tarixli 154 saylı məktubu ilə Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə İdarəsinə hadisə ilə bağlı geniş məlumat verilmişdir. Daha sonra Joan İctimai Birliyin əməkdaşları ilə birlikdə DİN-nin İnsan Alverinə Qarşı Mübarizə İdarəsində olmuş və hadisə ilə bağlı izahat vermişdir.

03-05-2012-ci il tarixində 173 saylı məktubla hadisə ilə bağlı İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinatora məlumat verilib və işin obyektiv araşdırılmasına yardım etməsi xahiş olunub.

DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinə ünvanlanmış müraciətin nəticəsi olaraq həmin İdarənin istintaq şöbəsinin baş müstəntiqi 26 may 2012-ci il tarixində cinayət işi başlanmasının rədd olunması haqqında Qərar qəbul edib. Həmin qərarla müstəntiq Joan Bangalanı evində işlədən şəxs barəsində əcnəbiyə yaşayış sahəsi vermiş vətəndaşlar tərəfindən qanunvericiliklə müəyyən edilmiş qaydada onların vaxtında qeydiyyata alınması və qeydiyyatdan çıxarılması üçün tədbirlər görməməsinə görə inzibati məsuliyyət müəyyən edib ki, həmin hissədə qərarın icrası Dövlət Miqrasiya Xidmətinə həvalə edilib. Onun isə öz ölkəsinə qaytarılması üçün Beynəlxalq Miqrasiya Təşkilatının Azərbaycandakı nümayəndəliyi tərəfindən tədbirlər görülməsi xahiş edilib.

Lakin bu qərara baxmayaraq, Joan 24-06-2012-ci ildə Bakı şəhərinin mərkəzində dostları ilə gəzən zaman Dövlət Miqrasiya Xidmətinin Bakı Regional Miqrasiya İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb və Bakı Regional Miqrasiya İdarəsinə aparılıb. Bundan sonra nə nümayəndəsinin, nə də digər şəxslərin onunla görüşünə icazə verilməmişdir. "Azərbaycan Miqrasiya Mərkəzi" İctimai Birliyi onun azad edilməsi üçün 26-06-2012-ci ildə İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinator, 06-07-2012-ci ildə Ombudsman, eləcə də Dövlət Miqrasiya Xidmətinə məktublar ünvanlamış və Dövlət Miqrasiya Xidmətinin Bakı Regional Miqrasiya İdarəsinin rəhbəri ilə görüşmüşdür. Eyni zamanda, hadisə ATƏT-in Bakı Ofisi, Beynəlxalq Miqrasiya İdarəsinin Azərbaycandakı Nümayəndəliyi, ABŞ Səfirliyi və Azərbaycanda fəaliyyət göstərən digər beynəlxalq təşkilatların və Səfirliklərin diqqətinə çatdırılmışdır.

28 iyun 2012-ci ildə Joanın vəkili Azərbaycan Respublikası DİN-in Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin 26 may 2012-ci il tarixli "cinayət işi başlanmasının rədd olunması haqqında" qərarından Azərbaycan Respublikası Baş Prokuroruna, 05 iyul 2012-ci ildə isə həmin qərardan Nərimanov Rayon Məhkəməsinə şikayət ərizəsi göndərilmişdir.

Eyni zamanda, Joanın qanunsuz olaraq Dövlət Miqrasiya Xidmətinin Bakı Regional Miqrasiya İdarəsində saxlanılmasına dair 1 saylı Bakı İnzibati-İqtisad Məhkəməsinə şikayət ərizəsi göndərilmişdir.

Lakin bütün görülən tədbirlərə baxmayaraq, onun azad edilməsi mümkün olmadı və Joan 10 iyul 2012-ci ildə Azərbaycan Respublikasının ərazisindən çıxardılaraq Filippin Respublikasına göndərildi.

11 may 2010-cu ildə Azərbaycan Avropa Şurasının "İnsan alverinə qarşı mübarizə haqqında" 16 may 2005-ci il tarixli Konvensiyasını ratifikasiya edib.

Qeyd olunan Konvensiyanın 13-cü maddəsinə əsasən, şəxsin insan alveri qurbanı olduğuna əmin olmaq üçün əsaslı səbəblər olduğu təqdirdə ona ən azı 30 günlük bərpa və fikirləşmə müddəti təmin olunmalıdır.

"Azərbaycan Miqrasiya Mərkəzi" İctimai Birliyi qeyd olunan normaya əsaslanaraq Joan Bangalanın işi üzrə müvafiq dövlət orqanlarına müraciət etsə də müraciət təmin olunmadı və şəxsə 30 günlük bərpa və fikirləşmə müddəti verilmədi.

Bundan əlavə, "İnsan alverinə qarşı mübarizə haqqında"Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə görə,əcnəbi və ya vətəndaşlığı olmayan şəxs insan alverindən zərər çəkmiş şəxs hesab olunduqda, onun barəsində 1 il müddətində Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartma tətbiq edilmir. Lakin Joanın işi üzrə istintaq başa çatana qədər onun Azərbaycanda qalmasının qanuni sayılması üçün Dövlət Miqrasiya Xidmətinə müraciət etsək də imtina cavabı aldıq.

### *Ə. G. – cinsi istismar işi*

Ə.G. bir qrup şəxs tərəfindən aldadılaraq Türkiyə Respublikasına aparılmış və cinsi istismarın qurbanına çevrilmişdir.

Şəxs ailə vəziyyəti ilə əlaqədar 2008-ci ildə işləmək üçün Gəncə şəhərindən Bakıya gəlib və bir il müddətində Bakıda satıcı və ofisiant işləyib. Bakıda olduğu müddətdə işlədiyi çay evində Günel və Çiçək adlı qızlarla tanış olub. Onun kirayə qalmağa ev axtarıdığını bilən qızlar ona Xalqlar Dostluğu metrosu yaxınlığında kirayə qaldıqlarını və onunla kirayə qala biləcəyini və kirayə haqqını da paylaşa biləcəyini bildiriblər. G.Ə. həmin evə baxıb bəyənmiş və onlarla birlikdə qalmağa razılaşıb. O zaman Afət adıyla tanıdığı əsl adı Şərafət olan qadını da ilk dəfə o evin sahibəsi kimi tanıyıb. Bir müddət sonra iş yerində problemləri olduğuna görə işdən çıxmalı olub və həmin vaxt tanıdığı bütün adamlara iş axtardığını bildirib. Bir gün axşam evin sahibəsi Şərafət onların qaldıqları evə gələrək ona iş tapmaqda kömək edəcəyini, narahat olmamağını bildirib və ona 20 manat da pul verib. O, pulu götürmək istəməsə də, ona pulu borc şəklində verdiyini və işləyəndə qaytaracağını deyib. Bundan sonra Şərafət tez-tez onun yaşadığı mənzilə gələrək ona gah pul verir, gah da yemək bişirib gətirirdi. Bir gün də ona yaxşı təklifi olduğunu, işləməklə uşağını və özünü saxlaya bilməyəcəyini, digər qızlarla birlikdə fahişəlik eləməyin ən yaxşı çıxış yolu olacağını bildirib. G.Ə. buna etiraz edərək belə bir işlə məşğul olmayacağını desə də, o şirin dildən yavaş-yavaş ağır dillə danışmağa başlayıb, evə və onun özünə borcunun olduğunu bildirib. Mütləq fahişəlik etməli olduğunu və borclarını qaytarmalı olduğunu, əks halda həmin pulları faizləri ilə birlikdə qaytarmalı olacağını bildirib. O, həm borcları, həm də işləmədiyi üçün ehtiyacları üzündən əlacsız qalaraq Şərafətlə işləyən Günel adlı şəxslə bara gedib.

Afət hər gün ondan pul istəyərək borcunu süni şəkildə artırır, ümumiyyətlə,



ona borclu olmasa da hər gün pul verməli olduğunu bildirib, səbəb kimi isə ona fahişəliyə imkan yaratdığını bəhanə gətirmişdir. Hətta o ərəfədə bacısı ilə əlbir olaraq G.Ə. ev almaq adı ilə aldadaraq xeyli pulunu alıblar.

G.Ə. 2010-cu ilin iyul ayından barda işləməyə son qoyub Natiq adlı şəxsin mağazasında işləməyə başlayıb. Lakin bu Afətin heç də xoşuna gəlməyib, dəfələrlə ona Dubayda və Türkiyədə qızlara müştəri tapan tanışları olduğunu, lazım olarsa onu da oraya yollaya biləcəyini, göndərdiyi bütün qızların hamısının razı qaldığını, çoxlu pullar qazandığını deyib. O, isə hər dəfə etiraz edərək bu mühitdən tamam uzaqlaşdığını və bu işlə məşğul olmaq istəmədiyini bildirib.

2010-cu ilin noyabr ayında G.Ə.-nin işlədiyi mağaza bağlanır. Bundan xəbərdar olan və onun fahişəliyə də razı olmadığını bilən Nailə və Şərafət ondan fahişəlikdə istifadə etmək üçün hiyləyə əl atıblar. 2010-cu ilin dekabr ayında o, Şərafətin təklifi ilə Türkiyə Respublikasından Azərbaycana ticarət məqsədi ilə tekstil malları seçmək və alıb gətirmək üçün Nailə ilə Türkiyəyə getməli olub. Aralarında olan ticarət razılaşmasına görə Şərafət işin qurulması üçün maliyyə ayırmalı və onların yol xərclərini ödəməli, G.Ə. isə tekstil mallarını seçməkdə ona kömək etməli idi. Bu razılaşmaya əsasən, Şərafətin təşkilatçılığı ilə G.Ə. 2010-cu ilin dekabr ayında Nailə ilə birlikdə Türkiyəyə gedib. O, Türkiyəyə gedərkən Şərafət ona 4 yaşlı oğlunu Gəncədən Bakıya gətirməsini və burada tanışlarının yanında daha yaxşı şəraitdə saxlanılacağını bildirib. Günay Nailə ilə gedib uşağı gətirərək Nailənin tanışı Esmira adlı şəxsin yanına qoyur.

Onlar İstanbula çatanda Nailə ona əlavə xərclərinin olmaması üçün onun rəfiqəsi olan Cəmilə adlı qadının evində qalacağını bildirir. Daha sonra onlar Cəmilənin yaşadığı yerə gələndə Nailə G.Ə.-nin xəbəri olmadan onun əl çantasından sənədlərini götürür. Bu zaman G.Ə. Şərafət və Nailə tərəfindən aldadılaraq fahişəliyə cəlb edilmək üçün Türkiyəyə gətirildiyini başa düşüb. Söhbət zamanı Cəmilə ona onun yeni sahibinin yəni Cəmilənin adamı olan Şirvan adlı şəxsin onun fahişəlik etməsi üçün Azərbaycanda Şərafətə külli miqdarda pul ödədiyini və onun həmin pulları fahişəlik edərək qaytarmalı olduğunu bildirib.

O, 2 ay Şirvan və Cəmilənin yanında, həmçinin Nailənin birbaşa rəhbərliyi ilə məcburiyyət qarşısında fahişəlik etməyə məcbur olub. Müştəridən gələn pulların bir qismi Afətə yollanıb, digər qismini isə Nailə və Şirvan bölüşdürürmüşlər. G.Ə. bir müddət sonra ona görə gələn müştərilərdən birindən onu otelə aparması üçün Şirvandan icazə almasını xahiş edib və sənədlərini alaraq otelə getmək adı ilə oranı tərk edib (qeyd edək ki, otelə sənədlər olmadan girişə icazə verilmir) Azərbaycana gəlib.

G.Ə. Azərbaycana qayıtdıqdan sonra bütün olanlardan dolayı məsələni aydınlaşdırmaq, oğlunu və ev əşyalarını geri almaq üçün Şərafətin yanına gedib, lakin Şərafət onun Türkiyədən qaçaraq Azərbaycana gəlməsindən qəzəblənərək ona borcunu tam olaraq ödəmədiyini və təkrar olaraq Türkiyəyə

qayıtmalı və işləməli olduğunu, əks təqdirdə nə uşağını, nə də ev əşyalarının qaytarmayacağını bildirib.

Üstəlik Türkiyədə olduğu müddətdə də ona kirayə pulu ödəməli olduğunu deyib. G.Ə. ondan polisə şikayət eləyəcəni deyəndə bir az mülayimləşərək Bakıda qalıb sakitləşməsini deyib, lakin bir ay sonra yenə hədə qorxular başlayıb. O, məcburiyyət qarşısında qalaraq təkrar olaraq Türkiyəyə getməli olub və 3 ay Türkiyədə qalıb. Bir müddət sonra Şirvan onu Təranə adlı şəxs vasitəsilə Nərgiz adlı şəxsə satdığını bildirərək onu İstanbul şəhərində Nərgizə məxsus digər bir yerdə istismara məruz qoyublar. G.Ə. orada da bir müddət qaldıqdan sonra, vizasının müddəti bitdiyi üçün vizanı yeniləmək adıyla Rusiyaya gedərkən qaçaraq Azərbaycana qayıdıb. Bakıya qayıtdıqdan sonra oğlunu Esmira adlı şəxsdən götürərək Gəncəyə göndərib. Bundan sonra 2011-ci ilin dekabr ayında Şərafət və digər şəxslərin qanunsuz əməllərinə qarşı Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə İdarəsinə şikayət edib. 10 yanvar 2012-ci ildə Günay Əhmədovanın işi ilə bağlı DİN-nin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsinin İstintaq Şöbəsində Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 144-1.1-ci maddəsi ilə 121900009 nömrəli cinayət işi başlanılmışdır.

"Azərbaycan Miqrasiya Mərkəzi" İctimai Birliyinin əməkdaşları G.Ə.-nin işi ilə bağlı Azərbaycan Respublikasının Baş Prokuroru və digər aidiyyatı şəxslərə məktub ünvanlanmış, eyni zamanda, dəfələrlə onun İnsan Alverinə Qarşı Mübarizə İdarəsində dindirilməsində iştirak etmişdir. Hazırda G.Ə.-nin işi üzrə araşdırma davam etdirilir.

Qeyd olunan iş üzrə əsas problemlərdən biri insan alverçisi barəsində vaxtında həbs qəti imkan tədbirinin seçilməməsi və nəticədə onun insan alverinin qurbanına müxtəlif yollarla təyziq göstərməkdə davam etməsi, şantaj və aldatma yolu ilə onun əleyhinə sübutlar, şahidlər toplamasına imkan yaratmasıdır.

Daha bir problem insan alverindən zərəçəkmiş şəxsin ibtidai istintaq zamanı ilkin ifadənin alınması, dindirilmə və digər prosesual hərəkətlər həyata keçirilərkən nümayəndə ilə təmin olunmamasıdır.

***Tükmənistan Respublikası vətəndaşları- əməyin istismarı işi***

Bir qrup Türkmənistan Respublikası vətəndaşı "Doğa Taahhüt İnşaat Turizm Ticaret A.Ş." Şirkəti tərəfindən Azərbaycan Respublikasına gətirilərək əməyin istismarına məruz qalmışlar.

35 nəfər Türkmənistan Respublikasının vətəndaşı 2012-ci ilin iyun ayından yuxarıda qeyd olunan şirkət tərəfindən Azərbaycan Respublikasına gətirilərək Şabran rayonunun Qalaaltı kəndində turizm kompleksinin tikintisinə cəlb olunmuşlar. Miqrant işçilər Azərbaycana 3 aylıq turist vizası ilə gətirilmiş, onlar üçün iş və yaşayış icazəsi alınmamışdır. Onlar Azərbaycana gəldikləri gündən pasportları əllərindən alınmış və "Doğa Taahhüt İnşaat Turizm Ticaret A.Ş."



Şirkətində saxlanılmışdır. Miqrant işçilər tikintidə işlədikləri müddətdə anti-sanitariya şəraitində yaşamiş (yataq dəstləri yuyulmur və dəyişdirilmir, yuyunmağa normal şəraitləri yoxdur), yeməklərinin keyfiyyəti isə olduqca aşağı olmuşdur. Bununla bağlı bir neçə dəfə yeməyin keyfiyyətinə qarşı çıxaraq kollektiv surətdə etiraz etmişlər. Onların təsdiq olunmuş iş cədvəlləri olmayıb, bu səbəbdən də 10 - 12, hətta bəzən 14 saat işə cəlb ediliblər.

Eyni zamanda, işəgötürən şirkət işçilərə 6 aydan tez tikintini tərk edə bilməyəcəklənni və DMX tərəfindən tətbiq olunan cərimələrin də onların əmək haqlarından tutulacaqlarını bildirmişdir. Əgər işçilər 6 aydan tez işdən getmək istəyərlərsə, işdə onlara paylanmış ayaqqabıların, əlcəklərin, gözlüklərin, dəbilqələrin, yataq dəstələrinin və s tikinti vəsaitlərinin pullarını da ödəməli olacaqlar. Qeyd olunan ağır şərtlərə dözməyən işçilər 31-08-2012-ci ildən pasportlarının geri qaytarılmasını və əmək haqlarının ödənilməsini tələb edərək işləməkdən imtina etmiş və tikintidə işi dayandırmışlar. Bundan sonra işəgötürən həmin tarixdən işçilərin tikintinin mehmanxanasından istifadə və orada gündə 3 dəfə yedikləri yemək üçün onlardan pul alacağı ilə hədələmiş, pasportlarını qaytarmaqdan və əmək haqlarını ödəməkdən imtina etmişdir.

Miqrant işçilərin verdiyi məlumata görə 01 avqust 2012-ci ildə Dövlət Miqrasiya Xidməti tərəfindən qanunsuz miqrasiyaya qarşı keçirilən müvafiq tədbirlər nəticəsində Dəvəçi rayonu, Qalaaltı kəndində hazırda inşa olunan istirahət mərkəzinin tikintisində Azərbaycan Respublikasının qanunvericiliyinin tələblərinə zidd olaraq fərdi icazə alınmadan əmək fəaliyyətinə cəlb edilmiş əcnəbilər aşkar edilmiş və nəticədə "Doğa Taahhüt İnşaat Turizm Ticaret A.Ş." şirkətinə cərimə cəzası tətbiq edilmişdir. Yoxlama zamanı firmanın nümayəndələri onları yaxınlıqdakı meşədə gizlədiblər.

Miqrant işçilər çalışdıqları müddət ərzində tikinti ərazisində yerləşən əvvəllər hərbi hospital kimi fəaliyyət göstərmiş istifadəyə yararsız yarımçıq tikilidə yaşayıblar. Həmin tikili bir neçə dar uzun otaqlardan ibarət olub. Otaqlar rütubətli olmaqla yanaşı, sanuzel sistemi də otağın daxilində quraşdırılıb. Bundan başqa, onların hərəkət azadlıqları pozulub, işlədikləri yerdən kənara çıxa bilməyiblər. Miqrant işçilər müəyyən olunmuş vaxtdan artıq işlədiklərindən yorğun vaxtlarında icazə istədikdə də onlara istirahət üçün icazə verilməyib. Öz iradələri ziddinə işləməyə məcbur olublar.

Miqrant işçilər qrup halında işlədikləri yerlərdə yaşayıblar və hərəkət azadlıqları olmayıb. Onlarla qanunvericiliklə müəyyən olunmuş qaydada əmək müqaviləsi bağlanılmayıb, müvafiq normadan artıq işləyiblər, gördükləri iş müqabilində çox az və ya heç bir gəlir əldə etməyiblər. Qidalanma problemləri ilə üzləşiblər, işəgötürənin müşayiəti altında işləyib və hərəkət azadlıqları məhdud olub. Onların işdənçıxma imkanları olmayıb, öz hərəkətlərinin nəzarət altında olduğunu, hərəkət azadlığının olmadığını və ya məhdud olduğunu düşünüblər. Digər şəxslərdə saxlanıldığına görə özlərində şəxsiyyəti təsdiq edən, yaxud yol sənədləri olmayıb, yaşadığı və ya işlədiyi yerin ünvanını dəqiq bilməyiblər. Ümumyaşayış normalarına cavab verməyən

şəraitdə yaşayıblar, tibbi, sosial xidmətdən yararlanma imkanları məhdud olub.

Qeyd olunan işlə bağlı "Azərbaycan Miqrasiya Mərkəzi" İctimai Birliyinin əməkdaşları 05.09.2012-ci ildə Dövlət Miqrasiya Xidməti və Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə İdarəsinə məktubla müraciət etmiş və miqrant işçilərin problemlərinin həllinə yardım etmələri xahiş edilmişdir. Birgə əməkdaşlığın nəticəsi olaraq 11-09-2012-ci ildə miqrant işçilərin ödənilməmiş əmək haqqı ödənilmiş və onların təhlükəsiz qaydada ölkələrinə qayıtmaları təşkil olunmuşdur.

Azərbaycan Respublikasının əmək qanunvericiliyinə əsasən, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikası ərazisində əmək fəaliyyətinə cəlb edilə bilməsi üçün onlarla əmək müqaviləsi imzalanmalı və onların hər biri üçün fərdi icazə alınmalıdır. Azərbaycanda tikinti işlərinə cəlb olunan türkmənlər barəsində isə bu normalardan heç biri tətbiq olunmamış, onlar aldadılaraq məcburi olaraq işlərin yerinə yetirilməsinə cəlb edilmiş, əmək haqqları ödənilməmiş və anti-sanitariya şəraitində saxlanılmışdılar.

Lakin Azərbaycanda əksər hallarda əcnəbi qurbanlarla bağlı insan alveri cinayətləri ilə üzrə cinayət işinin başlanılmasından imtina olunur. Bu daha çox əcnəbi qurbanların Azərbaycanda saxlanılması, onların təminatı və eləcə də sübutların toplanılmasının çətin olması səbəbindən irəli gəlir.

***Ş. B. – orqan transplantasiyası işi***

Ş.B. 01-03-1985-ci ildə Beyləqan rayonu Birinci Şahsevən kəndində anadan olub. O, 2010-cu ilin iyun ayında Xəzər TV-də böyrəyə ehtiyacı olan şəxsin donor axtarması barədə elan eşidib və elanda göstərilən telefon nömrəsinə zəng edib (şəxsi mobil nömrə). Həmin anda telefona cavab verən olmasa da, sonradan həmin telefondan ona Allahverdiyev Rasim Mustafa Kamal oğlu adlı şəxs zəng edib. Danışandan sonra görüş yeri təyin ediblər və Bakıda görüşüblər. Söhbət zamanı Rasim bildirib ki, əslən Şəkilidir, Bakı şəhərində yaşayır və oğlu üçün böyrək donoru axtarır. Böyrəyin alınması üçün Rasim ərizəçiyə 13.000 AZN təklif edib. Tərəflər bu qiymətlə razılığa gəliblər. Daha sonra Bakı şəhərində yerləşən xəstəxanalardan birinə analiz vermək üçün gediblər. Analizlər müsbət nəticə verib və bildiriblər ki, böyrək köçürülməsi mümkündür. Sonradan Bakıda yerləşən İran Klinikasına qan panelinin uyğunluğunun yoxlanılması üçün analiz veriblər. Qan analizi də uyğun gəlib. Bütün tibbi prosedurałardan keçəndən sonra Azərbaycan Respublikasının vətəndaşının ümumvətəndaş pasportunu almaq üçün Allahverdiyev Rasim ərizəçiyə 200 AZN pul verib. Pasport aldıqdan sonra böyrəyin transplantasiyası üçün İrana gediblər.

Getməmişdən əvvəl Ş.B. razılaşdırılmış məbləği (13.000 AZN) tələb etdikdə A.R. pulu İranda verəcəyini bildirib. Bunu İran həkimlərinin Azərbaycanda götürülən analizlərə inanmamaları ilə əsaslandırıb. İranda da



analizlər müsbət nəticə verib. Lakin Rasim yenə pulu verməkdən imtina edib və bildirib ki, xəstəxanada pulu itirə bilər, əməliyyatdan sonra pulu verəcək. Beləliklə, A.R. onun etibarından sui-istifadə etməklə dələduzluq yolu ilə böyrəyin qanunsuz götürülməsinə və oğluna köçürülməsinə nail olub. Əməliyyatdan sonra Azərbaycanda A.R. Ş.B.-a 1000 ABŞ dolları verib. Bildirib ki, həkimlərə cox pul verdiyindən ona verməli olduğu pul xərclənib. Söz verib ki, 10-15 günə pulun qalan hissəsini verəcək. Bundan sonra Ərizəçiyə daha 1200 AZN pul verib. Ümumilikdə ərizəçiyə bu günə qədər ödənilən pulun miqdarı 2500 AZN-ə yaxındır. Sonralar görüşəndə A.R. Ş.B.-nı təhqir edərək yanından qovub və hədə-qorxu gələrək bildirib ki, o vəzifəli adamdır, bir də pul istəsə onun üçün yaxşı olmayacaq.

Bundan sonra Ş.B. Baş Prokurorluğa şikayət ərizəsi ilə müraciət edib. Müraciətdən sonra Rasimin Prokurorluqda ifadəsi alınıb. Sonra o, Ş.B.-nı çağıraraq ona 2500 AZN verərək şikayəti geri götürməsini xahiş edib. Sonra Baş Prokurorluq aidiyyatı üzrə cinayət işinin araşdırılması üçün Bakı şəhər Prokurorluğuna göndərilib və Ş.B. burda da eyni ifadələri verərək bildirib ki, Rasim cinayət məsuliyyətinə cəlb olunsun və ona dəymiş ziyan ödənilsin. Sonradan daha bir dəfə Bəxtiyar Rasimlə onların evlərinin yanında görüşüb. Görüş zamanı A.R. bir-neçə nəfərlə ona hədə-qorxu gəlib və hansısa sənədə imza atdırıblar. Həmin sənəd binanın komendantı tərəfindən möhürlə təsdiqlənib. Həmin sənəd cinayət işinin materialları arasında var. Tərəflər arasında notarial qaydada pulun ödənilməsi barədə (öhdəliyin icrası) ərizə təsdiqlənib. Lakin A.R. heç bir pul ödəmədiyindən Ş.B. 10-10-2011-ci ildə həmin ərizəni ləğv etdirib.

Ş.B. işi ilə bağlı "Azərbaycan Miqrasiya Mərkəzi" İctimai Birliyinin hüquqşünasları tərəfindən 13-06-2012-ci il tarixində Azərbaycan Respublikasının Baş Prokuroru və Daxili İşlər Nazirinin müavini, İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinatoruna müraciət ünvanlayıb.

Görülən tədbirlərdən sonra Ş.B.-nın işi üzrə istintaq təzələnmiş və iş üzrə araşdırma davam etdirilir.

İnsan orqanlarının və toxumalarının qanunsuz çıxarılması Azərbaycan Respublikasının Cinayət Məcəlləsində insan alveri kimi nəzərdə tutulsa da, həmin Məcəllənin 137-ci maddəsində də insan orqanlarının və toxumalarının alqı-satqısı və götürülməsi cinayət tərkibi yaradan ayrıca bir cinayət əməli kimi nəzərdə tutulub. Həmin Məcəllənin 137-ci maddəsində nəzərdə tutulan əməl xarakterinə və ictimai təhlükəlilik dərəcəsinə görə həmin əməl üçün müəyyən edilən cəza həddinə mütənasib deyil, belə ki, hər iki maddədə nəzərdə tutulan əməllər nəticəsində eyni ictimai münasibətlərə (həm şəxsiyyətin azadlığına, həm də həyat və sağlamlığa) qəsd edilsə də, Məcəllədə bu fərqli təsnifatda verilib.

Qeyd olunan iş üzrə cinayəti törətmiş şəxs Şükürov Bəxtiyarın köməksiz vəziyyətindən, onun zəifliyi və maddi cəhətdən asılılığından istifadə edərək onu insan alveri cinayətin qurbanına çevirsə də, iş üzrə cinayət işinin başlanılmasından imtina olunur.

*Ə. R. və A. R. – uşaq əməyinin istismarı*

İran İslam Respublikasında anadan olmuş azyaşlılar Ə.R. və A.R. 2009-cu ilin yanvar ayında hüquqi yardım almaq üçün ögey xalaları vasitəsilə "Azərbaycan Miqrasiya Mərkəzi" İctimai Birliyinə müraciət ediblər.

Uşaqların verdiyi məlumata əsasən onların anası C.B. 16 mart 1967-ci ildə Astara rayonunun Suparibağ kəndində anadan olub. 1994-cü ildə Əfqanıstan Respublikasının vətəndaşı M.R. adlı şəxslə kəbin əsasında ailə qurub və elə həmin ildə yaşamaq üçün birlikdə Əfqanıstana gediblər. Lakin orada müharibə vəziyyəti olduğuna görə İran İslam Respublikasına qayıdıblar. İran İslam Respublikasında onların vətəndaş nikahından iki uşaqları doğulub. Uşaqların hər ikisi üçün Əfqanıstan Respublikasının İran İslam Respublikasındakı səfirliyindən Əfqanıstan İslam Respublikasının pasportunu alıblar. İran İslam Respublikasında yaşadıqları zaman Badam Cabbarovanın pasportunun etibarlılıq müddəti bitdiyinə görə Azərbaycan Respublikasının Tehrandakı Səfirliyinin Konsulluq şöbəsinə müraciət edib və özünə Azərbaycan Respublikasına qayıdış şəhadətnaməsi, uşaqlarına isə viza almaqla uşaqları ilə birlikdə Azərbaycan Respublikasına gəliblər. Azərbaycana gəldikdən sonra C.B. 11-09-2008-ci ildə Azərbaycan Respublikasının ümumvətəndaş pasportu ilə təmin edilib. Pasport aldıqdan sonra İran İslam Respublikasına getmək istədikdə Astara sərhəd buraxılış məntəqəsində ona uşaqlarının viza müddətinin başa çatması bildirilib və onlar ölkədən buraxılmayıblar. Belə olduğu halda C.B. Astara rayonuna, ögey bacısı İ.E.-nin evinə qayıdıb, bir müddət orada qaldıqdan sonra ağır xəstələnib və 18-10-2008-ci ildə vəfat edib.

B.C.-nın qızı Ə.R. 02 sentyabr 1996-cı ildə İran İslam Respublikasının Bəndərlingi şəhərində anadan olub. 24 aprel 2008-ci ildə Əfqanıstan Respublikasının Tehrandakı səfirliyində pasportla təmin edilib. 30-04-2008-ci ildə Azərbaycan Respublikasının Tehrandakı Konsulluğu tərəfindən 1 aylıq viza ilə təmin edilib və 23 may 2008-ci ildə Astara sərhəd buraxılış məntəqəsindən keçməklə Azərbaycan Respublikasına gəliblər.

B.C.-nin oğlu A.R. 27 dekabr 1998-ci ildə İran İslam Respublikasının Kərəc şəhərində anadan olub. 24 aprel 2008-ci ildə Əfqanıstan Respublikasının Tehrandakı səfirliyində pasportla təmin edilib. 30-04-2008-ci ildə Azərbaycan Respublikasının Tehrandakı Konsulluğu tərəfindən 1 aylıq viza alıb və 23 may 2008-ci ildə Astara sərhəd buraxılış məntəqəsindən keçməklə Azərbaycan Respublikasına gəliblər. Hər ikisinin pasportunun etibarlılıq müddəti 24 aprel 2009-cu ildə bitib.

Anaları öldükdən sonra yaxın qohumları həmin uşaqları "Azərbaycan Miqrasiya Mərkəzi" İctimai Birliyinə təqdim ediblər. İran İslam Respublikasına qayıda bilmədikləri üçün təşkilat tərəfindən onları polis orqanları vasitəsilə Sabunçu rayonunun ərazisində yerləşən "Yetim və valideyn himayəsindən məhrum olmuş uşaqlar üçün" 1 saylı xüsusi internat məktəbində



yerləşdiriliblər.

20-09-2009-cu il tarixdə Ramazan Bayramı ilə əlaqədar Təşkilatımızın əməkdaşları uşaqlara baş çəkməyə gedərkən 12 yaşlı Ə.R.-nin qollarının içəri tərəfində, biləyə yaxın hissəsində yanıq izləri görüblər. Səbəbini soruşduqda Ə.R. uşaq evində olan bütün uşaqların paltarlarını ona ütülətdirdiklərini bildirib. Bu problemi məktəbin rəhbərliyi ilə müzakirə etmək istədikdə Ə.R. xahiş etmişdir ki, deməsinlər əks halda onu və qardaşını incidəcəklər və vəziyyətləri daha da pis olacaq. Eyni vəziyyətlə 26-09-2009-cu il tarixdə həmin uşaqlara baş çəkməyə gedən təşkilatın digər əməkdaşı da rastlaşmışdır. Ə.R. ona da bildirmişdir ki, onun məktəbdə işlədilməsi barədə məlumatı müəllimlərinə və ya məktəbin direktoruna bildirməsinlər, əks halda onların vəziyyəti daha da ağır olacaq.

Qeyd olunan faktla bağlı "Azərbaycan Miqrasiya Mərkəzi" İctimai Birliyi tərəfindən 29-09-2009-cu ildə Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikası Baş Prokurorluğuna ərizə ilə müraciət edilib. Lakin Təhsil Nazirliyinin müdaxiləsi nəticəsində qeyd olunan faktla bağlı cinayət işi başlanılmasından imtina edilib.

Ə.R. və A.R.-nın anası Azərbaycan Respublikasının vətəndaşı olduğuna görə Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən onlar da Azərbaycan Respublikasının vətəndaşıdırlar və Azərbaycan Respublikası vətəndaşının şəxsiyyətini təsdiq edən sənədlə təmin olunmalıdırlar. Lakin onlar İran İslam Respublikasında anadan olduqlarına görə valideynləri onlara Azərbaycan Respublikasında doğum haqqında şəhadətnamə almağı zəruri hesab etməyiblər. Pasportda isə yalnız ata adı göstərildiyi üçün həmin faktı yəni uşaqların Azərbaycan Respublikası vətəndaşından doğulmasını təsdiq edən lazımi sənəd yoxdur.

# TÖVSİYƏLƏR

Azərbaycanın insan alverinə qarşı mübarizə tədbirlərini gücləndirmək üçün aşağıdakı nəticələrin əldə olunmasına nail olunmalıdır:

1.Müsadirə yolu ilə insan alverçiləri tərəfindən əldə edilmiş əmlakın və ya pulların hesabına maliyyələşən kompensasiya fondu yaradılmalıdır;
2.Azərbaycanda insan alverinə şərait yaradan köhnəlmiş adətlərin (erkən nikah, qız uşaqlarının təhsildən yayındırılması, məcburi nikah (beşikkəsmə və s.), yaxın qohumlar arasında nikah və s., aradan qaldırılması, qurbanlara pulsuz hüquqi yardım göstərilməsi məsələsinə təminat verilməsi də daxil olmaqla Azərbaycan qanunvericiliyi Avropa Konvensiyasına uyğunlaşdırılmalıdır;
3.Məcburi əməyə şərait yaradan halları müəyyən etmək üçün müvafiq dövlət orqanlarının, beynəlxalq təşkilatların və yerli QHT-lərin iştirakı ilə işçi qrupu yaradılmalı və həmin işçi qrupu tərəfindən göstərilən halların qiymətləndirilməsi həyata keçirilməlidir;
4.Qurbanların əmək fəaliyyətinə cəlb olunduqları tikinti meydançalarında və qurbanların saxlanması ehtimal olunan yerlərdə açıq və müstəqil monitorinqlərin aparılmasına nail olunmalıdır;
5.İnsan hüquqları sahəsində və miqrasiya sahəsində fəaliyyət göstərən beynəlxalq təşkilatlar və QHT-lər əməkçi miqrantların saxlanma şəraitini araşdırmalı və müvafiq hesabatlar hazırlamalıdır;
6.Qurbanlara 30 gün düşünmə vaxtının verilməsinə əməl etmək üçün tədbirlər davam etdirilməlidir;
7.Dövlət Miqrasiya Xidməti tərəfindən Azərbaycan Respublikası ərazisində məskunlaşan və sənədlərinin etibarlılıq müddəti keçən şəxslərin sayının azaldılması məqsədilə onların sadələşdirilmiş qaydada sənədləşdirilməsi üçün müvafiq təkliflər hazırlanmalı və onların həyata keçirilməsi təmin edilməlidir;
8."Qurban" statusunun yalnız cinayət işinin ibtidai istintaqını aparan müstəntiq tərəfindən verilməsi təcrübəsinə son qoyulmalı və bu statusun verilməsi üçün QHT və müvafiq dövlət orqanları nümayəndələrinin təmsil olunduğu komissiya yaradılmalıdır;
9.Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 137-ci, 243-cü, 144-1-ci maddələri və Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 53-1-ci maddəsinin tətbiqindəki problemlərin aradan qaldırılması məqsədilə Azərbaycan Respublikası qanunvericiliyinin beynəlxalq sənədlərə uyğunluğun təmin edilməsi üçün ekspertiza aparılmalıdır.



**İnsan alveri qurbanlarinin effektiv reabilitasiya və reinteqrasiya prosesi daxili qanunvericilik kontekstində**
*("TƏMİZ DÜNYA" QADINLARA YARDIM İCTİMAİ BİRLİYİ)*

**1.Təşkilat haqqında məlumat**

"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi 1998-ci ildən fəaliyyət göstərməyə başlayıb, 29 sentyabr 2006-cı il tarixində Azərbaycan Respublikası Ədliyyə Nazirliyində rəsmi olaraq 1106-Q14-2228 nömrəsi ilə dövlət qeydiyyatdan keçib. "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi qadınlar üçün və qadınlar vasitəsilə cəmiyyətin inkişafına çalışır. Təşkilatın məqsədi - qadınlara qarşı baş verən bütün zorakılıq hallarının qarşısının alınmasıdır. Təşkilatın dəyərləri insan hüquq və azadlıqlarına hörmət prinsipidir. İnsan resursları təşkilatın söykəndiyi ən vacib dəyərdir.

"Təmiz Dünya" Qadınlara yardım İctimai Birliyi 1998-ci ildən başlayaraq insan alveri probleminin gündəmə gətirilməsində,eləcə də onunla mübarizə sahəsində xüsusi rol oynamışdır. İlk dəfə olaraq 1999-cu il, fevralın 20-də insan alveri probleminə həsr edilən dəyirmi masa keçirmiş və həmin ildən başlayaraq təşkilat insan alveri problemini əsas sahə kimi öz missiyasına daxil etmişdir. 1999-cu ildə təşkilat, Azərbaycanda ilk dəfə ABŞ-ın Azərbaycandakı səfirliyinin maliyyə dəstəyi ilə "Azərbaycanda insan alveri" mövzusunda layihə həyata keçirib. 2002-2003-cü illər ərzində isə təşkilat ABŞ-ın Azərbaycandakı səfirliyinin maliyyə dəstəyi ilə "İnsan alveri probleminə dair ictimai şüurluluğun artırılması" adlı daha bir layihə icra edib.

2002-ci ildə Azərbaycanda ilk dəfə olaraq "Təmiz Dünya" təşkilatının nəzdində insan alveri qurbanları üçün sığınacaq fəaliyyətə başlayıb. Bu illər ərzində təşkilatın sığınacağında aşağıdakı ardıcıllıqla qurbanlar yerləşdirilib və onlara hüquqi xidmət göstərilib: 2004-cü il: 11nəfər, 2005-ci il: 21 nəfər, 2006- ci il: 33 nəfər, 2007-ci il: 42 nəfər, 2008-ci il: 73 nəfər, 2009-cu il: 61-nəfər, 2010-cu il: 105 nəfər, 2011-ci il: 120 nəfər, 2012-ci il: 76 nəfər.

2006- cı ildən təşkilat cinsi istismar qurbanlarının müdafiəsi ilə məşğul olur.

## 2. İnsan alverinə qarşı mübarizə üzrə beynəlxalq və daxili qanunvericilik: təhlili və tətbiqi problemləri

### 2.1. İnsan alveri anlayışı ilə bağlı qanunvericilikdə ziddiyyətlər

Azərbaycan Respublikası BMT-nin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiyasına və onu tamamlayan "İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" Protokoluna (Palermo Protokolu) qoşulduqdan sonra 28 iyun 2005-ci il tarixində "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edilib və 2005-ci ilin 30 sentyabrından insan alveri cinayət əməli kimi Azərbaycan Respublikasının Cinayət Məcəlləsində cinayət növü kimi təsbit edilərək 144-1-ci maddəsində öz əksini tapıb.

Lakin "İnsan alverinə qarşı mübarizə haqqında" Qanunda insan alverinə verilən anlayışla Azərbaycan Respublikasının Cinayət Məcəlləsində verilən anlayış arasında uyğunsuzluqlar mövcuddur. Təcrübə də göstərir ki, törədilən insan alveri cinayəti üzrə təhqiqat və istintaq işləri aparılarkən müəyyən çətinliklər yaranır.

"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununun 1.0.1-ci maddəsində verilmiş anlayışa əsasən, "insan alveri"- zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədə-qorxu və ya digər məcbur etmə vasitələrilə, oğurlama, dələduzluq, aldatma yolu ilə, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə, yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə və ya almaqla insanların istismar məqsədilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi" kimi təsbit edilmişdir.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 144-1.-ci maddəsində isə insan alveri, yəni şəxsin alqı-satqısı və ya ona sahibliklə əlaqədar digər əqdlərin bağlanması, yaxud onun istismar məqsədilə Azərbaycan Respublikasının dövlət sərhədindən keçirilməsi üçün və ya eyni məqsədlə digər şəxslərə verilməsi üçün cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi kimi təsbit edilmişdir.

Qanunda insan alverinə verilən anlayışda sadalanan əməllərin göstərilən üsullarla və istismar məqsədilə törədilməsinin insan alveri əməli kimi tanınmasına baxmayaraq Məcəllədə verilmiş anlayışda həmin əməllərin törədilməsi məqsədi qeyd edilsə də onun törədilməsi üsulları öz əksini tapmamışdır. BMT-nin Transmilli mütəşəkkil cinayətkarlığa qarşı Konvensiyasını tamamlayan, İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında Protokola əsasən insan alveri anlayışını müəyyən edən 3 əsas element müəyyənləşdirilir:

Fəaliyyət - insanların cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi;



Üsullar - güc işlətmə və ya güc işlədiləcəyi ilə hədələmə və ya digər formada məcburiyyət, oğurlama, dələduzluq, aldatma, hakimiyyətdən və ya köməksizlikdən sui-istifadə etmək, yaxud başqa şəxsə nəzarət edən şəxsin razılığını pul və ya fayda verərək almağı;

Məqsəd – insanları istismar edərək maddi və ya digər gəlirin əldə edilməsi.

Avropa Şurasının "İnsan alverinə qarşı mübarizə haqqında" Konvensiyanın 4-cü maddəsinin a) bəndində verilən "insan alveri" alayışına görə, "insan alveri" anlayışı istismar məqsədi ilə insanların cəlb edilməsi, daşınması, bir yerdən digərinə aparılması, sığınacaq verilməsi, borc iltizamlarından istifadə edilməsi, hədələmək, güc tətbiq etmək və ya başqa fiziki təzyiq üsulları ilə, insanların oğurlanması, qorxudulması, aldadılması, onların çıxılmaz vəziyyətdə olmalarından istifadə edilməsi, pul vermək və ya pul almaq yolu ilə bir nəfərin başqa biri üzərində ağalığına nail olması kimi başa düşüləcək. "İstismar" anlayışı, ən azı, digərlərini fahişəliklə məşğul olmağa məcbur etməyi və ya başqa seksual istimar formalarını, məcburi əmək və xidmətləri, qul kimi satılmağı və ya buna oxşar halları və hətta insan orqanlarının kəsilib götürülməyini nəzərdə tutur. Həmin maddənin b) bəndinə əsasən, yuxarıda göstərilən üsulların hər hansı birindən istifadə edilibsə, "insan alveri" qurbanlarının bu maddənin (a) bəndində haqqında danışılan qabaqcadan düşünülmüş istismara razılıq verməsi bu əməlin cinayət kimi tanınmasını dəyişə bilməz. Həmçinin həmin maddənin c) bəndinə əsasən, insanların istismar məqsədi ilə cəlb edilmələri, daşınmaları, bir yerdən digərinə köçürülmələri, uşaqlara sığınacaq verilməsi və ya onların müxtəlif iltizamlarla alınması, yuxarıda qeyd olunan üsullardan heç birindən istifadə edilməsə də, "insan alveri" hesab ediləcək. Göründüyü kimi insan alveri haqqında Beynəlxalq qanunvericilik insan alveri ilə bağlı daha geniş anlayış vermişdir və hətta zərərçəkən şəxslərin Konvensiyanın bu maddəsində qeyd olunan halların baş verməsinə dair razılıq vermələri əməlin insan alveri cinayəti sayılması faktını dəyişə bilməz.

Bununla əlaqədar hesab edirik ki, milli qanunvericiliyi Avropa Şurasının "İnsan alverinə qarşı mübarizə haqqında" Konvensiyanın tələblərinə üyğunlaşdırmaq zəruridir.

### 2.2 İstismar zamanı törədilən cinayətə görə insana alveri qurbanının cinayət məsuliyyətindən azad olunması

A.C. 13 yaşında ikən bibisi tərəfindən Qusar rayonundan Bakıya gətirilərək ölkə daxilində xarici bir vətəndaşla cinsi əlaqədə olmağa məcbur edilir, sonra bibisi onu digər şəxslərə satmaqda davam edir. Daha sonra A.C. M.R. adlı birinin "nəzarəti" altına keçir. M.R A.C.-ni fahişəlik etməyə məcbur etməklə yanaşı, onu oğurluq etməyə də vadar edir. A.C. 17 yaşında olarkən oğurluq etdiyi müştərinin şikayəti ilə həbs edilir. Lakin az yaşlı olması və insan

alverçisindən asılı vəziyyətdə məcbur edilərək cinayət törətməsi məhkəmə tərəfindən nəzərə alınmayıb.

Halbuki, Azərbaycan Respublikasının İnsan alverinə qarşı mübarizə haqqında Qanunun 17.7-ci maddəsində qeyd edilir ki: "İnsan alverindən zərər çəkmiş şəxslər bilavasitə insan alverinin qurbanı vəziyyətində olmasının nəticəsində məcburetmə və ya təhdid altında törədikləri əməllərə görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada və hallarda mülki, inzibati və cinayət məsuliyyətindən azad edilirlər." Eləcə də, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 59-cu maddəsinə əsasən, cəzanı yüngülləşdirən hallar sırasında cinayətin fiziki və ya psixi məcburiyyət təsiri altında, yaxud maddi, xidməti və ya sair cəhətdən asılılıq nəticəsində törədilməsi də öz əksini tapır.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 1-ci maddəsinə əsasən, "Azərbaycan Respublikasının cinayət qanunu bu Məcəllədən ibarətdir. Cinayət məsuliyyətini müəyyən edən və cinayət törətmiş şəxsin cəzalandırılmasını nəzərdə tutan qanunlar yalnız bu Məcəlləyə daxil olunduqdan sonra tətbiq edilə bilər." Cinayət Məcəllesində isə insan alverçisindən maddi və psixi asılılıq çərçivəsində cinayət törətmiş şəxsi cinayət məsuliyyətindən azad etmə halları nəzərdə tutulmadığından bu bir çox hallarda istismara məruz qalan şəxslər məcburetmə və ya təhdid altında törətdikləri əmələ görə məhkum olunurlar. "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanununun 17.7-ci maddəsinin tətbiq edilə bilməsi üçün müvafiq müddəanın Cinayət Məcəllesində öz əksini tapması zəruridir. Yəni təsvir olunan işdə A.C. insan alverinin qurbanı hesab edilsə belə cinayət məsuliyyətindən tamamilə azad edilə bilməyəcəkdi.

### 2.3. İnsan alveri qurbanları haqqında məxfiliyin təmin olunması

Qanunvericilikdə insan alveri qurbanlarının təhlükəsizliyinin və şəxsi həyatının qorunması üçün tədbirlərin görülməsi nəzərdə tutulsa da, təcrübədə bunun təmin olunması üçün yetərli addımlar atılmır. Azərbaycan Respublikasının Cinayət Məcəllesinin 316-1.-ci maddəsi insan alverindən zərər çəkmiş şəxs haqqında konfidensial məlumatları yayma üçün məsuliyyət nəzərdə tutulub. Həmin maddəyə əsasən, insan alverindən zərərçəkmiş şəxs haqqında konfidensial məlumatları qanunsuz toplama, yaxud qəsdən yayma—100 manatdan 500 manatadək miqdarda cərimə və ya 240 saatadək ictimai işlər və ya 1 ilədək müddətə islah işləri ilə cəzalandırılır. Eləcə də, eyni əməllər təqsirkar şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə—500 manatdan 1000 manatadək miqdarda cərimə və ya 1 ilədək müddətə islah işləri və ya 6 ayadək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır. Eyni əməllər ağır nəticələrə səbəb olduqda— 1 ildən 5 ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Maddə də o da qeyd olunur ki, «konfidensial məlumat» dedikdə, yayılması



insan alverindən zərər çəkmiş şəxsin, onun yaxın qohumlarının, habelə insan alverinə qarşı mübarizəyə yardım göstərən şəxslərin həyat və sağlamlığına təhlükə yaradan hər hansı məlumat başa düşülür. Göründüyü kimi, Cinayət Məcəlləsi insan alveri qurbanları ilə bağlı məlumatın yayılmasını ciddi şəkildə cəzalandırır. Lakin qanunvericilikdə olan aşağıdakı boşluqlar faktiki olaraq praktikada məxfiliyin pozulmasına səbəb olur:Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəllesiin 138.1.-ci maddəsinə əsasən, "məhkəmə işdə iştirak edən şəxsləri məhkəmə iclasının vaxtı və yeri, habelə ayrı-ayrı prosessual hərəkətlər haqqında xəbərdar etməlidir." Eləcə də, Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəllesinin 224.3-cü maddəsinə əsasən, "təqsirləndirilən şəxs qismində cəlb etmə haqqında qərarın surəti, habelə hüquq və vəzifələrə dair yazılı bildiriş təqsirləndirilən şəxsə verilir."

Praktikada bir çox hallarda yuxarıda qeyd olunan maddələrə müvafiq şəkildə insan alverinin qurbanı olmuş şəxslərin qeydiyyatda olduğu evlərə yazılı bildirişlər göndərilir. İnsan alverinin qurbanı olan qadınlar adətən bu faktı ailələrdindən gizlədirlər. Bilidirşlərin qurbanların ailələrinin yaşadığı evə göndərilməsi çox böyük ailədaxili problemlərə səbəb olur.

İnsan alverinin qurbanı olmuş B.C. rayonda atasının evində qeydiyyatda idi. Onun insan alveri qurbanına çevrildiyini ailəsində heç kim bilmirdi. İnsan alverinin qurbanı kimi tanınması barədə istintaqın qərarı daha sonra yekun məhkəmə hökmü olaraq B.C.-nin rayonda qeydiyyatda olduğu ünvana göndərilmişdir. B.C.-nin rayonda yaşayan anası və atası məhkəmə hökmü ilə tanış olaraq qızlarının başına gələn hadisələrdən xəbər tutmuş və qızlarını bir daha evə qəbul etməmişdilər.

İnsan alveri qurbanları istismara məruz qaldıqdan sonra yenidən ailələrinin yanına qayıtmaları bəzi hallarda mümkünsüz olur, ailələri onları qəbul etməkdən imtina edirlər. Bu faktlar hüquq mühafizə orqanlarına məlum olsa da onlar qurbanların rəsmi və faktiki yaşayış ünvanlarının fərqli olmasını nəzərə almırlar. Cinayət işi ilə əlaqədar bildirişlər prosessual məcələnin tələblərinə uyğun olaraq qurbanların qeydiyyatda olduqları ünvana göndərilir. Qeyd edilən faktlarla bağlı pozuntular mütamadi təkrarlandığından istintaq və məhkəmə orqanları birbaşa məxfiliyin pozulmasına səbəb olur. Qurbanlarla bağlı məlumatların məxfiliyinə həssas yanaşılmaması onların reabilitasiyası ilə yanaşı birbaşa olaraq təhlükəsizlikləri üçün də təhdid yaradır. Ailələri tərəfindən qəbul edilməyən qurbanlar bəzən yenidən insan alverçilərinin yanına qayıtmağa məcbur olurlar.

### 2.4. İnsan alveri qurbanlarının cinayət prosesində texniki vasitələrdən istifadə edilməsi

İndiyədək mövcud məhkəmə praktikasına əsaslanaraq söyləmək olar ki, insan alveri qurbanlarının məhkəmə işləri zamanı onların insan alverçiləri ilə üzləşməsi və ya məhkəmədə ifadə verən zaman qanunda nəzərdə tutulan

heç bir texniki vasitədən (müdafiə olunan şəxsin xarici görkəmini dəyişdirmə, telekörpü, videoyazı və s.) istifadə edilməyib. Bu da qurbanlarda qorxuya, panikaya, yüksək gərginlik və stressə səbəb olur ki, nəticədə onlar bəzən fərqli ifadələr verirlər.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 330.5-ci maddəsinə əsasən, müstəsna hallarda həyatına real təhdidlər olduqda zərər çəkmiş şəxsin təhlükəsizliyinin təmin edilməsi, ona təsir göstərilməsinin qarşısının alınması məqsədilə zərər çəkmiş şəxsin və ya dövlət ittihamçısının vəsatəti üzrə, yaxud məhkəmənin təşəbbüsü ilə və yalnız onun əsaslandırılmış qərarı əsasında, həmin şəxsə məhkəmə iclasında bilavasitə iştirak etmədən texniki vasitələrdən istifadə olunmaqla ifadə vermək imkanı yaradıla bilər.

Cinayət-Prosessual Məcəllənin 227.6-cı maddəsinə əsasən, müstəntiq şahidi audio yazıdan, video və kino çəkilişdən və digər yazan texniki vasitələrdən istifadə etməklə dindirmək hüququna malikdir. Eləcə də, Cinayət-Prosessual Məcəllənin 235.7-ci maddəsinə əsasən, müstəntiq üzləşdirməni video və kino çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə etməklə həyata keçirmək hüququna malikdir.

"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyi tərəfindən insan alveri qurbanlarının məhkəmə işlərində texniki vasitələrdən (müdafiə olunan şəxsin xarici görkəmini dəyişdirmə, telekörpü, videoyazı və s.) istifadə edilməsi ilə bağlı İnsan alverinə qarşı mübarizə üzrə Milli Koordinatora və İnsan Alveri ilə Mübarizə üzrə işçi qrupuna müraciət olunsa da heç bir dəyişiklik baş verməmişdir. Halbuki bu məsələnin həll edilməməsi məhkəmə çəkişməsi zamanı qurbanların onları satan şəxslərlə birbaşa ünsiyyətdə olması onları məhkəmədə ifadələrini dəyişməyə sövq edəcək qədər psixi gərginlik keçirmələrinə səbəb olur.

## 2.5. İnsan alveri qurbanlarına ödənilən kompensasiya

Azərbaycan Respublikası dövlət büdcəsinin vəsaiti hesabına zərər çəkmiş şəxsə cinayət qanunu ilə nəzərdə tutulmuş əməllə vurulmuş ziyana görə kompensasiya verilməsi məsələsi zərər çəkmiş şəxsin ərizəsi ilə məhkəmə tərəfindən həll edilir. Zərər çəkmiş şəxsə Azərbaycan Respublikasının dövlət büdcəsinin vəsaiti hesabına kompensasiya verilməsi haqqında qərarı ittiham hökmündə əks etdirərkən məhkəmə, həmçinin kompensasiya qismində ayrılan pul məbləğinin məhkum edilmiş şəxsdən tutulub dövlət büdcəsinə qaytarılmasını hökmdə göstərir.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında Azərbaycan Respublikasının Qanununa əsasən, Azərbaycan Respublikası Cinayət-Prosessual Məcəlləsinin andlı iclasçılara, habelə zərər çəkmiş şəxsə kompensasiya verilməsinə dair müddəaları məhkəmə hüquq



islahatı başa çatdıqdan və müvafiq qanun qəbul edildikdən sonra qüvvəyə minir.

Göründüyü kimi, zərərçəkmiş şəxsə kompensasiya verilməsinə dair müddəaların ölkədə məhkəmə hüquq islahatı başa çatdıqdan və bununla bağlı qanun qəbul edildikdən sonra qüvvəyə minməsi nəzərdə tutulub. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi 12 ildir ki, qüvvədədir. Nəzərə alsaq ki, hətta ən inkişaf etmiş ölkələrdə belə məhkəmə hüquq islahatları artıq neçə əsrlərdir ki, davam edir, onda zərərçəkmiş şəxslərə kompensasiya verilməsi məsələsinin həlli qeyri-müəyyən müddətə təxirə salınır.

## 2.6. İnsan alveri qurbanlarına dəymiş ziyanın ödənilməsi

"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunun 23.2-ci maddəsinə əsasən, insan alverindən zərər çəkmiş şəxslərə dəymiş ziyan prosessual qanunvericiliyə uyğun olaraq insan alverçilərinin əmlakı hesabına ödənilir. Bu əmlak kifayət etmədikdə, dəymiş ziyan məhkəmənin qərarına əsasən insan alveri qurbanlarına kömək fondunun vəsaiti hesabına ödənilə bilər.

Azərbaycan Respublikasının prosessual qanunvericiliyinə görə, cinayət prosesində mülki iddia cinayət təqibi başlanandan məhkəmə istintaqı başlananadək verilə bilər. Həmçinin, mülki iddia törədilmiş cinayət haqqında ərizə və ya şikayətlə eyni zamanda verilə bilər.

Mülki iddia adətən insan alveri qurbanlarına cinayət əməli nəticəsində dəymiş maddi və mənəvi zərərin ödənilməsi ilə əlaqədar verilir. Bir çox halda insan alveri qurbanlarına müəyyən səbəblərdən məhkəmənin vaxtı barədə məlumat gec çatdırılır. Həmin müddətdə bir çox vaxt insan alveri qurbanları vəkil (nümayəndə) ilə təmin oluna bilmirlər və mülki iddianın hazırlanmasına vaxt qalmır. Məhkəmə istintaqı başlayanda artıq mülki iddia qəbul edilmir.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinə əsasən, cinayət mühakimə icraatı zamanı mülki iddia vaxtında verilməmişdirsə cinayət prosesini həyata keçirən orqan iddia ərizəsini qəbul etməkdən imtina edə bilər.

Zərərin ödənilməsi üçün verilmiş iddianın qəbul edilməsi üçün digər əsas, iddianın yazılı formada verilməsi tələbidir. Belə ki, Məcəlləyə əsasən, cinayət mühakimə zamanı mülki iddia yalnız yazılı formada verilə bilər. Bir çox hallarda istintaq orqanı tərəfindən zərəçəkmişlərə onların hüquqlarının başa salınmaması maddi zərərin tələb edilməsinə mane olur.

Başqa dövlətlərin təcrübəsində bu cür məsələlər fərqli həll olunur. Məsələn, Belarus Respublikasının Cinayət-Prosessual Məcəlləsinə əsasən, cinayət işi üzrə mülki iddia, həm yazılı, həm də şifahi formada verilə bilər. Şifahi ərizə müəyyən edilmiş formada protokola salınır. Eləcə də, Fransanın Cinayət-Prosessual Məcəlləsinə əsasən mülki iddia hökm çıxarılanadək məhkəmə prosesinin istənilən mərhələsində verilə bilər.

## 2.7. İnsan alveri qurbanlarına kömək Fonduna ödənilən məbləğ

"İnsan alveri qurbanlarına kömək Fondu haqqında" Əsasnaməyə əsasən, fondun vəsaiti məhkəmənin qərarı ilə müsadirə olunmuş və Fondun hesabına keçirilmiş insan alverindən əldə edilmiş bütün əmlakdan (daşınmaz əmlak, pul vəsaitləri, qiymətli kağızlar və sair əmlak), həmçinin insan alveri ilə əlaqəsinə görə məhkəmənin qərarı əsasına ləğv edilmiş hüquqi şəxsin, onun filialının, nümayəndəliyinin vəsaiti hesabına formalaşır. Fondun vəsaitinin isə, insan alveri qurbanlarına kompensasiyaların, tibbi və digər zəruri xərclərin ödənilməsinə, onların sosial reabilitasiyasına yönəldilməsi nəzərdə tutulmuşdur.

Eləcə də, "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, insan alverindən əldə edilmiş bütün əmlak (daşınmaz əmlak, pul vəsaitləri, qiymətli kağızlar və sair əmlak) qanunvericiliklə müəyyən edilmiş qaydada məhkəmənin qərarı ilə müsadirə olunur və xüsusi yaradılmış insan alveri qurbanlarına kömək fonduna keçirilir. İnsan alveri qurbanlarına kömək fondunda toplanmış vəsait insan alveri qurbanlarına kompensasiyaların ödənilməsinə, onların sosial reabilitasiyasına, tibbi və digər zəruri xərclərinin ödənilməsinə yönəldilir.

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində insan alveri maddəsinin sanksiyasında insan alverçisinin əmlakının müsadirəsi nəzərdə tutulmuşdur. Qanunvericiliyə əsasən insan alveri cinayətini törətmiş şəxslərin əmlakının müsadirəsi nəzərdə tutulsa da praktikada tətbiq edilmir.

Digər tərəfdən, "Daşınmaz əmlakın dövlət reyestri" haqqında Azərbaycan Respublikasının Qanununa əsasən, daşınmaz əmlakın təsvirini, dövlət qeydiyyatına alınmış hüquqları və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair dövlət reyestrindən arayış hüquq sahibinə, onun tərəfindən vəkil edilmiş şəxsə, hüquq sahibinin əmlakına qanun və ya vəsiyyət əsasında vərəsəlik hüququ olan şəxslərə və qanunla nəzərdə tutulmuş səlahiyyətlərin yerinə yetirilməsi ilə əlaqədar müvafiq dövlət orqanlarına və bələdiyyələrə verilir. Maddənin dispozisiyasından görünür ki, daşınmaz əmlak barədə məlumat yalnız həmin əmlakın sahibinə, onun vəkilinə və dövlət orqanlarına verilir. İnsan alverçilərinin əmlakı barədə məlumat məhkəmə vasitəsilə alına bilər, yəni əmlak müsadirəsini yalnız məhkəmələr həyata keçirir, icraçıların belə səlahiyyətləri yoxdur. İnsan alveri cinayətini törətmiş şəxslərin əmlakının müsadirəsi "İcra Haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi zərurətini yaradır.

Ukrayna qanunvericiliyinə əsasən, "İnsan Alveri Qurbanlarına Yardım Dövlət Fondu" özü qurbanlarının adından insan alverçilərinə qarşı kompensasiyanın alınması üçün məhkəməyə müraciət edir və məhkəmədə iddiasını müdafiə edir.

Gurcüstanda isə, insan alveri qurbanlarına kömək fondu ayrıca bir idarə



kimi fəaliyyət göstərir, öz daxilində qurbanları hüquqi, psixoloji və digər yardımla təmin edir. Bu da reabilitasiya tədbirlərinin kompleksliyinə şərait yaradır. Eləcə də, Fond Gürcüstanda dövlət büdcəsi hesabına maliyyələşdiyi halda Azərbaycanda əsas maliyyə mənbəyini "İnsan alveri qurbanlarına kömək Fondu haqqında Əsasnamə"yə əsasən ianələr və qrantlar təşkil edir.

## 2.8. Sosial yardım

Azərbaycan Respublikasında maddi vəziyyəti aşağı olan, aztəminatlı ailələrə ünvanlı sosial yardım təyin olunur. Sosial yardım hüququna orta aylıq gəliri onlardan asılı olmayan səbəblərdən hər bir ailə üzvü üçün ehtiyac meyarının məcmusundan aşağı olan aztəminatlı ailələr sahibdirlər. Bu səbəblərə aşağıdakılar aiddir:

•ailə üzvlərinin əmək qabiliyyətsiz olması;

•ailənin əmək qabiliyyətli üzvünün müvafiq icra hakimiyyəti orqanında işsiz kimi qeydə alınması;

•ailənin əmək qabiliyyətli üzvünün vəfat etməsi;

•ailənin əmək qabiliyyətli üzvünün məhkəmə tərəfindən itkin düşmüş və yaxud ölmüş hesab edilməsi;

•ailənin əmək qabiliyyətli üzvünün azadlıqdan məhrum edilməsi;

•ailənin əmək qabiliyyətli üzvünün ailə üzvünün olduğu yerin məlum olmaması;

•digər hallar.

Sosial yardım dövlət büdcəsinin vəsaiti hesabına maliyyələşdirilir. Sosial yardımı aztəminatlı ailələrə yaşayış yeri üzrə müvafiq icra hakimiyyəti orqanı tərəfindən təyin olunur.

Əksər hallarda insan alveri qurbanları qanunla tələb olan kateqoriyaya aid olsalar da, ünvanlı sosial yardıma çatımlığında böyük çətinliklər yaranır. Qanuna əsasən, ünvanlı sosial yardımın alınması üçün ərizəçi rəsmi qeydiyyatda olduğu yer üzrə Azərbaycan Respublikasının Əhalinin Müdafiə Mərkəzinə müraciət etməlidir. Lakin insan alveri qurbanları əksər hallarda rəsmi qeydiyyat yeri üzrə yaşamırlar. Bu səbəbdən də, dövlətin bu cür sosial yardımından faydalana bilmirlər.

## 2.9. İnsan alveri qurbanlarının peşə reabilitasiyası

Avropa Şurasının "İnsan alverinə qarşı mübarizə haqqında" Konvensiyasının 12-ci maddəsinə əsasən, Hər bir Tərəf onun ərazisində qanuni şəkildə məskunlaşmış insan alveri qurbanlarına peşə təlimi, təhsil və əmək bazarına çıxış imkanı verəcək qaydalar qəbul etməlidir.

"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun 15-ci maddəsinə əsasən, insan alveri qurbanlarının sosial reabilitasiyası onların cəmiyyətə reinteqrasiyası, normal həyat tərzinə

qaytarılması məqsədilə həyata keçirilir və insan alveri qurbanlarına hüquqi yardımın göstərilməsi, onların təhsilinin davam etdirilməsi, psixoloji, tibbi və peşə reabilitasiyası üçün tədbirlər görülməsi, həmin şəxslərin iş və yaşayış sahəsi ilə təmin edilməsi imkanlarından istifadə edilməsini nəzərdə tutur.

İnsan alveri qurbanları üçün Yardım Mərkəzlərində qurbanların sosial reinteqrasiyası prosesində onlara peşə kursları təqdim olunur. Lakin hər kursun tam formalaşması üçün 10 nəfər iştirakçı tələb olunur. Bir çox hallarda insan alveri qurbanlarının sayı 10 nəfərdən az olduğu üçün bu cür qruplar komplektləşmir. Bu səbəbdən insan alveri qurbanlarının peşə kurslarında iştirakı qeyd olunan problemlərdən irəli gələrək qeyri-mümkün olur.

## 2.10. İnsan alveri qurbanlarının yaşayış sahəsi ilə təmin edilməsi

"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, insan alveri qurbanlarının sosial reabilitasiyası onların cəmiyyətə reinteqrasiyası, normal həyat tərzinə qaytarılması məqsədi ilə insan alveri qurbanları yaşayış sahəsi ilə təmin edilə bilərlər. Bu "İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi" Qaydalarında da öz əksini tapmışdır.

Həmçinin, insan alveri qurbanlarına Yardım Mərkəzinin Nizamnaməsinin 3.0.7-ci bəndində də qeyd olunmuşdur ki, Yardım Mərkəzinin insan alveri qurbanlarının yaşayış sahəsi ilə təmin edilməsi üçün onların yaşından, ailə və sağlamlıq vəziyyətindən asılı olaraq Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, Azərbaycan Respublikasının Təhsil Nazirliyinə, Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinə, Azərbaycan Respublikasının Səhiyyə Nazirliyinə və yerli icra hakimiyyəti orqanlarına təqdimatla müraciət etmək hüququ vardır.

Digər tərəfdən Azərbaycan Respublikası Prezidentinin 23.01.2007-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş, "Azərbaycan Respublikasında güzəştli ipoteka kreditlərinin verilməsi" Qaydalarının 2.5-ci maddəsinə əsasən, Azərbaycan Respublikasının Mərkəzi Bankı nəzdində Azərbaycan İpoteka Fondu tərəfindən, maksimal məbləğ 35 000 manat, 30 ilədək, illik faiz dərəcəsi 4%-dən çox olmayan güzəştli ipoteka krediti yalnız aşağıdakı gənc ailənin üzvləri olan şəxslərə verilir;

•Şəhid ailəsinin üzvü (əri/arvadı, övladları);

•Milli Qəhrəman (özü, əri/arvadı, övladları);

•Məcburi köçkün və ya ona bərabər tutulan şəxs;

•3 ildən az olmayan müddətdə dövlət qulluqçusu işləyən şəxs, (3 ildən az olmayan müddətdə hərbi xidmətdə olmuş Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi qulluqçuları (müddətli həqiqi hərbi xidmətdə olan hərbi qulluqçularından başqa).

•Fəlsəfə doktoru və ya elmlər doktoru elmi dərəcəsi olan şəxs;

•İdman sahəsində xüsusi xidmətləri olan şəxslər (fəxri bədən tərbiyəsi və



idman xadimi, ölkə miqyaslı yarışların qalibi (I yer), beynəlxalq miqyaslı yarışların mükafatçıları (I, II və III yerlər)

Göründüyü kimi, digər şəxslərlə yanaşı insan alveri qurbanlarının güzəştli şərtlərlə ipoteka alması onların əmlak məsələlərinin həllinə yönəlmiş olur və onların təkrar qurbana çevrilməsinin qarşısını alır.

## 2.11. İnsan alveri qurbanlarının işə götürülməsi, biznesin dəstəklənməsi, kreditlərin verilməsi

Azərbaycan Respublikası Prezidentinin 06.02.2009-cu il tarixli, 133 nömrəli Sərəncamı ilə təsdiq edilmiş Azərbaycan Respublikasının İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planının (2009-2013-cü illər) 4.3-cü bəndinə əsasən, insan alverindən zərər çəkmiş şəxslərin işə götürülməsi üçün sahibkarların həvəsləndirilməsi tədbirlərinin görülməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikasının Vergi Məcəlləsinin 102-ci və 106-cı maddələrində vergidən azadolmalar və güzəştlər barədə qeyd olunur. Həmin maddələrə əsasən, əlillərin, sağlamlıq imkanları məhdud şəxslərin və digər yardıma ehtiyac olan şəxsləri işə qəbul edən fiziki və hüquqi şəxslərə vergi güzəştləri edilir. İnsan alveri qurbanları həssas qruplar olduqlarından onlar üçün də müvafiq güzəştlər nəzərdə tutulmalı və onlar əmək fəaliyyətinə başladıqdan sonra müəyyən dövr ərzində müvəqqəti olaraq verigidən azad edilməlidirlər.

Bundan başqa, Azərbaycan Respublikasında "Sahibkarlığa Kömək Milli Fondunun vəsaitlərinin istifadəsi" Qaydaları və digər normativ aktlarla sahibkarların inkişafı üçün fiziki və ya hüquqi şəxslərə kiçik kreditlərin verilməsi nəzərdə tutulmuşdur. İnsan alveri qurbanlarına kiçik kreditlərinin verilməsi onların bir sıra problemlərinin həllinə yönələ bilər.

## 2.12. İnsan alveri qurbanlarının sosial reabilitasiyasını və reinteqrasiyasını həyata keçirən və bu sahədə fəaliyyət göstərən müəssisələr və təşkilatların yaradılması və ya dövlət dəstəyinin artırılması

"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 9 noyabr 2005-ci il tarixli qərarı ilə təsdiq edilmiş, «İnsan alveri qurbanları üçün xüsusi müəssisələrin yaradılması, maliyyələşdirilməsi, fəaliyyəti, habelə onların fəaliyyətinə nəzarət Qaydaları»nda, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin 17 fevral 2006-cı il tarixli 67 nömrəli əmri ilə təsdiq edilmiş, "İnsan alveri qurbanlarının müvəqqəti yaşaması üçün sığınacaq haqqında" Nizamnaməsində, Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 6 mart 2006-cı il tarixli qərarı ilə təsdiq edilmiş, «İnsan alveri qurbanlarının sosial reabilitasiyasının həyata keçirilməsi Qaydaları»nda, İnsan alveri qurbanlarına

yardım mərkəzinin Nizamnaməsində və digər sənədlərdə sığınacaqların və yardım mərkəzlərin fəaliyyəti və orada insan alveri qurbanlarına göstərilən yardımlar barədə geniş məlumat verilibdir. Lakin Azərbaycan Respublikasında hal-hazırda dövlət tərəfindən yaradılan bir sığınacaq və bir yardım mərkəzi fəaliyyət göstərir. Onların hər ikisi də Bakı şəhərində fəaliyyət göstərir.

Bundan başqa, Azərbaycan Respublikasında bir-neçə bu sahədə fəaliyyət göstərən QHT-lər vardır ki, onlar da beynəlxalq təşkilatlar tərəfindən maliyyələşdirirlər.

### 2.13. İnsan alveri qurbanlarına düşünmə və özlərinə gəlmə üçün vaxtın verilməsi

Təcrübə göstərir ki, insan alverçilərdən xilas olmuş qurbanlar ilk müddət özlərinə gəlməkdə çətinlik çəkir və rastlaşdıqları problemdən danışmağa hazır olmurlar. Bu səbəbdən də, insan alveri qurbanlarına özlərinə gəlmə və düşünmə üçün vaxt verilir. Bu vaxt ərzində qurbanlar hüquq mühafizə orqanlarına tam və ətraflı ifadə vermək, həmçinin insan alverçilərinə qarşı iddia qaldırmaq üçün qərar qəbul edirlər. Əksər Avropa ölkələrinin təcrübəsində bu istifadə olur və bu müddət 3 aydan az olmur. Bu müddət ərzində insan alveri qurbanları təhlükəsiz sığınacaqla, psixoloji, tibbi, sosial və hüquqi xidmətlərlə təmin olunurlar. Bu dövr ərzində ona qarşı zorla ölkədən qovulma tədbiri həyata keçirmək mümkün deyil. Bu şərt səlahiyyətli dövlət orqanlarının müvafiq prosedurlarda, xüsusilə də qanun pozuntularının tədqiq edilməsi zamanı həyata keçirdiyi fəaliyyətə aid deyil. Bu dövr ərzində tərəflər aidiyyəti olan şəxslərin onların ərazisində qalmalarına nəzarət etməlidirlər.

İnsan alverinə qarşı mübarizə haqqında Avropa Şurasının Konvensiyasının 13-cü maddəsinə əsasən, Hər bir Tərəf öz daxili qanunvericiliyində, şəxsin insan alveri qurbanı olduğuna əmin olmaq üçün əsaslı səbəblər olduğu təqdirdə ona ən azı 30 günlük bərpa və fikirləşmə müddəti təmin etməlidir. Bu müddət həmin şəxsin öz vəziyyətini bərpa etməsi, cinayətkarların təsirindən yayınması və/və ya aidiyyəti dövlət qurumları ilə əməkdaşlıq etmək barədə düşünülmüş qərar qəbul etməsi üçün yetərli olmalıdır. Bu müddət ərzində həmin şəxsin ölkədən çıxarılmasına dair heç bir qərar qəbul edilə bilməz. Bu müddəa səlahiyyətli orqanlar tərəfindən müvafiq milli icraatın bütün mərhələlərində və xüsusilə məlum cinayət işlərinin istintaqı və araşdırılması zamanı tədbirlərin həyata keçirilməsini məhdudlaşdırmır. Həmin müddət ərzində Tərəflər müvafiq şəxslərin öz ərazilərində qalmalarına icazə verməlidirlər.

Lakin Azərbaycan Respublikasının qanunvericiliyində isə düşünmə dövrünün verilməsi yalnız "İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi Qaydaları"nda qeyd olunur. Bu isə bir çox hallarda qurbanların məsələni yetərincə dərk edə bilməmələrinə, prosesə şüursuz yanaşmalarına dövlət orqanları ilə əməkdaşlıqla bağlı düşünülməmiş



qərar qəbul etmələrinə səbəb olur. Belə hallarda qurbanlar məhkəmədə bəzən səhv ifadə verir, hadisələri qarışdırır, bir sıra hallarda isə insan alverçisinə qarşı verdiyi ifadədən imtina edirlər.

### 2.14. Təhlükəsiz repatriasiya

Avropa Şurasının İnsan Alverinə qarşı mübarizə haqqında Konvensiyasına əsasən, insan alveri qurbanlarının mənsub olduğu və ya qəbul edən ölkə ərazisinə daxil olarkən ərazisində daimi yaşayış icazəsinə malik olduğu Tərəf həmin insan alveri qurbanının hüquqlarını, təhlükəsizliyini və ləyaqətini lazımi qaydada nəzərə almaqla, onun qayıtmasını əsassız və səbəbsiz ləngitməyə yol vermədən asanlaşdırmalı və qəbul etməlidir. İnsan alveri qurbanını öz ölkəsinə qaytararkən, bu, həmin şəxsin hüquqları, təhlükəsizliyi, ləyaqəti və şəxsin insan alveri qurbanı olması faktı ilə bağlı istənilən hüquqi icraatın xarakteri lazımi qaydada nəzərə alınmaqla, əsasən könüllü surətdə həyat keçirilməlidir.

Azərbaycanın 2010-cu ildən sözü gedən Avropa Konvensiyasına qoşulmasına baxmayaraq hələ də ölkəyə gələn əcnəbi qurbanların öz ölkələrinə könüllü və təhlükəsiz qayıdışını (repatriasiya) təmin edəcək normativ hüquqi akt mövcud deyildir.

İnsan alveri qurbanlarının milli istiqamətləndirilməsi mexanizmlərinin həyata keçirilməsi qaydalarında repatriasiya qaydaları nəzərdə tutulsa da və qurbanın ölkə hüdudlarından 1 il ərzində çıxarılmanın tətbiq edilməməsi göstərilsə də real olaraq praktikada bunlar tətbiq edilmir. Avropa Şurasının "İnsan alverinə qarşı mübarizə haqqında" Konvensiyası müəyyən edir: "Konvensiyanı imzalayan hər bir tərəf insan alveri qurbanının hüquqi yardım və pulsuz hüquqi yardım almaq hüququnu təmin etməlidir." Azərbaycan Respublikasının qanunvericiliyində isə, insan alveri qurbanı sadəcə zərər çəkmiş kimi müəyyən edilərək vəkil ilə təmin edilməsində heç bir məcburi norma müəyyən etməyərək, bunu zərər çəkmişin seçiminə buraxır.

"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunun 20.1-ci maddəsinə əsasən: "Əcnəbi və ya vətəndaşlığı olmayan şəxs insan alverindən zərər çəkmiş şəxs hesab olunduqda, onun barəsində 1 il müddətində Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartma tətbiq edilmir." Həmin Qanunun 20.6-cı maddəsinə əsasən: "Şəxsiyyətini müəyyən etmək mümkün olmayan əcnəbi və ya vətəndaşlığı olmayan insan alveri qurbanlarına Azərbaycan Respublikasında yaşamaq hüququ verilə bilməz".

*K.İ.S. Moldovada 12.08.1977-ci ildə anadan olub. Orada orta məktəbə gedib, yuxarı sinifdə oxuyan zaman bərbərlik kursuna gedir. 18 yaşında nişanlanıb. Atası və nişanlısı Moskvaya qazanc dalınca gedəndə K.İ.S. onlarla gedib. Orada işlədiyi müddətdə rəngsaz-malakeş kursuna gedir. Firmanın rəhbəri onu işlə təmin edir. 1999-cu ildə ailə həyatı qurur. Əri*

*tərəfindən zorakılığa məruz qalır tez-tez döyülür, hamiləliyin 8-ci ayında hamiləliyi pozulur ölü uşaq dünyaya gəlir. 2003-cü ildə yoldaşından ayrılır və işləməyə Moskvaya gedir. 2010-cu ildə Moskvada işləyən zaman R. adlı Azərbaycan vətəndaşı K.İ.S. təmir işləri apardığı mənzildə mənzil alır və mənzilin təmirini K.İ.S. təklif edir. K.İ.S. təmiri bitirəndən sonra R. ona Azərbaycanda mənzil təmir etməyi təklif edir. 06.09.2011-ci ildə K.İ.S və onun 24 yaşlı iş yoldaşı Azərbaycana gəlirlər. Burda onları yaxşı qarşılayırlar. K.İ.S. 24 yaşlı iş yoldaşının anası ağır xəstə olduğundan o Moskvaya qayıdır. Ondan şəxsiyyət vəsiqəni alırlar ki qeydiyyata salacaqlar lakin ona şəxsiyyət vəsiqəsini birdə geri qaytarmırlar. K.İ.S. isə vəziyyəti getdikcə ağırlaşır. Belə ki, daimi nəzarətdə olur, üzünə qapı bağlanır, hər hansı bir yerə getmək üçün müşayiət olunur və s. Nəhayət o R.-ya Moskvaya zəng edir və R. ona söz verir ki gələcək, bütün problemləri həll edəcək. Lakin heç nə dəyişilmir. K.İ.S. vəziyyəti daha da ağırlaşır. K.İ.S. Moskvaya zəng edir dostları onu üçün Moldova səfirliyinin nömrəsini tapır. Səfirlik FHN-in köməyi ilə K.İ.S.-in yeri aşkar edir. Polisin köməkliyi ilə saxlandığı ünvandan götürülür və Dövlət Miqrasiya Xidmətinə təhvil verilir. Bu qurum tərəfindən ölkədən deportasiya edilir. K.İ.S. təmir işləri üçün, böyük məbləğ alacağı barədə vədləşsə də, ona çox cüzi əmək haqqı ödənilir. K.İ.S. İnsan Alverinə Qarşı Mübarizə İdarəsinin yardımı ilə sənədlərini geri ala bilir. Lakin İdarə onun məcburi əmək qurbanı kimi tanımır. Çünki hesab edir ki, bu işdə zorakılıq halları və məcburiyyət mövcud olmayıb. K.İ.S. "Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sığınacağında yerləşdirilmiş, tibbi və psixoloji yardım almışdır. Lakin sığınacaqda məcburi əmək qurbanı olması faktı izah edilsə də, İnsan Alverinə Qarşı Mübarizə İdarəsində o bir çox faktlar barədə heç bir məlumat vermək istəmədi. Beləliklə, idarə onu məcburi əmək qurbanı kimi tanımayaraq Miqrasiya Xidməti İdarəsinə təhvil verdi və ölkədən deportasiya olundu.*



## TÖVSİYƏLƏR

1.Azərbaycan Respublikasının Cinayət Məcəlləsində insan alverinə verilən anlayış dəyişdirilməli, Palermo Protokolunda və "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununda insan alverinə verilən anlayışa uyğunlaşdırılmalıdır;

2. İnsan alveri qurbanlarının məcburetmə və ya təhdid altında törətdikləri əməllərə görə cinayət məsuliyyətindən azad edilməsinə dair "İnsan alverinə qarşı mübarizə haqqında" Qanunun 17.7-ci maddəsi Cinayət Məcəlləsində də öz əksini tapmalıdır;

3.İnsan alveri cinayətinin araşdırılması və məhkəmə icraatı zamanı insan alveri qurbanlarının yaşayış ünvanlarına göndərilən bildirişlər insan alveri qurbanlarının reabilitasiyası ilə məşqul olan QHT-lərə və yardım mərkəzinə göndərilməlidir. Bu təşkilatlar vasitəsi ilə qurbanlar hüquq mühafizə orqanları və məhkəmələrin tərəfindən göndərilən bildirişlər ilə tanış olmalıdırlar;

4.Məhkəmələrdə və ibtidai istintaqda insan alveri qurbanlarının ifadələri və izahatları alınarkən onların insan alverçiləri ilə üzləşməməsi üçün qanunvericilikdə nəzərdə tutulmuş texniki vasitələrdən (müdafiə olunan şəxsin xarici görkəmini dəyişdirmə, teleköрpü, videoyazı və s.) real olaraq praktikada istifadə olunmalıdır. Bunun üçün isə ilk növbədə məhkəmələrin maddi-texniki bazalarının yenidən qurulmasına diqqət yetirilməlidir;

5.Avropa İnsan Hüquqları Məhkəməsinin qərarlarında dövlətlərlərdən "milli qanunlarda qeyri-müəyyənliyik olmaması" prinsipini əsas götürmələrini istəməsini nəzərə alaraq "Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə məsələləri haqqında" Azərbaycan Respublikasının Qanununun 2-ci maddəsində olan qeyri-müəyyənlik aradan qaldırılmalıdır. Zərərçəkmiş şəxsə kompensasiya ödənilməsi ilə bağlı müvafiq qanun qəbul edilməlidir;

6.İnsan alveri qurbanlarına dəymiş zərərin ödənilməsi üçün mülki iddianın qaldırılmasını daha da asanlaşdırmaq üçün cinayət işlərində mülki iddianın həm yazılı, həm də şifahi formada irəli sürülə bilməsi milli qanunvericiliyə daxil edilməlidir;

7.İnsan alveri cinayətinin təhqiqatı və ya istintaqı dövründə, cinayət təqibini aparan orqan insan alverçisinin adına hər hansı daşınmaz və ya daşınar əmlakın olub-olmaması barədə müvafiq orqana sorğu verərək onun əmlakını müəyyən etmək, həmçinin məhkəmə hökmü qəbul edilənədək, bu əmlakın satılmasını və ya başqa şəxsin adına rəsmiləşdirilməsi üçün qadağanın və ya həbsin qoyulması barədə müvafiq orqanların əməkdaşlarının maarifləndirilməsi;

8."İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik

edilməsi zəruridir. İnsan alveri qurbanları Yardım Fonduna məhkəməyə insan alveri qurbanının adından müraciət etmək hüququ verilməlidir;
9.İnsan alveri qurbanlarının sığınacaqda yaşadıqları dövr ərzində ünvanlı sosial yardım ala bilmələri üçün Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə müraciət edilə bilər;
10.İnsan alveri qurbanlarının cəmiyyətə reinteqrasiyasının effektivliyinin artırılması məqsədilə, 3-4 nəfərdən ibarət mobil qrupların yaradılması və ya insan alveri qurbanların başqa qurumların nəzdində fəaliyyət göstərən və artıq formalaşmış qruplara salınması imkanlarından istifadə edilsin;
11.İnsan alveri qurbanlarının mənzil şəraitinin yaxşılaşdırılması üçün onlara güzəştli şərtlərlə ipoteka kreditlərinin verilməsi üçün müvafiq qanunvericiliyə dəyişikliklərin edilməsi məsələsi müzakirə oluna bilər;
12.İnsan alveri qurbanlarının sosial reabilitasiyası və reinteqrasiyasının səmərəliyinin artırılması üçün, onların işlə təmin edilməsinə kömək göstərilməsi üçün insan alveri qurbanlarını işə götürən fiziki və hüquqi şəxslərə vergi güzəştlərinin edilməsi, sahibkarlıq fəaliyyəti ilə məşğul olan insan alveri qurbanlarına kiçik kreditlərinin verilməsi üçün Azərbaycan Respublikasının müvafiq normativ aktlarında dəyişiklik edilməsi məsələsi müzakirə oluna bilər;
13.İnsan alveri qurbanlarının sosial reabilitasiyası və reinteqrasiyasının səmərəliyinin artırılması üçün, Azərbaycan Respublikasının bölgələrində dövlət tərəfindən əlavə sığınacaqlar və yardım mərkəzlər yaradılmalıdır.. Bundan başqa, bu sahədə fəaliyyət göstərən yerli QHT-lərin fəaliyyətinin effektivliyini artırılması üçün Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası tərəfindən dəstək verilməsi tövsiyə olunur;
14.Qurbanların özünə gəlmə və düşünmə üçün vaxt verilməsi qanunvericilikdə əks olunmalıdır;
15.Qanunvericilikdə insan alveri qurbanlarının təhlükəsiz repatriasiyası qaydaları müəyyənləşdirilməlidir;
16.İnsan alveri məqsədi ilə "qurbanın xarici pasportun və şəxsiyyət vəsiqəsinin alınması və ya girov saxlanılması" Cinayət Məcəlləsində ayrıca cinayət əməli kimi tövsif edilməlidir;
17.Cinayət Məcəlləsinin "Şəxsiyyətin Azadlığı və Ləyaqəti Əleyhinə olan cinayətlər" fəslindən insan alveri ilə bağlı maddələr çıxarılmalı və Cinayət Məcəlləsiində "İnsan alveri"nə dair ayrıca fəsil olmalıdır;
18.Repatriasiya qaydaları "İnsan alveri qurbanlarının Milli istiqamətləndirilməsi mexanizimlərinin həyata keçirilməsi qaydalarında" və "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununda nəzərdə tutulsa da, repatriasiya haqqında proqram olmadığından real olaraq qurbanların repatriasiyasında problemlər mövcuddur.



## İnsan alveri qurbanlarına dəymiş mənəvi ziyanın ödənilməsi: daxili və beynəlxalq qanunvericilik

*("GƏNC HÜQUQŞÜNAS QADINLAR HÜQUQI ISLAHATLAR UĞRUNDA" İCTIMAI BIRLIYI)*

### 1.Təşkilat haqqında məlumat

"Gənc hüquqşünas qadınlar hüquqi islahatlar uğrunda" İctimai Birliyi 29 dekabr 1999-cu ildə bir qrup hüquqşünas tərəfindən təsis edilmişdir. Təşkilat 18 avqust 2006-cı ildə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmışdır. Təşkilatın əsas missiyası əhalinin hüquqi maarifləndirilməsi yolu ilə cəmiyyətdə hüquq düşüncəsinin və hüquq mədəniyyətinin yüksəldilməsinə nail olmaq, ölkədə hüquq islahatlarının və demokraktik proseslərin inkişafına yardım, vətəndaşların hüquqlarının müdafiəsi, əhalinin aztəminatlı hissəsinə, kütləvi informasiya vasitələrinə və qeyri-hökumət təşkilatlarına pulsuz hüquq və informasiya yardımının göstərilməsi, gender araşdırmalarının aparılması, insan hüquqları sahəsində təlimlərin, seminarların təşkil edilməsidir..

Hal-hazırda təşkilatın 35-ə yaxın üzvü var, onların hamısı hüquqşünaslardır (vəkillər, tələbələr, müəllimlər və s.) və onların böyük əksəriyyəti birliyin fəaliyyətində fəal iştirak edirlər.

Yarandığı vaxtdan bəri təşkilat 15-dən çox layihəni uğurla həyata keçirib. 2006-cı ilin fevral ayından may ayınadək Avropa Gənclər Fondunun maliyyə dəstəyi ilə «Gənclər insan alverinə qarşı» adlı layihə çərçivəsində gənclər üçün Bakıda və Azərbaycanın digər regionlarında (Gəncə, Mingəçevir, Beyləqan) maarifləndirici seminarlar və dəyirmi masa keçirilmiş, «İnsan alverinə yox deyək!» adlı kitab nəşr edilmişdir.

İctimai Birlik dekabr 2011-ci ilin dekabrından 2012-ci ilin avqustuna kimi Amerika Hüquqşünaslar Assosiasiyası (ABA CEELİ) və ABŞ Dövlət Departamentinin maliyyə dəstəyi ilə "İnsan alveri sahəsində maarifləndirmə və hüquqi yardım təşəbbüsü" layihəsini həyata keçirmişdir.

### 2.İnsan alverinə qarşı mübarizə üzrə daxili qanunvericilik və beynəlxalq hüquq: tahlili və tətbiqi problemləri

Köləliyin müasir forması olan insan alverinin baş verməsinin əsas amili yoxsulluqla, işsizliklə bağlıdır. Bütün qeyd edilənlərə əsasən insan alverinin vahid, sadə əməldən ibarət cinayət, ictimai-sosial problem olmadığını göstərmək olar. İnsan alveri mürəkkəb bir proses olmaqla başlanğıcdan sonadək səbəbləri bilavasitə ictimai, iqtisadi, sosial, siyasi və s. sahələrlə əlaqəli olan, bu günədək aradan qaldırılmamış problemlər sistemidir. Buna görə də insan alverinə qarşı mübarizə üzrə effektli nəticələrin əldə edilməsi üçün problemin

ciddiliyinin qiymətləndirilməsi aparılmaqla yanaşı sadalanan kontekstlər üzrə onun düzgün təhlil edilməsi və adekvat tədbirlərin həyata keçirilməsi zəruridir. Bu istiqamətdə atılacaq ən zəruri tədbirlər kompleksi – insanların maarifləndirilməsi, yoxsulluq və işsizliyin aradan qaldırılması üçün real addımların atılması, işsiz insanlara yaşamaq üçün zəruri olan minimum müavinətin ödənilməsi istiqamətində tədbirlər görülməlidir.

Belə ki, layihənin həyata keçirildiyi 9 aylıq müddət ərzində məlum olmuşdur ki, hazırkı ictimai-sosial durumda heç kəs insan alveri qurbanına çevrilməkdən sığortalanmayıb. İnsan ticarəti qurbanlarına çevrilənlər əksər hallarda maddi sıxıntı içində olan qadınlardır. Onların əksəriyyəti boşanmış və ya dul, bir-neçə azyaşlı uşağı olan qadınlardır. Bu vəziyyət onları daim psixoloji gərginlikdə saxlayır. Məhz buna görə də, bu cür qadınlar hər hansı iş yeri elanı barədə xəbər eşitdikdə məsələnin mahiyyətinə varmadan, hər vəcdlə ailələrini, azyaşlı uşaqlarını saxlamaq üçün bu cür elanlara baş vurur, həmin elanların təşkilatçıları tərəfindən təklif olunan ölkələrə getməyə razılaşırlar. Nəticədə, daha çox qadın aldadılaraq ölkədən çıxarılır və cinsi istismara məruz qalırlar. Həmin qadınların ölkəyə qayıtması problemə çevrilir. Əvvələ, savadsızlıqdan və daha çox hüquqi savadsızlıqdan onların əksəriyyəti qayıtdıqları təqdirdə cinayət məsuliyyətinə cəlb edilib-edilməyəcəklərini bilmirlər və ehtiyat edirlər. Eləcə də, onlar insan alverinin qurbanına çevrildikləri ölkədə hansı addımları atmalı olduqlarını, kimə etibar edə biləcəklərini müəyyən etməkdə çətinlik çəkirlər. İkincisi, onlar öz valideynləri və qohumları tərəfindən qəbul edilməyəcəkləri qorxusunu yaşayırlar. Belə halda qadınlar çalışır ki, vətənə xarici ölkədə qalma müddətləri guya bitdikləri qismində qayıtsınlar. Bu isə çox zaman mümkün olmur. Beləliklə, həmin qadınların uzun müddət xarici ölkədə istismara məruz qalmaları davam edir. İnsanların insan alverçilərinin qarmağına keçməsinin müəyyən dərəcədə qarşısının alınması üçün ən əvvəl ölkə daxilində işlər görülməlidir. İnsan alveri artıq müasir dünyanın qlobal problemləri dairəsinə daxil olub. Belə bir şəraitdə ilk növbədə insan alverinin köklü səbəblərindən biri kimi tələbat müəyyənləşdirilməli, daha sonra kompleks tədbirlər həyata keçirilməlidir.

Bunun üçün isə, əhalinin maariflənməsində və məlumatlanmasında müəyyən dərəcədə telekanallar rol oynaya bilər. Hazırda ölkə əhalisinin böyük qisminin daha çox telekanalları izlədiyini nəzərə alıb insan alveri ilə bağlı xüsusi reklam çarxlarının efirdə nümayişini təşkil etmək, problemə həsr olunmuş verilişlər, tele-layihələr hazırlamaq zəruridir.

Təşkilatın baxdığı işlər əsasında üzləşdiyimiz əsas problem məhkəmələr tərəfindən insan alveri qurbanlarına mənəvi zərərin ödənilməsinin müəyyənləşdirilməsi məsələsidir.

"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun 23.2-ci maddəsinə əsasən, insan alverindən zərər çəkmiş şəxslərə dəymiş ziyan prosessual qanunvericiliyə uyğun olaraq insan alverçilərinin əmlakı hesabına ödənilir. Bu əmlak kifayət etmədikdə, dəymiş ziyan



məhkəmənin qərarına əsasən İnsan Alveri Qurbanlarına Kömək Fondunun vəsaiti hesabına ödənilə bilər.

"Mənəvi zərərin ödənilməsi barədə qanunvericiliyin məhkəmələr tərəfindən tətbiqi təcrübəsi haqqında" Azərbaycan Respublikasının Ali Məhkəməsi Plenumunun 03 noyabr 2008-ci il tarixli, 07 saylı Qərarının 2-ci bəndində müəyyən edilir ki, Azərbaycan Respublikası qanunvericiliyinin, Avropa İnsan Hüquqları Konvensiyasının müddəaları və Avropa İnsan Hüquqları Məhkəməsinin baxdığı işlər ("Yakovlev Rusiya Federasiyasına qarşı", "Kazmina Rusiya Federasiyasına qarşı", "X Birləşmiş Krallığa qarşı".) əsasında "mənəvi zərər" anlayışı insanın anadangəlmə və ya qanun əsasında ona mənsub olan şəxsi qeyri-əmlak xarakterli hüquq və azadlıqlarının, habelə əmlak hüquqlarının pozulması nəticəsində mənəvi sarsıntı və iztirab keçirməsini ifadə edir.

Zərərçəkən fiziki şəxsin mənəvi sarsıntı keçirməsi dedikdə ona qarşı törədilən qanunsuz hərəkətin və ya hərəkətsizliyin şüurunda müəyyən mənfi psixi reaksiyaya səbəb olması, iztirab keçirməsi dedikdə isə onun sağlamlığının pozulması nəticəsində fiziki əzab çəkməsi anlaşılır. Mənəvi sarsıntı və iztirabın ağırlıq dərəcəsi mənəvi zərərin ödənilməsi tələbinin rədd edilməsi üçün əsas deyildir. Həmin Qərarın 4.-cü bəndinə əsasən, şəxsə mənəvi zərərin vurulması mənəvi sarsıntı və iztirablara səbəb olan istənilən xarakterli qeyri-hüquqi hərəkət və ya hərəkətsizlikdə (mülki, cinayət, inzibati və s. hüquq pozmalarda) ifadə oluna bilər.

Beləliklə, Azərbaycan Respublikası Ali Məhkəməsinin Plenumunun yuxarıda göstərilən qərarına əsasən, əgər şəxs istənilən xarakterli qeyri-hüquqi hərəkət və hərəkətsizlikdən əziyyət çəkibsə, həmin şəxsə ona vurulan sarsıntı və iztirablara görə mənəvi ziyan ödənilməlidir.

Qeyd edək ki, məhkəmələr hökmlə təqsirləndirilən şəxsin insan alveri kimi ağır cinayətdə təqsirli olması qənaətinə gəlmiş və mülki iddiaçıları həmin cinayətdən zərər çəkməsini müəyyən etmişdir. Belə olan halda məhkəmənin zərər çəkmiş şəxslər tərəfindən onlara dəymiş ziyanın əsaslandırmamasını bildirməsi hökmün əsaslandırıcı hissəsi ilə uyğunsuzluq təşkil edir.

Avropa İnsan Hüquqları Konvensiyasının 41-ci maddəsinə və Avropa İnsan Hüquqları Məhkəməsinin presedent hüququna əsasən mənəvi zərər şəxsə qeyri- əmlak, habelə əmlak zərəri vurulduqda ödənilə bilər. Konkret hüquq münasibəti üzrə milli qanunvericilik aktında mənəvi zərərin ödənilməsinin mümkünlüyü barədə birbaşa göstərişin olmaması bu barədə tələbin rədd edilməsi üçün əsas deyildir.

Avropa İnsan Hüquqları Məhkəməsi "Bartik Rusiya Federasiyasına qarşı" və "Kazmina Rusiya Federasiyasına qarşı" işlərdə də Məhkəmə mənəvi ziyan və məyusluq hissinə məruz qalmağı mənəvi ziyan kimi qiymətləndirmiş və ədalətlilik prinsipini əsas tutaraq ərizəçiyə mənəvi ziyana görə kompensasiyanın ödənilməsini zəruri hesab etmişdir.

Avropa İnsan Hüquqları Məhkəməsinin təcrübəsinə əsasən həmin kom-

pensasiya şəxsin məruz qaldığı ziyanla bağlıdır. Ziyana isə aşağıdakıları aid etmək olar:

1.pul itkisi,

2.ağrıya və əzaba düçar olma,

3.emosional sarsıntı keçirmə.

Təyin edilməli olan kompensasiya məbləği barədə qəti prinsiplər yoxdur. Lakin "X. Birləşmiş Krallığa qarşı" AİHM qeyd etdi ki, bu məbləğlər pozuntunun ciddiliyini özündə əks etdirməlidir. "Çevkin Rusiya Federasiyasına qarşı" işdə Avropa İnsan Hüquqları Məhkəməsi qeyd etmişdir ki, ərizəçinin hüququnun pozulması faktının müəyyən edilməsi ilə onun çəkdiyi mənəvi əzab və məyusluq hissini kompensasiya etmək olmaz.

11 may 2010-cu il tarixində Azərbaycan Respublikasının Prezidenti və Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən Avropa Şurasının İnsan alverinə qarşı mübarizə haqqında Konvensiyasını təsdiq etmişdir. Fikrimizcə, həmin konvensiyada nəzərdə tutulan aşağıdakı müddəalar barədə real və həqiqi tədbirlər görülmür.

Həmin konvensiyanın 5.2 və 6-cı maddələrinə əsasən: "insan alverinə səbəb olan bütün istismar növlərinə və xüsusilə də qadın və uşaqların istismarına şərait yaradan tələbatı aradan qaldırmaq üçün hər bir Tərəf hüquqi, inzibati, maarifləndirmə, sosial, mədəni və aşağıda göstərilənlər də daxil olmaqla digər tədbirləri həyata keçirməli və gücləndirməlidir:

a) qabaqcıl təcrübələr, metodlar və strategiyalar üzrə tədqiqatların aparılması;

b) insan alverinin köklü səbəblərindən biri kimi tələbatın müəyyənləşdirilməsi prosesində kütləvi informasiya vasitələrinin və vətəndaş cəmiyyətinin mühüm rolu və məsuliyyəti barədə məlumatlılığın artırılması;

c) lazım gəldikdə, dövlət orqanlarını və həmçinin yüksək səviyyəli şəxsləri də əhatə edən məqsədyönlü informasiya kompaniyası;

d) oğlanlar və qızlar üçün məktəblərdə cinsi ayrı-seçkiliyin yolverilməzliyini, belə ayrı-seçkiliyin qorxulu nəticələrini, gender bərabərliyinin, eləcə də hər bir insanın şərəf və ləyaqətinin toxunulmazlığının vacibliyini xüsusilə vurğulayan tədris proqramları da daxil olmaqla, qabaqlayıcı tədbirlərin həyata keçirilməsi."

Ümumiyyətlə, Azərbaycanda insan alverinə səbəb olan bütün istismar növlərinə və xüsusilə də qadın və uşaqların istismarına şərait yaradan tələbatı aradan qaldırmaq üçün hansı qabaqcıl təcrübələr, metodlar və strategiyalar üzrə tədqiqatların aparıldığı açıqlanmır. Yəni bu sahədə hansı ölkə və ya ölkələrin təcrübəsindən faydalandığımız barədə kütləvi informasiya vasitələrində hər hansı məlumata rast gəlinmir.

İnsan alverinin köklü səbəblərindən biri kimi tələbatın müəyyənləşdirilməsi prosesində kütləvi informasiya vasitələrinin və vətəndaş cəmiyyətinin mühüm rolu və məsuliyyəti barədə məlumatlılığın artırılması Azərbaycanda mövcud deyil. Belə ki, konvensiya ratifikasiya olduğu tarixdən indiyə qədər olan



müddət ərzində insan alverinin köklü səbəblərindən biri kimi tələbatın müəyyənləşdirilməsi istiqamətində dövlət tərəfindən hansı addımların atıldığı, bu səbəblərin nədən ibarət olmasının müəyyən edildiyi barədə kütləvi informasiya vasitələrində heç bir açıqlama, məlumat yayımı mövcud deyil.

**3.Təşkilatın insan alveri qurbanlarının müdafiəsi üzrə təcrübəsindən**

**Ə.I., A.İ. və K.A.-nın işi.** İş üzrə qurban üç qadındır, onlardan 2-si bacıdır. Bacılardan biri 34 yaşında 4 uşaq anası dul qadındır. Digər bacı isə 25 yaşında boşanmış iki uşaq anasıdır. K.A. da 30 yaşında ərindən boşanmış, iki uşaq anasıdır. Onlar üçü də Bakıda kafelərdən birində, iki bacı ofisiant, K.A. isə xadimə olaraq çalışarkən A.B. ilə tanış olurlar. A.B. onlara Türkiyədə kafelərdə daha yüksək maaşlı iş tapacağı vədi ilə onları aldadaraq və yol xərclərini ödəyərək Türkiyəyə aparır. Türkiyədə isə onları fahişəliklə məşğul olmağa məcbur edir. Üç qadın dəfələrlə Azərbaycana geri dönmək istəsələr də, insan alverçisi onlara imkan verməmiş, hədə-qorxu gəlmişdir. Onlar dəfələrlə qaçmaq istəsələr də pullarının olmaması və Türkiyə polisinin əlinə keçməmək üçün bu niyyətlərini həyata keçirə bilməmişdilər.

2011-ci ilin noyabr ayında isə insan alverçisi onlara heç bir pul verməyərək, sadəcə yol xərclərini ödəyərək onları Bakıya yola salmışdır. 2011-ci ilin dekabr ayında insan alverçisi A.B. Bakıya gələrək onlardan cismi istismar nəticəsində qazandığı pulları geri qaytarmaq və daha çox qazanc əldə etmək adı ilə onları yenidən İstanbula aparmaq istədiyi zaman, onlar bununla razılaşmış və eyni zamanda Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə İdarəsinə yuxarıda göstərilənlərlə bağlı tədbir görülməsi üçün müraciət etmişlər.

Beləliklə, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə İdarəsinin keçirdiyi əməliyyat nəticəsində insan alverinin qurbanı olan üç qadın Türkiyənin İstanbul şəhərinə gedən avtobusa minib yola düşərkən insan alverçisi A.B. saxlanılmışdır. İş üzrə istintaq aparılmış və həmin şəxslər Cinayət Məcəlləsinin 144-1.2.1-cü və 144-1.2.5. (insan alveri) maddələri ilə başlanmış cinayət işi üzrə zərərçəkmiş şəxs qismində cəlb edilmişdir. İstintaq tamamlandıqdan sonra iş Bakı Ağır Cinayətlər Məhkəməsinə verilmişdir. Bakı Ağır Cinayətlər Məhkəməsi A.B.-ni 8 (səkkiz) il müddətinə azadlıqdan məhrum etmişdir. Onu da qeyd edək ki, bənzər məhkəmə işləri zamanı əvvəllər keçirilmiş məhkəmə prosesləri zamanı insan alverçilərinə daha yüngül cəzalar təyin edilmiş, bəzən şərti cəzalar belə müəyyənləşdirilmişdir.

Bu işdə məhkəmə zərərçəkmiş şəxslər tərəfindən verilmiş maddi və mənəvi ziyanın ödənilməsinə dair mülki iddiaları baxılmamış saxlamışdır. Təqsirləndirilən şəxs insan alverçisi A.B. qurbanların əvvəllər fahişəliklə məşğul olduğunu vurğulamışdır. Hakim də təqsirləndirilən şəxsin fikirlərinə istinad etmiş və sonda çıxardığı hökmün bəzi yerlərində bunu qeyd etmişdir.

Halbuki, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 144-1-ci (insan alveri) maddəsinin qeyd hissəsinin 2-ci bəndinə görə insan alverindən zərərçəkmiş şəxsin istismar olunmasına dair razılığı, həyat tərzi, habelə əxlaqsız davranışı insan alverində təqsirli bilinən şəxsin cəzasını yüngülləşdirən hal qismində nəzərə alına bilməz.

Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 179.3.-cü maddəsinə əsasən, mülki iddia üzrə qərar iddianın predmetindən asılı olaraq mülki qanunvericiliyin və digər qanunvericilik sahələrinin normalarına uyğun qəbul edilir. İnsan alveri qurbanlarının məhkəmə müdafiəsi zamanı qurbanlar üçün təqdim etdiyimiz iddia ərizəsi məhkəmələr tərəfindən baxılmamış saxlanılsa da, əslində bunun üçün əsaslar Azərbaycan Respublikasının Mülki-Prosessual Məcəlləsinin 269-cu maddəsində sadalanmışdır ki, həmin hökmlərdən də göründüyü kimi bu əsasların hər hansı biri hazırkı iş üzrə mövcud olmamışdır.

Qeyd olunan iş üzrə məhkəmə zamanı yalnız "iddia tələbləri tam əsaslandırılmadığına görə" əsası ilə iddia tələbləri baxılmamış saxlanmışdır ki, prosessual qanunvericiliyə əsasən iddia tələblərinin tam əsaslandırmaması iddianın baxılmamış saxlanılması üçün əsas ola bilməz. Bundan başqa, biz məhkəmənin "iddianın tam əsaslandırılmaması" ilə bağlı arqumenti ilə də razı deyilik. Məhkəmə hökmündə bildirilir ki, zərər çəkmiş şəxslər fahişəliklə qazandıqları pullar onlara ödənilmədiyi üçün onlara ziyan vurulduğunu iddia edirlər. Qeyd edək ki, mülki iddiaçılar təqsirləndirilən şəxsdən "qazandıqları" pulları deyil, insan alveri cinayətinin qurbanı olduqları üçün onlara dəymiş mənəvi ziyanı tələb edirlər.

Təcrübə göstərir ki, qurbanların insan alverinə məruz qalmaları ilə bağlı bəzi hallarda şikayət etməmələri və onların müəyyən edildikləri təqdirdə hüquq mühafizə orqanları ilə əməkdaşlıq etmək niyyətində olmamaları da problemin düzgün qiymətləndirilməsinə təsir edən amillərdəndir. Bu tip cinayətlərdə zərər çəkənlərin təqsirlilərdən gördükləri istismar qorxusu, rəsmi və səlahiyyətli qurumların onlara kömək etməyəcəkləri və ya edə bilməyəcəkləri inamı, doğma ailələrinin onlardan imtina etməsi, öz ölkələrində məşğuliyyətlərinin olmaması kimi hallar bir çox qurbanların səlahiyyətli qurumlarla əməkdaşlığı rədd etmələrinə səbəb olur.



# TÖVSİYƏLƏR

1.Azərbaycan Respublikasınınnın Cinayət Məcəlləsinin 144-1-ci maddəsinin dispozisiyası təkmilləşdirilməli, dispozisiyanın mətni Azərbaycan Respublikasının 2003-cü il 13 may tarixli 435-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş BMT-nin «Transmilli mütəşəkkil cinayətkarlığa qarşı» Konvensiyasını tamamlayan «İnsan alverinin, xüsusən qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında» Protokolun 3-cü və "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun 1.0.1-ci maddələrində verilmiş "insan alveri" anlayışına uyğunlaşdırılmalıdır. Qanunda insan alverinin törədilməsində məqsəd yalnız istismar olaraq müəyyən edilmişdir. Cinayət Məcəlləsində verilən anlayışda isə həmin əməllərin törədilməsinin iki məqsədi (şəxsin istismar edilməsi məqsədilə Azərbaycan Respublikası dövlət sərhədindən keçirilməsi üçün və ya eyni məqsədlə digər şəxslərə verilməsi üçün) qeyd edilmişdir. Buradan görünür ki, Cinayət Məcəlləsində göstərilən məqsəd mürəkkəbdir, Qanunda qeyd edildiyi kimi sadə deyil. Ümumiyyətlə, insan alverinin xarakterik xüsusiyyətlərindən biri onun baş verməsi üçün ölkə sərhədini keçmək zərurətinin olmamasıdır. İnsan alveri əməli ölkə vətəndaşı tərəfindən digər ölkədən gəlmiş əcnəbi və ya vətəndaşlığı olmayan şəxs barəsində törədilə biləcəyi kimi, əcnəbi şəxs tərəfindən olduğu ölkənin vətəndaşı, digər ölkədən gəlmiş əcnəbi və ya vətəndaşlığı olmayan şəxs, həmçinin ölkə hüdudları daxilində bir vətəndaş tərəfindən digər vətəndaş barəsində də törədilə də bilər. Cinayət Məcəllәsində verilən həmin anlayışın daxili məzmununa görə də insan alveri ölkə sərhədlərindən kənarda törədilə biləcəyi kimi ölkə daxilində də törədilə bilər. Qeyd olunanlara əsasən, Cinayət Məcəlləsində verilən anlayışda ölkə hüdudlarını tərk etmə ilə bağlı müddəaya istismar məqsədinin əlavə olunmasına heç bir zərurət yoxdur.

2.Azərbaycan Respublikası tərəfindən milli qanunvericiliyi Avropa Şurasının İnsan Alverinə qarşı mübarizə haqqında Konvensiyasının müddəalarına uyğunlaşdırılması və insan alveri qurbanlarına tələbatın qarşısının alınması məqsədilə insan alveri qurbanları olduqları güman edilən şəxslərin istismar obyekti hesab edilən xidmətlərindən istifadə edilməsi Azərbaycan Respublikasının Cinayət Məcəlləsində cinayət əməli kimi nəzərdə tutulmalıdır. Hal-hazırda belə bir məsuliyyət nəzərdə tutan norma Azərbaycan Respublikasının qanunvericiliyində mövcud deyil. Hal-hazırda Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində yalnız 308-ci maddə (Fahişəliklə məşğul olma) mövcuddur ki, orada Fahişəliklə məşğul olmağa görə cərimə cəzası müəyyən olunmuşdur. Nümunə üçün qeyd

etmək lazımdır ki, Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsində yalnız 308-ci maddəsi Qumar oyununda iştirak etmə, yəni, qumar oynamağa görə məsuliyyət nəzərdə tutur. Təklifimiz odur ki, buna oxşar müddəa insan alveri qurbanlarına tələbatın qarşısının alınması məqsədilə insan alveri qurbanları olduqları güman edilən şəxslərin istismar obyekti hesab edilən xidmətlərindən istifadə edilməsi üçün də nəzərdə tutulmalıdır. Düzdür bu bir az incə sərhədləri ehtiva edən və çox müqavimətlə qarşılanacaq addımlar tələb edir. Bunun üçün mərhələli tədbirlər planı hazırlanmalıdır. Məsələn, ilkin mərhələdə əxlaqsız yuvalara müştəri kimi gedən insanlara qarşı inzibati xəbərdarlıq və cərimələrin tətbiqini nəzərdə tutan normaların Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə və ya Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinə daxil edilməsi və s. bu kimi tədbirlər görülə bilər;

3.Şübhəli və yolverilməz elanlar (fahişəliyə, əxlaqsızlığa, insan alverinə şərait yaradan) və onları sifariş edən şəxslər ciddi araşdırılması həyata keçirilməli və hüquq mühafizə orqanları tərəfindən müvafiq məsuliyyətə cəlb edilməsinin gücləndirilməsi; Məsələn, bəzi internet səhifələrdə və bir sıra qəzetlərdə dərc olunmuş şübhəli görünən elanlarla bağlı araşdırmalar aparılsa həmin elanların əslində adi elan olmadığı üzə çıxar. Məsələn, masaj xidmətləri, xaricdə işlə bağlı verilmiş elanlar barədə araşdırmaların aparılması məqsədə müvafiq olar;

4.07 Avqust 2012-ci il tarixində Nazirlər Kabineti "İnsan alverindən zərər çəkmiş şəxslərə reinteqrasiya dövründə ödənilən müavinətin məbləğinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2006-cı il 17 iyun tarixli 152 nömrəli qərarında dəyişiklik edilməsi barədə qərar qəbul edib. Reinteqrasiya dövründə qurbanlara ödənilən müavinətin məbləği 200 manatdan 400 manata qaldırılıb. Hesab edirik ki, bu addım təqdirəlayiqdir, lakin bəzi qurbanların ailə vəziyyətini nəzərə alsaq bu məbləğin artırılaraq 500-600 manata çatdırılmasını tövsiyə edirik;

5.İstintaq orqanları, məhkəmələr tərəfindən zərərçəkmiş şəxslərə hüquq və qanuni maraqlarının müdafiəsi, dəymiş maddi və mənəvi ziyanın ödənilməsi üçün məhkəmələrə mülki iddia ilə müraciət etmək hüquqları barədə məlumat verilməlidir. Zərərçəkmiş şəxslərin ixtisaslaşmış hüquqşünasların xidmətindən istifadə etmələri üçün müvafiq qurumlar (DİN İAQMİ-si, sığınacaq, qurbanları aşkar edən QHT və s.) mövcud xidmətlər (məsələn, onlara reinteqrasiya dövründə ödənilən müavinət haqqında, necə hüquqi yardım ala biləcəkləri, psixoloji yardım imkanları və s.), resurslar (məsələn, onlara reinteqrasiya dövründə ödənilən müavinəti haradan alacaqlar, hüquqi yardım ala biləcəkləri ünvanlar və təşkilatların siyahısı, psixoloji yardım göstərən təşkilatların siyahısı və s.) haqqında zərərçəkmiş şəxslərin məlumatlandırılmasını gücləndirməlidir. Bu cür məlumatların açıqlıq və əlçatanlıq dərəcəsi azdır. Yalnız ayrı-ayrı QHT-lər tərəfindən vaxtaşırı hər hansı layihənin həyata keçirilməsi zamanı sırf



həmin layihə ilə bağlı reklamların getdiyinin şahidi olarıq. Buna görə də, kütləvi informasiya vasitələrində AR Daxili İşlər Nazirliyi İnsan Alverinə Qarşı Mübarizə İdarəsi barədə, həmin idarənin sığınacağı, qurbanları aşkar edən QHT-lər, onlar tərəfindən təklif edilən mövcud xidmətlər, resurslar və s. haqqında zərərçəkmiş şəxslərin məlumatlandırılması və bunun artırılması istiqamətində səmərəli addımlar atılmalıdır. Məhkəmələrdə zərərçəkmiş şəxslərə dəymiş maddi və mənəvi ziyanın prosessual qanunvericiliyə uyğun olaraq insan alverçilərinin əmlakı hesabına ödənilməsinin təmin edilməsi, insan alverçilərinin əmlakı hesabına ödənilməsi kifayət etmədikdə, dəymiş ziyanın İnsan Alveri Qurbanlarına Kömək Fondunun vəsaiti hesabına ödənilməsi təcrübəsi tətbiq edilməli və genişləndirilməlidir;

6.Hakimlər, məhkəmə katibləri, digər əməkdaşların qanunlara və prosessual qaydalara riayət etməmələri, yol verdikləri pozuntularla bağlı məhkəmə sədrləri və Məhkəmə Hüquq Şurasına daxil olmuş ərizələr və şikayətlər üzrə araşdırmalar aparılmalı və müvafiq tədbirlər görülməlidir. Bəzən insan alveri qurbanlarının müdafiəsi zamanı onlara qarşı məhkəmə heyəti tərəfindən olan mənfi davranışlarla bağlı adıçəkilən qurumlara edilən şikayətlər heç bir nəticə vermir. Əksinə, həmin şəxslər bundan daha da aqressivləşirlər. Bu cür halların qarşısının alınması üçün ən əsas vasitə məhkəmə iclasları zamanı foto, səs və video çəkilişdən və ya digər yazan texniki vasitələrdən istifadə edilməsi barədə iş üzrə tərəflərin qaldırmış olduğu vəsatətlərin təmin olunması üçün AR CPM-ə dəyişikliklər olunmalıdır. Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsinin 310.2.4.-ci maddəsinə əsasən, yalnız məhkəmə iclasında sədrlik edənin icazəsi ilə foto, kino, audio, video, kompüter və digər yazan texniki vasitələrdən istifadə etmək mümkündür. Təcrübədə isə məhkəmə iclasında sədrlik edən buna heç vaxt icazə vermir və bu məsələdə icazənin verilməməsi heç nə ilə əsaslandırılmır. Hesab edirik ki, məhz bu cür vasitələr hakimlərin prosesi qanunauyğun şəkildə aparması üçün yeganə "nəzarətçi" funksiyasını həyata keçirə bilər. İş üzrə tərəflərin gələcəkdə hakimin hərəkətlərindən verdiyi şikayətin araşdırılmasında məhz bu cür yolla əldə edilmiş sübutlar daha mötəbər rol oynaya bilər;

7.Məhkəmə binalarında baxılacaq işlərin siyahısı (siyahıda təqsirləndirilən şəxsin və işə baxacaq hakimin adı, soyadı, təqsirləndirilən şəxsin ittiham olunduğu maddə(lər), prosesin tarixi, saatı, keçiriləcəyi zalın nömrəsi və s. aydın şəkildə verilməklə) elanlar lövhəsində əks olunmalıdır. Bəzi məhkəmələrdə, məsələn, Bakı Apellyasiya Məhkəməsində bu mövcud olsa da, digər məhkəmələrdə bu cür şərait yoxdur. Bakı Apellyasiya Məhkəməsinin girişində bütün hakimlərin həftə ərzində baxacağı işlərə dair - işə baxacaq hakimin adı, soyadı, təqsirləndirilən şəxsin adı, soyadı və ittiham olunduğu maddə(lər), prosesin tarixi, saatı göstərilmiş siyahılar asılmışdır. İnsan alveri qurbanlarının işlərinin ən çox olduğu Bakı Ağır Cinayətlər məhkəməsində isə bu cür elan lövhələri yoxdur;

8.Bütün Məhkəmələrin web səhifələri yaradılmalı, orada məhkəmə prosesləri barədə məlumatlar gündəlik yerləşdirilmləli və yenilənməlidir. Bəzi məhkəmələrin, məsələn, Bakı Apellyasiya Məhkəməsinin işlək web səhifəsi (http://www.bakuappealcourt.gov.az/) olsa da, digər məhkəmələrin ya saytı yoxdur, ya da oradakı informasiyalar aylarla, hətta illərlə yenilənmir.



**Məcburi əmək: qanunvericilik və onun tətbiqi praktikası**
*(VƏTƏNDAŞLARIN ƏMƏK HÜQUQLARINI MÜDAFİƏ LIQASI)*

**1.Təşkilat haqqında məlumat**

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası (VƏHML) 1997-ci ilin iyun ayında təsis olunub. Qeyri-hökumət təşkilatı olaraq Azərbaycan Rspublikasının Ədliyyə Nazirliyi tərəfindən 18 mart 2000-ci il tarixində dövlət qeydiyyatına alınıb.

Təşkilatın ali orqanı ümumi yığıncaqdır. Ümumi yığıncaqlararası dövrdə təşkilatın fəaliyyətinə İcraiyyə Komitəsi rəhbərlik edir. İcraiyyə Komitəsi öz sırasından İcraiyyə Komitəsinin sədrini seçir.

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının əsas missiyası ölkənin sosial sferasında insan hüquq və azadlıqlarının təmin olunması istiqamətində hüquqi, ictimai, maarifləndirici və vəkillik fəaliyyətini həyata keçirməkdir. Sosial və iqtisadi hüquqların müdafiəsi ilə yanaşı təşkilat həmçinin fundamental hüquq və azadlıqların təmin olunması istiqamətində də ixtisaslaşmışdır. Təşkilat işini əsasən monitorinqlər, məhkəmə çəkişmələri, ictimai kampaniyalar, maarifləndirmə və vəkillik fəaliyyəti şəklində qurur. Təşkilatın müvafiq dövlət qurumları ilə əməkdaşlıq təcrübəsi vardır. Təşkilatın əsas fəaliyyət istiqamətlərindən biri də BMT-nin Müqavilə Orqanlarına hökumət hesabatına alternativ hesabatlar təqdim etməkdir.

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının fəaliyyətinin əsas istiqamətlərindən birini də məcburi əməyin tətbiqi hallarına qarşı mübarizə təşkil edir..VƏHML-in məcburi əməyin tətbiqi hallarının qarşısının alınmasına yönələn fəaliyyətini hüquqi və maarifləndirici xarakter daşıyır. Hüquqi fəaliyyət olaraq təşkilatı strateji məhkəmə çəkişmələri, qanunvericiliyin və onun tətbiqi praktikasının dəyişdirilməsi istiqamətində iş aparır.

VƏHML məcburi əməyin tətbiqi ilə əlaqədar zərərçəkmiş qurbanların hüquqlarının müdafiəsinə yönələn məhkəmə prosesləri həyata keçirmiş və hazırda keçirməkdədir;

Son il yarım ərzində həyata keçirilən və davam etməkdə olan məhkəmə işləri:

1.İlhami Aslan və Qeyriləri İstanbul Çarşı İmport & Exsport Ltd şirkətinə qarşı

2.Erdal Ok və qeyriləri İstanbul Çarşı İmport & Exsport Ltd və Levha Metal İnşaat Sanaye və Tic. LTD, ŞTİ qarşı;

3.Sedat Üstüntaş və Tezcan İstek İstanbul Çarşı İmport & Exsport Ltd şirkətinə qarşı

4.Yücel Güney Durmuş "Şimal Beton" MMC və Bank Respublikaya qarşı

Təşkilat hazırda Beynəlxalq Miqrasiya Təşkilatının dəstəyi ilə məcburi əməyə cəlb edilən və ya əmək hüquqları pozulan əməkçi miqrantlara hüquqi yardımlar göstərilir.

VƏHML ölkənin əmək sferasında ardıcıl olaraq monitorinqlər keçirir və bu monitorinqlər zamanı tədqiqat istiqamətlərindən biri də məcburi əməklə bağlıdır. Monitorinqlərin nəticəsi olaraq hazırlanan hesabatlar və tövsiyyələrdə qanunvericiliyin təkmilləşdirilməsi, müvafiq qanunvericiliyə əlavə və dəyişikliklərin edilməsi də əks olunur.

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası 2007-ci ildə Avrasiya Fondunun maliyyə dəstəyi ilə Əmək hüquqlarının təmin olunma vəziyyəti ilə bağlı monitorinq keçirmişdir. (http://www.clrpl.az/upload/file/Emek%20huquqlarının%20monitoringi%203.pdf)

2008-ci ildə isə VƏHML QHT-lərə Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə Əməyin mühafizəsinin vəziyyəti ilə bağlı monitorinq keçirmişdir. (http://www.clrpl.az/upload/file/Emeyin%20muhafizesi%206.pdf).

Hər iki monitorinq nəticəsi olaraq hökumətə təqdim olunmuş hesabat və tövsiyyələr əsasında həm qanunvericilikdə, həm də onun tətbiqi praktikasında xeyli dəyişikliklər baş vermişdir.

Bu hesabatlarda məcburi əməyin qarşısının alınmasına yönələn tövsiyyələr də yer almışdır.

Təşkilatın maarifləndiici fəaliyyəti əsasən insan alveri, o cümlədən məcburi əməyin tətbiqinin qarşısının alınmasına yönələn məlumatlandırıcı tədbirlər, o cümlədən konfranslar, dəyirmi masalar, radio, tv və qəzetlərdə, sosial mediada çıxışlar və s. problemin ictimailəşməsinə yönələn tədbirlərdir. Təşkilat eləcə dəəməkçi miqrantların və onların ailə üzvlərinin maarifləndirilməsi üçün yaddaşlar hazırlayır və nəşr edr, seminarlar təşkil edir.

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının BMT nin İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitəsinə Azərbaycan hökumətinin 3-cü dövrü hesabatına alternativ olaraq təqdim etdiyi hesabatda məcburi əməyin tətbiqi hallarına dair fəsil daxil edilmişdir.

(Bax:www2.ohchr.org/english/bodies/cescr/docs/ngos/CLRPL_Azerbaijan_CESCRWG49.pdf).

Azərbaycan Respublikası Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının müdafiəsinə dair Beynəlxalq Konvensiyanı ratifikasiya etmişdir. Azərbaycan Dövlətinin ilk hesabatı Əməkçi Miqrantlar və Onların Ailə üzvlərinin Müdafiəsi üzrə Komitənin 2009-cu il 20 aprel-01 may tarixli Cenevrədə keçirilən 10-cu sessiyasında müzakirə edilmişdir. Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının hesabatı Komitənin veb səhifəsində yerləşdirilmişdir.(http://www2.ohchr.org/english/bodies/cmw/docs/ngos/CLRPLAzerbaijan10New.pdf)

Təşkilat nümayəndələri həmçinin Komitənin sessiyasında iştirak etmiş və Komitə ekspertləri üçün brifinq keçirərək ölkədə əməkçi miqrantların hüquqlarının pozulması halları, o cümlədən məcburi əməyə cəlb edilmə halları barədə məlumatlar təqdim etmişdir.



## 2. Məcburi əmək sahəsində Azərbaycan Respublikasının qanunvericiiyi və müvafiq beynəlxalq normaların müqayisəli təhlili

### 2.1. Məcburi əməyin anlayışı və formaları

Azərbaycan Respublikasının qanunvericiliyi məcburi əməyə həm cinayət əməli, həm də inzibati xəta kimi yanaşır. "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikası Qanununda iki anlayış verilmişdir. Bunlar:

"İnsanların istismarı - məcburi əmək (xidmət), cinsi istismar, köləlik, köləliyə bənzər adətlər və onlardan irəli gələn asılılıq vəziyyəti, insan orqanlarının və toxumalarının qanunsuz çıxarılması, şəxs üzərində qanunsuz biotibbi tədqiqatların aparılması, qadının surroqat ana kimi istifadə edilməsi, qanunsuz, o cümlədən cinayətkar fəaliyyətə cəlb etmə, habelə insanların digər formada istismar edilməsi" digəri isə,

"Məcburi əmək (xidmət) - qanunsuz olaraq şəxsin müəyyən işin yerinə yetirilməsinə (xidmətin göstərilməsinə) məcbur edilməsi"dir.

Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 17-ci maddəsində göstərilir ki, "Hər hansı qayda və üsulla zor işlətməklə, həmçinin əmək müqaviləsinə xitam veriləcəyi hədə-qorxusu ilə işçini əmək funksiyasına daxil olmayan işi (xidməti) yerinə yetirməyə məcbur etmək qadağandır. İşçini məcburi əməyə cəlb edən təqsirkar şəxslər qanunvericiliklə müəyyən edilmiş qaydada məsuliyyətə cəlb edilirlər." Əmək Məcəlləsinin 17-ci maddəsinin 2-ci bəndinə görə "Hərbi və ya fövqəladə vəziyyətlə əlaqədar müvafiq qanunvericilik əsasında, habelə qanuni qüvvəyə minmiş məhkəmə hökmlərinin icrası zamanı müvafiq dövlət orqanlarının nəzarəti altında yerinə yetirilən işlərdə məcburi əməyə yol verilir".

Yuxarıda göstərilən hallar baş verdikdə, baş vermiş əməlin xarakterindən və ağırlıq dərəcəsindən asılı olaraq cinayət və inzibati məsuliyyət yaranır.

Ümumiyyətlə, Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən məcburi əməyə cəlb etmə zamanı azadlığın hər hansı formada məhdudlaşdırılması halı varsa bu cinayət əməli kimi təsnif olunur.

Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 144-2-ci maddəsinə görə "hədə-qorxu, zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə, habelə qanunvericiliklə müəyyən edilmiş xüsusi hallardan başqa şəxsin azadlığını məhdudlaşdırmaqla müəyyən işin yerinə yetirilməsinə (xidmətin göstərilməsinə) məcbur etmə"yə görə "iki ilədək müddətə islah işləri və ya eyni müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır". Eyni əməllər "iki və ya daha çox şəxs barəsində törədildikdə", "təkrar törədildikdə", "yetkinlik yaşına çatmayan şəxs barəsində törədildikdə", "təqsirkar şəxs üçün aşkar surətdə hamilə vəziyyətində olan qadın barəsində törədildikdə", "təqsirkar şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə törədildikdə" və

"qabaqcadan əlbir olan bir qrup şəxs, mütəşəkkil dəstə və ya cinayətkar birlik (cinayətkar təşkilat) tərəfindən törədildikdə" üç ildən beş ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Bu maddəyə görə sadalanan hallarda "göstərilən əməllər ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda" beş ildən on ilədək müddətə azadlıqdan məhrum etmə ilə cəzalandırılır.

Göründüyü kimi, məcburi əməyin tətbiqi ilə bağlı nəzərdə tutulan cəza ağırlıq, şərait, mövqe və tətbiq olunan şəxsdən asılı olaraq dəyişir.

Cinayət məcəlləsinin 144-1. maddəsi insan alverinə aiddir. Bu maddədə həmçinin "istismar edilmə"söz birləşməsi verilir. İnsan Alverinə Qarşı Mübarizə Haqqında Qanunun 1-ci maddəsində İnsanların istismarı - məcburi əmək (xidmət)-anlayışında əks olunan "kölətik, köləliyə bənzər adətlər və onlardan irəli gələn asılılıq vəziyyəti"də insan istismarı və məcburi əməyin bir forması kimi göstərilir və bu maddədə daha ağır cəza nəzərdə tutulur.

İnzibati Xətalar Məcəlləsinin 53-1. maddəsində nəzərdə tutulur ki: "Əmək müqaviləsinə xitam veriləcəyi və ya kollektiv müqavilədə müəyyən edilmiş güzəşt və imtiyazlardan məhrum ediləcəyi hədə-qorxusu ilə işçinin əmək funksiyasına daxil olmayan işin (xidmətin) yerinə yetirilməsinə məcbur edilməsinə görə -min manatdan iki min manatadək miqdarda cərimə edilir."

Beynəlxalq təsnifata görə məcburi əməyin aşağıdakı formaları mövcuddur:

•Qul əməyi;
•Məcburi surətdə ictimai işlərə cəlb etmə;
•Kənd təsərrüfatında və ucqar yerlərdə məcburi əmək;
•Məcburi xarakterli ev işləri;
•Hərbiçilər tərəfindən məcburi əməyə cəlb etmə;
•Borcdan asılı məcburi əmək;
•Borca görə saxlama və zorakılığın digər formaları;
•Məcburi uşaq əməyi;
•Miqrasiya və istismaredici əmək müqaviləsi sisteminin tətbiqi;
•İnsan alveri nəticəsində məcburi əmək;

Bu formalardan Azərbaycanda təsadüf edilən və qeydə alınanları əsasən aşağıdakılardır:

**Məcburi surətdə ictimai işlərə cəlb etmə**

Azərbaycan Respublikasının Cinayət Məcəlləsində nəzərdə tutulan cəza növlərindən biri də ictimai işlərdir (Cinayət Məcəlləsi, maddə 42.0.4.). Cinayət Məcəlləsinin 47-ci maddəsinə əsasən ictimai işlər "İctimai işlər məhkumun əsas işindən və ya təhsilindən asudə vaxtlarında haqqı ödənilmədən cəmiyyətin xeyrinə ictimai faydalı işlər yerinə yetirməsindən ibarətdir. Belə işlərin növləri müvafiq icra hakimiyyəti orqanı tərəfindən müəyyən edilir"Həmin maddəyə görə "İctimai işlər altmış saatdan iki yüz qırx saatadək müddətə müəyyən edilir və gün ərzində dörd saatdan çox ola bilməz".

Cinayət Məcəllasinə görə, "Bu cəzaya məhkum olunmuş şəxs həmin işləri



yerinə yetirməkdən qərəzli boyun qaçırdıqda, məhkəmə ictimai işlərin çəkilməmiş hissəsini müəyyən müddətə azadlıqdan məhrum etmə növündə cəza ilə əvəz edə bilər. Bu zaman müəyyən müddətə azadlıqdan məhrum etmə cəzasının müddəti müəyyən edilərkən məhkumun ictimai işləri yerinə yetirdiyi müddət nəzərə alınır və on iki saat ictimai işə bir gün azadlıqdan məhrum etmə hesabı ilə hesablanır."

Göründüyü kimi, ölkənin cinayət qanunvericiliyində ictimai işlər növündə cəza vardır ki, bu işlərin yerinə yetirilməsi məcburidir və bu işlərin yerinə yetirilməsindən imtina bu cəzanın azadlıqdan məhrumetmə cəzası ilə əvəzlənə bilər.

Cəzaların İcrası Məcəllesinin 26-cı maddəsinə görə məhkum cərimə növündə cəzaya məruz qaldıqda, cəriməni ödəməlidir. Məhkum cəriməni ödəməkdən boyun qaçırdıqda "...ona edilən rəsmi xəbərdarlıqdan sonra cəriməni ödəməkdən boyun qaçırarsa və onun xüsusi mülkiyyətdə əmlakı, ümumi mülkiyyətdə payı və digər qazancı olmazsa məhkəmə əsas cəza kimi təyin edilmiş bu cəza növünü icra məmurunun təqdimatına əsasən ictimai işlər, islah işləri və ya müəyyən müddətə azadlıqdan məhrum etmə cəzası ilə əvəz edə bilər".

Cəzaların İcrası Məcəllesində bir fəsil ictimai işlər növündə cəzanın icrası ilə bağlıdır.

Yuxarıda qeyd olunduğu kimi, BMT-nin İqtisadi-sosial və Mədəni Hüquqlar üzrə Komitəsi qanunvericilikdə belə cəza növlərinin olmasından narahatlığını ifadə etmişdir.

Ölkədə ictimai işlər növündə ödənişsiz işlərə cəlb etmə formalarından biri də iməcliklərdir. Bir sıra inzibati ərazi vahidlərində dövlət büdcəsindən əmək haqqı alan işçilər (müəllimlər, həkimlər, mədəniyyət işçiləri, mərkəzi və yerli hakimiyyət orqanlarının əməkdaşları) abadlaşdırma işləri adı altında müxtəlif ödənişsiz işlərə cəlb olunurlar. Həmin işçilər belə işlərə bir qayda olaraq istirahət günlərində cəlb olunurlar.

**Məcburi xarakterli ev işləri**

Son 15-20 il ərzində ölkədə yeni növ iş yeri formalaşmağa başlamışdır ki, hər hansı rəsmi və ya qeyri-rəsmi statistika olmasa da hazırda belə iş yerlərində çalışanların sayının minlərlə olması şübhə doğurmur. Bu ev qulluğu işləridir. Doğrudur, əvvəllər də müxtəlif növ ev qulluğu işləri mövcud olmuşdur. Lakin bu tip işlərə çox az təsadüf olunurdu. Hazırda isə bu sferada minlərlə insan dayə, ev aşbazı, ev xadiməsi, bağban, şəxsi sürücü, cangüdən və s. ev (burada ev bir qədər geniş anlayışda başa düşülməlidir - yəni həmçinin həyətyanı sahə, bağ və s.) işlərində çalışır və onların tam əksəriyyəti qeyri-formal əmək bazarının iştirakçısıdır.

Belə əmək bazarının iştirakçısı olan şəxslərlə əmək münasibətləri hər hansı formada rəsmiləşdirilmir və onların bir çoxunun elementar əmək hüquqları pozulur və ayrı-ayrı hallarda müxtəlif növ zorakılığın və istismar hallarının qurbanına çevrilirlər.

Belə vəziyyətin mövcudluğu həm hüquqi tənzimləmə qayda və mexanizmlərinin olmaması, həmçinin ev qulluğu işlərinin ənənəvi olaraq qeyri-rəsmi iş yerləri sayılması ilə bağlıdır.

Ev qulluğu işlərinə cəlb edilən insanların fəaliyyətləri tam muzdlu əmək olduğu halda onların əksəriyyəti ilə əmək müqavilələri bağlanmır. Bunun əsas səbəblərindən biri də Əmək Məcəlləsinin ev qulluğu işlərində çalışanlarla əmək münasibətlərinin tənzimlənməməsidir. Belə ki, Əmək Məcəlləsində sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan fiziki şəxslər anlayışı yoxdur. Eyni zamanda Əmək Məcəlləsinin 49-cu maddəsinin 3-cü bəndinə əsasən "Əmək müqaviləsinin hər hansı dövlət orqanında və ya digər qurumlarda qeydiyyata alınması, təsdiq edilməsi yolverilməzdir".

Əmək Məcəlləsində mövcud olan bu müddəa sahibkarlıq fəaliyyəti ilə məşğul olmayan fiziki şəxslərin arasında muzdlu əmək fəaliyyətinə dair əmək müqaviləsi bağlamağa imkan vermir.

Ev qullluğu işlərinə mülki hüquq müqavilələri ilə fəaliyyətə cəlb edilən şəxs vergi orqanlarında qeydiyyatda düşməli, VÖEN almalı, müvafiq olaraq vergi, sosial müdafiə orqanlarına rüblük və illik hesabatlar təqdim etməlidir. Bu isə praktik baxımdan mümkün deyildir (bunu edə bilməsi üçün xidmətçi işləyən şəxs mühasibat uçotu qaydalarını bilməli, internetdən bəyannamə təqdim etmə bacarığına malik olmalıdır).

Beləliklə, ev qulluğu işlərinə cəlb olunan şəxslərlə əmək münasibətlərinin rəsmiləşdirilməsi hüquqi baxımdan qeyri-mümkündür.

**Borcdan asılı məcburi əmək**. Bu məcburi əmək növü Azərbaycanda geniş yayılmamışdır. Bununla belə bu cür hallara təsadüf olunur. Bu əsasən şəbəkə marketinqi adlanan ticarət və xidmət növü olan və əsasən qeyri-rəsmi fəaliyyət göstərən (və ya rəsmi fəaliyyət növü ilə faktiki fəaliyyət forması arasında fərq olan) iş yerlərində əməyə cəlb etmə hallarında baş verir. Belə yerlərdə borcdan asılı vəziyyətə düşmə halları geniş tətbiq olunur. Yəni ona əvvəlcədən verilən pulu geri qaytarmaq üçün işləmək, həm də əksinə, şəbəkə marketinqinə işə cəlb edilən şəxs tərəfindən qoyulan pulun geri alınması üçün işlərin yerinə yetirilməsi tələb olunur. Bir qayda olaraq belə işlərə cəlb edilənlər sonda əmək sərf etdikləri halda heç bir qazanc əldə etmirlər və ən yaxşı halda qoyduqları pulun bir qismini geri qaytarmağa nail olurlar.

Borcdan asılı məcburi əməyə cəlb etmə halları ev qulluğu işlərində də qeydə alınır.

**Məcburi uşaq əməyi**. Ötən əsrin 90-cı illərində uşaqların qeyri-formal əmək bazarında müxtəlif növ işlərə cəlb olunması halları geniş yayılmışdır. Belə işlər ticarət, ictimai iaşə (restoran, çayxana, şadlıq evləri), ictimai nəqliyyat və s. sferalarda daha geniş yayılmışdır. Hazıda uşaqların belə işlərə cəlb olunması kəskin surətdə azalmışdır. Bununla belə uşaqların restoran, şadlıq evləri, ticarət sektorunda işlərə cəlb edilmə halları vardır. Eyni zamanda kəndli-fermer təsərrüfatlarında da uşaqların əməyə cəlb olunması halları mövcuddur.



Azərbaycan Respublikası Konstitusiyasının 16-cı maddəsinin 5-ci bəndinə əsasən **"15 yaşına çatmamış uşaqlar işə götürülə bilməzlər"**. Əmək Məcəlləsində də 15 yaşına çatmayan uşaqların hər hansı muzdlu işə cəlb olunması qadağan olunur. Ölkədə uşaqların istismaredici formada məcburi əməyə cəlb edilməsi forması əsasən dilənçiliyə cəlb etmədir.

**Miqrasiya və istismaredici əmək müqaviləsi sisteminin tətbiqi**. Bütün dünyada əməkçi miqrantlar insan alveri və məcburi əməyin potensial qurbanlarıdır. Risk qrupuna ilk növbədə əsasən tənzimlənməyən (qeyri-leqal) əmək miqrasiyası iştirakçıları daxildir.

Azərbaycan Respublikasında muzdlu əmək fəaliyyətinə cəlb olunmuş əcnəbi və ya vətəndaşlığı olmayan şəxslərin əksəriyyəti tənzimlənməyən (qeyri-leqal) əmək miqrasiyasının və bununla da qeyri formal əmək bazarının iştirakçısıdır. Bu hal belə şəxsləri həm dövlət orqanları, həm də işəgötürənlər qarşısında müdafiəsiz vəziyyətə salır.

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasının 2009-cu ildə əməkçi miqrant və onların ailə üzvlərinin hüquqlarının təmin olunma vəziyyətinin öyrənilməsi ilə bağlı həyata keçirdiyi monitorinq zamanı ölkədə qeyri-leqal əmək miqrantlarının sayının fərdi icazə əsasında əmək fəaliyyəti həyata keçirən əməkçi miqrantlara nisbətən dəfələrlə çox olmasının aşağıda göstərilən səbəblərini müəyyən etmişdir:

-Qanunvericilik təkmil deyil;

-Əmək bazarının ehtiyacları müəyyən edilməyib, hansı peşələr və hansı regionlar üzrə əcnəbi və ya vətəndaşlığı olmayan işçiyə tələbatın olduğu müəyyənləşməyib. Bu da icazə alınması zamanı subyektiv qərarların verilməsinə (əsassız imtinaya) əsas verir ;

-Leqal əmək fəaliyyəti ilə məşğul olmaq üçün icazə prosedurları mürəkkəbdir;

-Qeyri-formal sektor ölkənin əmək bazarının 60%-dən çoxunu təşkil edir. Bu isə qeyri formal sektorda əməkçi miqrantların əksəriyyət təşkil etməsinə şərait yaradır.

Həmçinin, ölkədəki əməkçi miqrantları aşağıdakı şəkildə qruplaşdırmaq olar:

-Ölkəyə qanuni əsaslarla daxil olmuş, lakin fərdi icazə almadan əmək fəaliyyəti ilə məşğul olanlar;

-Azərbaycan Respublikası ilə viza rejimi olmayan dövlətlərdən gələn, lakin qeyri-leqal əmək fəaliyyəti ilə məşğul olanlar (bunlar əsasən qonşu Gürcüstandan gələn etnik azərbaycanlılardır);

-Ölkəyə hər hansı viza almadan qeyri-leqal yolla daxil olan və qeyri-qanuni əmək fəaliyyəti ilə məşğul olanlar;

-Fərdi icazə alaraq qanuni əmək fəaliyyəti ilə məşğul olanlar.

-Sonuncular istisna olmaqla digərləri bu və ya digər şəkildə məcburi əməyə cəlb olunurlar.

-Tənzimlənməyən əmək miqrasiyasının iştirakçıları əsasən aşağıda göstərilən risk və problemlərlə üzləşirlər:

-Qeyri-formal əmək bazarının iştirakçısıdır. Onunla əmək müqaviləsi bağlanmır;

-Onlar icbari dövlət sosial sığortasına cəlb olunmur və sığorta hadisəsi baş verəndə müavinətlər ala bilmirlər;

-Onlar bədbəxt hadisə və peşə xəstəliklərindən sığorta olunmur. Əmək müqaviləsi olmadan işlədiyi üçün belə halda işəgötürən də həmin şəxsin onun işçisi olmadığını bildirir;

-İstənilən vaxt işdən qovulur və həmişə işəgötürəndən asılı vəziyyətdə olurlar. Bu səbəbdən onlar əmək funksiyalarına aid olmayan işlərə, iş vaxtından artıq işlərə cəlb olunurlar;

-Əmək haqqının verilib verilməməsi işəgötürənin iradəsindən asılıdır. Bir qayda olaraq onlara əmək haqqı verilmir və ya tam şəkildə verilmir;

-Müvafiq dövlət orqanları tərəfindən yaxalanaraq ölkədən deportasiya olunur və onun bu ölkəyə qayıtmaq hüququ qanunvericiliklə müəyyən olunmuş müddətdə qadağan olunur;

-Məcburi əməyin ağır formalarının və ya insan alverinin digər formalarının qurbanına çevrilirlər.

Son illərdə Azərbaycanda əcnəbi vətəndaşların məcburi əməyə cəlb edilməsi ilə bağlı bir sıra hallar qeydə alınmışdır.

Bununla belə, İnsan Alverinə Qarşı Mübarizə İdarəsinin rəsmi veb səhifəsində 2010-cu ildə 1, 2011-ci ildə isə məcburi əməklə bağlı (CM, 144-2-ci maddəsində nəzərdə tutulan cinayət) 2 cinayət faktı qeydə alınmışdır. İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Koordinatorun Milli Məclisə təqdim etdiyi hesabatda göstərilir ki, məcburi əməklə bağlı müraciətlər olsa da onlar təsdiqini tapmayıb.

"Azərbaycanda vətəndaşların məcburi əməyə cəlb edilməsi ilə bağlı bir sıra müraciətlər olub. V. Eyvazov deyib ki, araşdırmalar zamanı bunlar öz təsdiqini tapmayıb.

Bildirilib ki, hesabat dövründə Dövlət Əmək Müfəttişliyi, Dövlət Miqrasiya Xidməti, Azərbaycan Sahibkarlar Konfederasiyası və QHT-lərlə birgə ayrı-ayrı vaxtlarda müxtəlif tikinti şirkətlərində və daş karxanalarında məcburi əməyə məruz qalma hallarının müəyyən edilməsi üçün monitorinqlər aparılıb. Tikinti təhlükəsizliyi və qeydiyyat qaydalarının, habelə əmək qanunvericiliyinin tələblərinin pozulması halları aşkarlanaraq, aidiyyati şəxslər barədə müvafiq tədbirlərin görülməsi təmin edilib" .

Monitorinqlərin nəticələri açıqlanan zaman və həmin hesabatda məcburi əmək hallarının qeydə alınmadığı göstərilən vaxt ölkənin məhkəmələrində məcburi əməyə cəlb olunma halları ilə bağlı bir neçə məhkəmə işi davam etməkdə idi.

---

[14]Mənbə: http://az.apa.az/news.php?id=239511



Milli Koordinator və İnsan Alverinə Qarşı Mübarizə İdarəsinin ölkədə məcburi əməklə bağlı faktların olmaması barədə dedikləri ona əsaslanır ki, bu idarə məcburi əməyə cəlb olunma halının yalnız Cinayət Məcəlləsinin 144-2-ci maddəsi ilə müəyyən olunan hallarının olmadığını əsas götürür. Həmin maddədə isə məcburi əmək "hədə-qorxu, zor tətbiq etməklə və ya zor tətbiq etmək hədəsi ilə, habelə qanunvericiliklə müəyyən edilmiş xüsusi hallardan başqa şəxsin azadlığını məhdudlaşdırmaqla müəyyən işin yerinə yetirilməsinə (xidmətin göstərilməsinə) məcbur etmə" dir. Beləliklə, ixtisaslaşmış idarə yalnız azadlığın məhdudlaşdırılması halı ilə bağlı məcburi əməyi nəzərdə tutur. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi nəzdində Dövlət Əmək Müfəttişliyi Xidməti isə əmək məcəlləsində göstərilən və inzibati məsuliyyət yaradan məcburi əmək hallarını əmək qanunvericiliyinin pozulması halı kimi qeydə alır.

İstismaredici əmək müqavilələrinin bağlanması halları ən geniş yayılmış məcburi əməyə cəlb etmə formalarıdır. Bu praktika əsasən xarici neft şirkətlərində geniş tətbiq olunur. Azərbaycan Respublikasının Əmək Məcəlləsinin 43-cü maddəsinin 3-cü bəndinə görə "Əmək müqaviləsi bağlanarkən, həmçinin əmək münasibətlərinə xitam verilənədək bu Məcəllə ilə işçilər üçün müəyyən edilmiş hüquq və təminatların səviyyəsi azaldıla bilməz".

Məcəllənin bu qadağanedici müddəasına baxmayaraq əksəriyyət xarici neft şirkətlərində, son illərdə isə qeyri neft sektorunda fəaliyyət göstərən bir sıra özəl xarici və milli şirkətlərdə də işçilərin hüquqlarını məhdudlaşdıran müddəaların daxil edildiyi müqavilələr bağlanır.

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası, eləcə də digər təsisatlar tərəfindən aparılan araşdırmalar göstərir ki, transmilli korporasiyalarda Azərbaycanın əmək qanunvericiliyi ciddi şəkildə pozulur və bu da əsasən məcburi əməyə cəlb etmə hallarına səbəb olur.

Araşdırmalara əsasən xarici neft şirkətlərində məcburi əməyə şərait yaradan istismaredici əmək müqavilələri bağlanılır.

Əmək Müqavilələri bağlanarkən və həmin müqavilə əsasında əmək funksiyalarının icrası zamanı əməyin istismarına gətirən əsas pozuntular aşağıdakılardır:

•**Əmək müqavilələrinin bağlanması.** Əmək müqavilələri Əmək Məcəlləsinin 42-61-ci maddələrinin tələbləri və nümunəvi formada əks olunan şərtlər nəzərə alınmadan bağlanılır. Eyni zamanda əmək müqaviləsi bağlanılarkən Məcəllənin 45, 47-ci maddələrində əks olunmuş müddəalara da əməl olunmur. Belə ki, Məcəlləsinin 45-ci maddəsinin tələbinə görə əgər görülən iş və ya göstərilən xidmət daimi xarakter daşıyırsa, onda əmək müqaviləsi müddət müəyyən olunmadan bağlanılmalıdır.

•**İşçilərin əmək funksiyalarına dair tələblərin pozulması.** Əmək Məcəlləsinə görə işçinin əmək funksiyaları müqavilədə tam sadalanmalıdır. Əmək müqavilələrində bir qayda olaraq bu funksiyalar ya ümumiyyətlə

göstərilmir, yaxud ümumi və abstrakt şəkildə göstərilir. Bəzi hallarda «əmək funksiyaları» qrafasında «işəgötürənin bütün göstərişlərini yerinə yetirir» kimi müddəalar daxil edilir.

•**Əməyin ödənişi üzrə pozuntular.** Əmək Məcəlləsinin 16-cı maddəsi (əmək münasibətlərində ayrı-seçkiliyin yolverilməzliyi) kobud surətdə pozulur. Bərabər əməyə görə ödəniş xaricilərə yerli işçilərə nisbətən 4-5 dəfə və bəzən daha artıq ödənilir.

•**Məzuniyyətlə bağlı pozuntular.** Əmək müqavilələrində əsas və əlavə məzuniyyətlər, sosial məzuniyyətlər, yaradıcılıq məzuniyyətləri və ödənişsiz məzuniyyətlərə dair şərtlər əks etdirilmir.

•**İşçilərin sosial sığorta hüquqlarının pozulması.** Əmək Müqavilələri bağlanarkən işçilərin məcburi dövlət sığortasının və yüksək təhlükəli sahələrdə çalışan işçilərin icbari sığortalanmasının şərtləri göstərilmir. Daxili qanunvericiliyin tələblərini pozaraq əmək müqavilələrində ümumiyyətlə sosial sığortaya dair müddəalar daxil edilmir və bir sıra hallarda işçiləri sığortalamırlar.

•**Əməyin Mühafizəsi qaydalarının pozulması.** Əmək müqavilələrində əməyin və sağlamlığın mühafizəsinə və sanitar-gigiyenik şəraitin yaradılmasına dair şərtlər əks olunmur. Lakin əmək fəaliyyəti zamanı təhlükəsizlik texnikası qaydalarına ciddi əməl olunur.

•**Əmək müqaviləsinin bağlanması və ona xitam verilməsi şərtləri üzrə pozuntular.**

Əmək Müqavilələrinə Əmək Məcəlləsinin 68-70, 73-75-ci maddələrində nəzərdə tutulmuş qaydada əmək müqavilələrinə xitam verilməsi qaydalarının şərtləri daxil edilmir. Əmək müqavilələrinə xitam verilərkən Əmək Məcəlləsinin 9-12, 62,71,72,, 185-187, 189-cu maddələri kobud surətdə pozulur.

•**Müqavilə müddətlərinin pozulması.** Bir çox hallarda işçinin iradəsinə zidd olaraq müddətsiz müqavilələr müddətli müqavilələrlə əvəz olunur. Bəzi hallarda işçilərin hüquqlarını bilməməsindən sui-istifadə edərək onlarla bağlanmış müddətsiz əmək müqavilələrini müddətli müqavilələrlə əvəz edirlər.

•**İş vaxtı və istirahət vaxtına dair şərtlərin pozulması.** Əmək müqavilələrinə iş vaxtından artıq işlərə yol verilən hallarda əmək haqqının verilməsi qaydalarına dair müddəalar daxil edilmir. İş vaxtı ilə bağlı istismaredici şərtlər əmək müqaviləsinə daxil edilir. Belə ki, əmək müqaviləsində iş vaxtının müddəti 12 saat göstərilir. Bu müddət işləmək istəməyənlərə əmək haqqı 8 saat üçün verilir. Beləliklə, işçilər 12 saat işləməyə razılıq verirlər. Lakin bu razılıq könüllü razılıq ola bilməz və məcburiyyətdən doğan (nisbətən çox əmək haqqı almaq üçün) razılıqdır. Bu həm beynəlxalq, həm də milli normaların tələbi baxımından məcburi əməyə cəlb etmə hesab olunur.

•**İşçilərin həmkarlar ittifaqlarında birləşmək hüququnun pozulması.** Qanunvericilik işəgötürənlərə və əmək münasibətlərinin digər iştirakçılarına



həmkarlar ittifaqlarının əmək qanunvericiliyində və digər hüquqi-normativ aktlarda əks olunmuş ictimai nəzarət funksiyalarını yerinə yetirməsinə mane olmağa və onların qanuni və əsaslanmış tələblərinə əməl etməməyə yol vermir. Həmkarlar ittifaqlarına işçilərin qanunvericilikdə əks olunmuş hüquqlarını müdafiə etmək üçün şəraitin yaradılması ölkədə fəaliyyət göstərən bütün təsərrüfat subyektləri, o cümlədən xarici şirkətlər üçün öhdəlik kimi qoyulmuşdur. Buna baxmayaraq xarici neft şirkətlərində bu hüquqların həyata keçirilməsinə ciddi maneələr törədilir. İşçilərin həmkarlar ittifaqlarına daxil olmayacağı ilə bağlı şifahi öhdəlik götürməyə məcbur edirlər. Bu 19-cu əsrdə bəzi qərb dövlətlərində və ABŞ-da tətbiq olunan və "sarı öhdəlik" adlanan yazılı öhdəliyin müasir formasıdır.

### 2.2. Məcburi əmək qurbanları üçün yardımlar və təminatlar

Məcburi əmək insan alverinin forması olaraq tətbiq olunduqda qurbanlar üçün qanunvericiliklə bir sıra təminatlar nəzərdə tutulur. Əgər şəxs insan alverinin, o cümlədən məcburi əməyin qurbanı kimi tanınarsa ona tibbi, sosial, hüquqi, psixoloji, maddi yardımlar dövlət vəsaiti hesabına həyata keçirilir. Özləri və uşaqlarının yaşaması üçün yaxşı təminatı olan sığınacaq verilir və təhlükəsizliyi təmin olunur.

"İnsan alveinə qarşı mübarizə haqqında" Qanunun 20.1-ci maddəsinə görə, əcnəbi və ya

vətəndaşlığı olmayan şəxs insan alverindən zərər çəkmiş şəxs hesab olunduqda, onun barəsində 1 il müddətində Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartma tətbiq edilmir. Qurbanlar üçün normativ hüquqi aktlarla müəyyən olunan maddi yardımlar da nəzərdə tutulur.

Lakin qeyd olunmalıdır ki, məcburə əməyə cəlb edilən şəxsin azadlığı hər hansı formada məhdudlaşdırılmayıbsa onda bu təminatlar ona tətbiq olunmur. Bu hal sadəcə əmək qanunvericiliyinin pozulması halı sayılır və bu cür məcburi əməyə cəlb etməyə görə inzibati məsuliyyət nəzərdə tutulur.

### 2.3. Məcburi əməyin potensial qurbanları və onların məcburi əməyə cəlb edilməsinə şərait yaradan səbəblər

Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi məcburi əməyin qarşısının alınmasına yönələn inzibati, cinayət məsuliyyətini müəyyən edir və bir sıra qanunvericilik aktları və yaradılmış mexanizmlər üzərinə vəzifələr qoyur. Rəsmi hökumət strukturlarının hesabatlarında, həyata keçirdikləri monitorinqlərin nəticələrində ölkədə məcburi əməyin tətbiqi hallarına çox az hallarda təsadüf edildiyi bildirilsə də, əslində məcburi əmək halları vardır və onun potensial qurbanları əsasən aşağıdakı qruplardır.

*Əməkçi miqrantlar*

Azərbaycan Respublikasının Konstitusiyasının 69-cu maddəsinə görə "Əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olarkən, qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilə ilə başqa hal nəzərdə tutulmayıbsa, Azərbaycan Respublikasının vətəndaşları ilə bərabər bütün hüquqlardan istifadə edə bilər və bütün vəzifələri yerinə yetirməlidirlər. Azərbaycan Respublikası ərazisində daimi yaşayan və ya müvəqqəti qalan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və azadlıqları yalnız beynəlxalq hüquq normalarına və Azərbaycan Respublikasının qanunlarına uyğun olaraq məhdudlaşdırıla bilər".

Azərbaycan Respublikasının Əmək Məcəlləsi əcnəbilər və vətəndaşlığı olmayan şəxslər üçün əmək fəaliyyətini həyata keçirməkdə hər hansı ayrı-seçkilik müəyyən etməmişdir. Məcəllənin 13-cü maddəsinə görə, "Qanunla və ya Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələr ilə başqa hal nəzərdə tutulmayıbsa, əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olarkən Azərbaycan Respublikası vətəndaşları ilə bərabər bütün əmək hüquqlarından istifadə edə bilir və bu hüquqlara müvafiq olaraq vəzifələr daşıyırlar. Qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Əmək Məcəlləsi ilə və digər normativ hüquqi aktlarla nəzərdə tutulmuş əmək hüquqlarının məhdudlaşdırılması qadağandır".

Azərbaycan Respublikası yaxın bir neçə ilədək əsasən əməkçi miqrantların mənşə ölkəsi idi. Ölkənin əmək qabiliyyətli əhalisinin 40%-ə qədəri digər ölkələrdə, əsasən də Rusiya Federasiyasında əmək fəaliyyətini həyata keçirirdi. Bu dövrə qədər ölkədə əsasən qonşu Gürcüstandan ölkəyə gəlmiş etnik azərbaycanlılar, qismən isə Türkiyə və İran İslam Respublikasından gələn əməkçi miqrantlar əmək fəaliyyətini həyata keçirirdi. Son bir neçə ildə ölkə iqtisadiyyatının sürətli inkişafı nəticəsində Azərbaycan Respublikası əməkçi miqrantların təyinat ölkəsinə çevrilmişdir. 2009-cu ilin yanvar ayının əvvəlinə Azərbaycanda dünyanın 65 ölkəsindən dövlətin müvafiq orqanından fərdi icazə alaraq əmək fəaliyyətini həyata keçirən 4367 əməkçi miqrant qeydə alınmışdır. Sonrakı illərdə bu rəqəmdə artım və ya azalma halları qeydə alınsa da leqal şəraitdə əmək fəaliyyətini həyata keçirən əməkçi miqrantların sayı 10 000 nəfəri keçmir. Lakin əməkçi miqrantların əsas kütləsi tənzimlənməyən əmək miqrasiyasının iştirakçılarıdır. Bu baxımdan qeyri formal əmək sektorunda qeyri-leqal əmək fəaliyyəti ilə məşğul olduğu üçün rəsmi statistika real vəziyyəti əks etdirmir.

Qeyri-rəsmi statistikaya görə hazırda ölkədə tənzimlənməyən əmək bazarında on minlərlə (bunların əksəriyyətini qonşu Gürcüstandan gələn etnik azərbaycanlılar təşkil edir) əcnəbi və ya vətəndaşlığı olmayan şəxs əmək fəaliyyəti ilə məşğuldur.

[15]Azərbaycan Respublikasının Konstitusiyası. Maddə 69. mənbə. http://www.parlament.az/?/az/topcontent/2



Qeyri leqal əmək fəaliyyəti ilə məşğul olan əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqları ciddi surətdə pozulur. Bu baxımdan onlar məcburi əməyin potensial qurbanları hesab olunur.

Qeyri- formal əmək bazarının iştirakçıları

2011-ci ilin 1 yanvar tarixinə ölkədə iqtisadi fəal əhalinin sayı 1995-ci illə müqayisədə 25,9%, 2006-cı illə müqayisədə isə 6,7% artaraq 4587004 nəfər, məşğul əhalinin sayı müvafiq olaraq 19,8% və 8% artaraq 4 329 001 nəfər təşkil etmişdir .

Lakin Dövlət Statistika Komitəsinin rəsmi məlumatına görə İqtisadi fəaliyyət növləri üzrə muzdla işləyən işçilərin sayı 2010-cu ilin göstəricilərinə görə 1382900 nəfər təşkil etmişdir. Statistika Komitəsinin məlumatına görə 2011-ci ilin aprelindən 2012-ci ilin aprelinə qədər işçilərin sayı daha 50 000 nəfər artmışdır.

Beləliklə, rəqəmləri müqayisə etməklə müəyyən etmək mümkündür ki, ölkədə formal əmək sektorunda çalışan işçilərin sayı ümumi məşğul əhalinin göstəricilərindən əhəmiyyətli dərəcədə fərqlənir. Rəsmi əmək sektorunda işləyənlərin sayını 1432900 nəfər qəbul etsək, onda arada olan fərq 2896200 nəfər təşkil edəcəkdir.

Bu şəxslərin bir qismi fərdi sahibkarlıqla məşğul olanlar, mülki-hüquqi müqavilə əsasında işləyənlərdir. Lakin yerdə qalan əsas kütlə qeyri formal əmək bazarının iştirakçılarıdır. Qeyri formal əmək bazarı əsasən tikinti, xidmət (o cümlədən ticarət, iaşə, nəqliyyat və s. sferalar), ev qulluğunda çalışanlar, özüməşğul olan insanlar hesabına formalaşır. Bu insanlar məcburi əməyin potensial qurbanları hesab olunurlar.

**Qanunvericiliyin məcburi əməyə cəlb etməyə imkan verdiyi kateqoriyalar.** Azərbaycan Respublikasının Cinayət Məcəllәsində, Cəzaların İcrası Məcəlləsində və s. qanunvericilik aktlarında məcburi əməyin tətbiqini tənzimləyən və müəyyən edən müddəalar vardır. Məcburi əməyin tətbiqi cinayət qanunvericiliyində cəza növlərindən biridir. Bu baxımdan bu qanunların tətbiq olunduğu insanlar məcburi əməyin potensial qurbanlarıdır.

Digər potensial qurbanlar

Digər potensial qurbanlar sırasına dilənçiliyə cəlb edilən uşaqları, eləcə də ailə-fermer təsərrüfatlarına cəlb edilən uşaqları aid etmək olar.

[16]Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının həyata keçirilməsi üzrə 2011-2015-ci illər üçün Dövlət Proqramı. Mənbə:http://www.mlspp.gov.az/?id=5&sub_id=30&lang=1&dpid=68

## 2.4. Əməkçi miqrantların məcburi əməyin potensial qurbanı olmalarına şərait yaradan digər səbəblər

Qanunvericilik təkmil deyil və leqal əmək fəaliyyəti ilə məşğul olmaq üçün icazə prosedurları mürəkkəbdir. Əcnəbilərin və ya vətəndaşlığı olmayan şəxslərin ölkədəki hüquqi vəziyyətini tənzimləyən çoxsaylı qanunlar, qanunaltı aktlar bir çox hallarda təkmil deyildir və bir-biri ilə ziddiyyət təşkil edir. Əməkçi miqrantların fərdi icazə proseduru mürəkkəb olaraq qalmaqdadır. "Vahid pəncərə" sisteminin yaradılması da bu prosedurları sadələşdirmir. Fərdi icazənin alınması üçün nəzərdə tutulan rüsum 45 manatdan (təqribən 55 ABŞ dolları) 1000 manatadək (1200 ABŞ dollarından artıq) artırılmışdır. Bu isə ölkədə əməkçi miqrantların qeyri-leqal vəziyyətdən leqal vəziyyətə keçməsini mümkünsüz edir. Nəzərə almaq lazımdır ki, əməkçi miqrant ölkədə 5 il əmək fəaliyyəti həyata keçirə bilər və bunun üçün hər il fərdi icazə almalıdır. İcazənin alınması üçün xərcləri işəgötürən çəkməlidir. Lakin praktikada bir çox hallarda, bu xərclərə görə ödənişlər qeyri rəsmi olaraq işəgötürən tərəfindən əməkçi miqrantdan alınır. Bu isə o deməkdir ki, əməkçi miqrant ölkədə olduğu dövrdə 4000 manat (5 000 ABŞ dollarından artıq) fərdi icazənin alınması üçün pul xərcləməlidir. İndi ölkədə əməkçi miqrantın orta aylıq qazancının 100 ABŞ dollarından bir neçə yüz ABŞ dolları arasında dəyişdiyini nəzərə alsaq belə ödənişin edilməsi mümkünsüz görünür. Azərbaycan hökuməti əslində belə rüsum müəyyən etməklə əcnəbilərin və ya vətəndaşlığı olmayanların ölkədə əmək fəaliyyətini həyata keçirməsini ciddi şəkildə məhdudlaşdırmağa yönəlib.

Qeyri-formal sektor ölkənin əmək bazarının cox hissəsini (qeyri-rəsmi məlumatlara görə 60-70%) təşkil edir. Bu isə qeyri-formal sektorda əməkçi miqrantların əksəriyyət təşkil etməsinə şərait yaradır.

Əməkçi miqrantların əksəriyyəti qeyri formal əmək sektorunda cəmləşmişdir. Bu isə onların əməyinin mühafizəsi, layiqli məşğulluğunun təmin olunması, istirahət və iş rejiminin qanunvericiliyə uyğun olmasına mane olur. Bu da əməkçi miqrantları işəgötürəndən tam asılı vəziyyətə salır. Onların əmək və sosial hüquqlarının pozulmasına gətirib çıxarır.

Rəsmi statusu olmadan və qeyri leqal şəkildə ölkədə olan əməkçi miqrantların ailə üzvlərinin təhsilə və tibbi yardıma çıxışı olduqca mürəkkəbdir. Təhsil almaq və ya tibbə çıxış üçün qeydiyyatda olmaq mütləqdir.

Əməkçi miqrantların işəgötürənlərlə əmək mübahisələrini həll etməsi problemlidir. Normalara görə əməkçi miqrantla işəgötürən arasında əmək müqaviləsinə xitam verilərkən əməkçi miqrant dərhal ölkə hüdudlarını tərk etməlidir. Belə olan halda əməkçi miqrantın işəgötürənlə məhkəmə qaydasında əmək mübahisəsinə başlaması mümkünsüz olur. Ölkəni tərk etmiş şəxs ölkədə məhkəmə prosesində iştirak edə bilmir, vəkil tutmaq üçün isə bir qayda olaraq maliyyə imkanları olmur.



## 3. Məcburi əməyin qarşısının alınması istiqamətində təşkilatın ən uğurlu işləri

Təşkilatın məcburi əmək qurbanlarının hüquqlarının təmin olunmasına yönələn bir neçə məhkəmə işi, ölkədə məcburi əməyin, xüsusən də insan alveri elementləri olmayan və inzibati xəta sayılan məcburi əmək hallarının qurbanı olan şəxslərin müdafiəsinin çətin və mürəkkəb olmasını göstərdi. Problemlər prosessual qanunvericiliklə, məcburi əməyə dair vahid anlayışın olmaması ilə, qanuni və ya qeyri-qanuni yolla əmək fəaliyyətini həyata keçirən şəxslərin fərdi əmək mübahisəsinə başlamaq imkanlarının qanunvericiliklə məhdudlaşdırılması ilə bağlıdır.

Aşağıda təqdim etdiyimiz məhkəmə çəkişmələri ölkənin məhkəmə sisteminə bir sıra yeniliklər gətirmişdir. Lakin bu məhkəmə çəkişmələri həmçinin milli normaların tətbiqi zamanı məhkəmə müdafiəsinin effektiv təmin olunmasına yaranan əngəllərlə müşayət olunmuşdur.

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası Beynəlxalq Miqrasiya Təşkilatı ilə birlikdə son il yarım ərzində əcnəbi vətəndaşların aldadılaraq ölkəyə gətirilməsi və məcburi əməyə cəlb edilməsi halları ilə bağlı bir sıra faktlar qeydə almış və qurbanların hüquqlarının təmin olunması ilə bağlı onları məhkəmədə təmsil etmiş və müdafiəsini təmin etmişdir.

Türk şirkəti olan İstanbul Çarşı İmport & Exsport Ltd və onun subkontraktoru Levha Metal İnşaat Sanaye və Tic. LTD, ŞTİ Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində inşa edilməkdə olan (Tikinti üzrə podratçı "İntepe MTK") işgüzar mərkəzdə montaj işlərini yerinə yetirmək üçün 13 nəfər Türkiyə vətəndaşını işə cəlb etmişdir. Həmin şəxslər 29 sentyabr 2010-cu il tarixində Bakı şəhərinə gələrək əmək fəaliyyətinə başlamışdır. Türkiyədə olarkən onların hər birinə bir ay üçün 1300-1500 ABŞ Dolları miqdarında əmək haqqı ödəniləcəyi vəd edilmişdir. Xüsusi riskli və ağır əmək şəraitində işləmələrinə baxmayaraq iki ay ərzində onlarla əmək müqaviləsi bağlanmamış, onlar nə sosial, nə də tibbi sığortaya cəlb olunmamışdır. Bu qrupa əmək haqqı ödənilmədiyi üçün onlar etiraz etmiş və bu səbəbdən şirkət onları iş yerindən və yataqxanadan qovmuşdur. Beynəlxalq Miqrasiya Təşkilatının sığınacağında qaldıqdan sonra onların ölkədə qalma müddətləri bitdiyi üçün Türkiyəyə göndərilmişlər.

Daha bir qrup isə 12 nəfərdən ibarət olmuşdur.

İşlədikləri 3 ay ərzində 2010-cu ilin dekabr ayının 28-nə qədər onların hər birinə üst-üstə ödənilməli olan 4500 ABŞ Dollardan artıq məbləğdən yalnız 700 ABŞ dolları ödənilmişdir.

Halbuki onlar həftənin 6 günü 9 saat və hər ayın iki bazar günü də işləmişdilər.

Ümumiyyətlə onlar statuslarına görə əməkçi miqrant olsalar da icra hakimiyyəti orqanından onlar üçün qanunvericilikdə nəzərdə tutulmuş fərdi

icazə alınmamışdır.

2011-ci ilin yanvar ayının 10-dan sonra onların Azərbaycan Respublikasında 30 gündən artıq yaşamaq istəyən əcnəbinin qeydiyyata alınması haqqında vəsiqələrinin müddəti bitmişdir.

Bu ərəfədə həmin şəxslər Beynəlxalq Miqrasiya Təşkilatına müraciət etmiş, sonuncu isə Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası vasitəsi ilə fəhlələrin adından məhkəməyə iddia ərizəsi təqdim etmişdir. Bundan sonra şirkət işçiləri bir yerə toplayaraq onları şirkətə dair heç bir şikayət olmamasına dair iltizam yazmağa məcbur edilmişlər. Bu zaman onların pasportları da əllərindən alınmışdır. Daha sonra ikinci qrupun üzvlərinə əmək haqları ödənilərək Türkiyəyə göndərilmişlər.

Lakin birinci qrupa (13 nəfər) hər hansı ödəniş edilməmişdir. Həmin şəxslərin adından Bakı şəhər Səbayel rayon məhkəməsinə iki məhkəmə iddiası təqdim edilmişdir: 11 nəfər üçün bir iddia və daha iki nəfər üçün ayrı bir iddia. Buna səbəb 13 nəfərdən iki nəfərin ölkədə qalma müddətinin bitməsi və bu baxımdan etibarnamə vermək imkanının olmaması olmuşdur. Sonradan həmin şəxslər Türkiyədən etibarnamə göndərmiş və bu səbəbdən onların adından ayrı iddia verilmişdir.

Məcburi əməyə cəlb olunanların əmək haqlarının məhkəmə vasitəsi ilə təmin olunması ilə bağlı iki iddia üzrə məhkəmə prosesi 6 aya yaxın davam etsə də Bakı şəhər Səbayel rayon məhkəməsinin hakimləri iddianı təmin etməmişdir. Hakim hətta 6 ay ərzində cavabdeh şirkətin məhkəməyə gəlməsini belə təmin edə bilməmişdir.

Lakin Bakı şəhər Apellyasiya Məhkəməsinin Mülki işlər üzrə məhkəmə kollegiyası hər iki iddia üzrə Bakı şəhər Səbayel rayon Məhkəməsinin qətnamələrini (İddiaların biri üzrə məhkəmə prosesinə sədrliyi Apellyasiya məhkəməsinin hakimi Saqi Məmmədov, digər iddia üzrə isə Mədinə Bağırova etmişdir) rədd etmiş və İstanbul Çarşı İmport & Exsport Ltd şirkətinə 13 nəfər Türkiyə vətəndaşı olan əməkçi miqranta kompensasiyaların ödənilməsinə dair Qətnamə çıxarmışdır. Bu Qətnamələr ölkənin məhkəmə praktikasında yenilik etmişdir. Qətnamələrin qəbul olunmasında Azərbaycan Respublikası Ali Məhkəməsinin məhkəmələrə göndərdiyi 31.01.2011-ci il tarixli 233\11 saylı tövsiyəsi mühüm rol oynamışdır. Ali məhkəmə sədrinin tövsiyyə məktubunda göstərilir ki, "Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra Dünya Birliyinin tamhüquqlu üzvü kimi, ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul edərək,demokratik,hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf yolu seçmiş,qısa müddət ərzində bir çox beynəlxalq konvensiyalara,o cümlədən 11 dekabr 1998-ci il tarixində Birləşmiş Millətlər Təşkilatının "Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının qorunması haqqında" 1990-cı il 18 dekabr tarixli Beynəlxalq Konvensiyaya qoşulmuşdur. Respublikamız Konvensiyanın müddəalarının həyata keçirilməsi sahəsində üzərinə götürdüyü öhdəliklərin yerinə yetirilməsini davam etdirərək, miqrasiya sahəsində qanunvericiliyi beynəlxalq normalara



və müasir dövrün tələblərinə uyğun olaraq təkmilləşdirilmiş, bu məsələ ilə bağlı əmək miqrasiyası proseslərinin hüquqi,iqtisadi və sosial əsaslarını müəyyən edən,əmək miqrasiyası sahəsində yaranan münasibətləri tənzimləyən "Əmək miqrasiyası haqqında" və sair Qanunlar qəbul edilmişdir". Tövsiyə məktubunda daha sonra göstərilir ki, "Qeyd olunanları nəzərə alaraq miqrantların hüquqlarının və qanuni mənafelərinin müdafiəsi ilə bağlı müraciətlərə və işlərə qanunla müəyyən edilmiş müddətdə, Birləşmiş Millətlər Təşkilatının "Bütün əməkçi miqrantların və onların ailə üzvlərinin hüquqlarının qorunması haqqında" Beynəlxalq Konvensiyanın müddəalarını rəhbər tutmaqla,qüvvədə olan qanunların tələblərinə ciddi əməl etməklə baxılmasını təmin etmənizi,qeyri-qanuni miqrasiyanın qarşısının alınması məqsədi ilə qanuni tədbirlər görməyiniz təklif olunur".

Beləliklə, ölkədə əməkçi miqrantların məhkəmələr vasitəsi ilə öz hüquqlarını bərpa etmək sahəsində məhkəmə praktikası yaranmışdır. Hər iki iş üzrə cavabdeh tərəf Ali Məhkəməyə kassasiya qaydasında şikayət təqdim etmişdir.

Ali Məhkəmədə eyni iş üzrə iki məhkəmə işinə baxan məhkəmə kollegiyaları müxtəlif qərarlar qəbul etmişdir. Bir halda Ali Məhkəmənin mülki işlər kollegiyası kassasiya şikayətini rədd etmiş və Bakı Apellyasiya Məhkəməsinin qətnaməsini qüvvədə saxlamış, digər iş üzrə isə məhkəmə kollegiyası Bakı Apellyasiya Məhkəməsinin qətnaməsini ləğv edərək işi yenidən baxılmaq üçün Bakı Apellyasiya Məhkəməsinə yeni baxış üçün qaytarmışdır.

Həyata keçirilən iki məhkəmə prosesində bi sira ciddi problemlər meydana çıxmışdır. Bunlar əsasən aşağıdakılardır:

•Əcnəbi və ya vətəndaşlığı olmayan şəxs muzdlu əməyə qanuni əsaslarla cəlb edildikdə belə, onunla əmək müqaviləsi ləğv ediləndən 48 saat sonra ölkəni tərk etməlidir. Belə ki, bu zaman əcnəbinin əmək fəaliyyətinə hüquqi əsas yaradan fərdi icazə də qüvvədən düşür və onun ölkədə olma hüquqlarına xitam verilir. Belə olan halda onların məhkəməyə faktiki çıxış imkanları çox çətin və ya praktik baxımdan mümkün olmur.

•Tənzimlənməyən əmək miqrasiyasının iştirakçısı olan şəxslərlə vəziyyət daha mürəkkəb olur. Belə ki, onlar əmək fəaliyyətini qanunsuz həyata keçirdikləri üçün müvafiq dövlət orqanları tərəfindən yaxalanan zaman ölkə ərazisindən məcburi çıxarılırlar. Belə şəxslər məcburi əməyin qurbanı olsalar belə bunu sübut etməkdə çətinlik çəkirlər. Yuxarıda göstərilən məhkəmə təcrübəsində məhz belə olmuşdur.

•Ölkədə qanuni əsaslarla olmayan qurbanlar hüquqlarının müdafiəsi üçün hər hansı prosessual hərəkətlər edə bilmirlər. Onlar nümayəndələri və ya vəkil vasitəsi ilə məhkəməyə müraciət edə bilmirlər, belə ki, Azərbaycan Respublikasında daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin və əcnəbilərin xüsusi sənədləri haqqında Əsasnaməyə görə "Azərbaycan Respublikasının ərazisində daimi yaşayan vətəndaşlığı olmayan şəxslərin

şəxsiyyətini təsdiq edən sənəd Azərbaycan Respublikası qanunvericiliyi ilə müəyyən edilmiş qaydada və formada onlara verilən şəxsiyyət vəsiqəsidir"

Eyni zamanda Azərbaycan Respublikasının ərazisində 30 gündən artıq yaşamaq istəyən əcnəbi yaşayış yeri üzrə qeydiyyata alınmaqdan ötrü yaşayış yerinə gəldiyi vaxtdan 3 gün ərzində müvafiq ərazi polis idarəsinin və ya şöbəsinin qeydiyyat və şəxsiyyət vəsiqəsi xidmətinə müraciət etməlidir. Müvafiq sənədləri təqdim etdikdən sonra ona müəyyən olunmuş müddət ərzində yaşayış yeri üzrə qeydiyyata alınması barədə qeydiyyat vəsiqəsi verilir. Belə sənədləri olmayan şəxslərin vəkillə müqavilə bağlamaq və ya notariat qaydasında nümayəndəyə etibarnamə vermək imkanı olmur. Müddəti bitmiş vəsiqələrlə də bu hərəkətləri etmək mümkün deyildir.

Məcburi əməyi tətbiq edənlər bu hallardan öz məqsədləri üçün istifadə edirlər. Nəticədə məcburi əmək qurbanı olan əcnəbi hüquqlarını bərpa etmək imkanını praktik olaraq itirir. Onun yalnız öz mənşə ölkəsinə qayıtdıqdan sonra etbarnamə vermək imkanı olur ki, belə etibarnamələrin leqallaşdırılması mürəkkəb prosedurlar tələb edir.

Yuxarıda göstərilən məhkəmə işlərindən biri məhz bu səbəbdən davam edə bilməmişdir. Belə ki, etibarnamənin müddəti bitmiş və yeni etibarnamələrin verilməsi və leqallaşdırılması mümkün olmamışdır.

**Məhkəmə qərarlarının icrası problemi**

Yuxarıda göstərilən məhkəmə işlərindən biri tam başa çatmışdır. Ali Məhkəmənin Mülki işlər üzrə kollegiyası Bakı Apellyasiya Məhkəməsinin qətnaməsini qüvvədə saxlamış və məcburi əməyin qurbanı olan şəxslərə onları məcburi əməyə cəlb edən şirkət tərəfindən kompensasiyaların verilməsi üçün qətnaməni icraya yönəltmişdir. Bu zaman növbəti problem ortaya çıxmışdır. Həmin şəxslərin rəsmi təsdiq olunmuş bank hesablarına dair sənəd icra idarəsinə verilməlidir və ya həmin şəxslər kompensasiyalarını ala bilmək üçün Azərbaycan Respublikasında müəyyən etdikləri şəxsə etibarnamə verməlidirlər. Nəticədə məhkəmə qərarı bir ilə yaxındır ki, icra oluna bilmir.

Göstərilən məhkəmə nümunələri Beynəlxalq Miqrasiya Təşkilatı ilə Azərbaycanda fəaliyyət göstərən ixtisaslaşmış QHT-nin (VƏHML) uzunmüddətli səyləri və maliyyə dəstəyi nəticəsində müəyyən müsbət nəticələrə gətirmişdir. Məhkəmə qərarının tam icrası da bu təşkilatların iştirakı olmadan mümkün olmayacaq.

Lakin bütün qurbanların beynəlxalq təşkilatın yardımından bəhrələnmək imkanı yoxdur və bu baxımdan yalnız cüzi qazanc məqsədi ilə ölkəyə gəlmiş və məcburi əməyin qurbanı olmuş şəxsin hüquqlarını kənar yardımlar olmadan təmin etmək imkanları faktiki olaraq həm hüquqi, həm də praktiki baxımdan olduqca mürəkkəbdir.



**Yücel Güney Durmuş "Şimal Beton" MMC və Bank Respublikaya qarşı**

Türkiyə vətəndaşı Yücel Guney Durmuş Beynəlxalq Miqrasiya Təşkilatına müraciət edərək muzdlu əmək fəaliyyətinə cəlb edildiyi iş yerində uzun müddət əmək haqqı ala bilmədiyini bildirmişdir. BMqT- hüquqi yardım göstərilmək üçün onu Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasına göndərmişdir.

Vətəndaşların Əmək Hüquqlarını Mudafiə Liqası tərəfindən Yücel Guney Durmuş üçün iddia hazırlanaraq zəruri sənədlər əlavə edilməklə Sumqayıt Şəhər məhkəməsinə təqdim olunmuşdır.

Türkiyə Cümhuriyyəti vətəndaşı Yücel Güney Durmuş 01.06.2007-ci ildən AZ-Saks Beton LTD" MMC-nin şirkəti ilə baglanmış əmək müqaviləsinə əsasən 31.12.2011-ci ilə qədər mikser qurğu operatoru peşəsində işləmişdir. Ona işlədiyi müddətdə hər ay 1400 (min dörd yüz) manat əmək haqqı verilmişdir. Amma sonradan yəni, 2011- ci ilin yanvar ayından başlayaraq dekabr 2011-ci ilə qədər 12 (on iki) o aylıq əmək haqqını ala bilməmişdir. Əsas ödənişlər üzrə işlədiyi şirkətin qeyd olunan müddət üçün borcu ümumilikdə 16800 (on altı min səkkiz yuz ) manat təşkil edir. (1400 ман. X 12 ay=16800 man) Dəfələrlə etdiyi müraciətlərə baxmayaraq İşəgötürən tərəfindən əmək haqqı ödənilməmişdir. Onunla əmək müqaviləsi bağlanmamış və o, aldadılaraq işlədilmişdir.

Bununla bağlı, VƏHML tərəfindən Sumqayıt şəhər məhkəməsinə iddia ərizəsi hazırlanaraq təqdim olunmuş və Yücel Güneyin məhkəmə müdafiəsi təşkil olunmuşdur.

Sumqayıt şəhər məhkəməsində 7 məhkəmə iclası keçirilmişdir. Sumqayıt şəhər məhkəməsinin qətnaməsi ilə əmək haqqının üzürsüz səbəbə görə ödənilməməsinə görə cərimə də (3 500 manat) daxil olmaqla Yücel Güney Durmuşa üst-üstə 20 300 manat kompensasiyanın ödənilməsi qət edilmişdir.

Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqasına, həmçinin Bakı şəhərində tikilməkdə olan "Flame Towers" işgüzar mərkəzində məcburi əməyə cəlb edilən fəhlələr də müraciət etmişdir. Türkiyə vətəndaşları olan bir qrup fəhlə bu halda da aldadılaraq Bakı şəhərinə gətirilmiş, lakin onlara vəd olunan yaşayış şəraiti yaradılmamış və vəd edilən əmək haqqı ödənilməmişdir. Onlara ümümi fərdi icazə alınmamış, əmək müqaviləsi və ya hər hansı rəsmi sənəd olmamışdır. Fəhlələr etiraz etdikdə isə dərhal işdən qovulmuş və Türkiyəyə yola salınmışlar.

Məcburi əməyə cəlb edilmiş şəxslərin hüquqlarının məhkəmə təminatı, hüquqi müdafiə vasitələrindən effektiv istifadə hüququnun təmin olunması ilə bağlı bir sıra problemlər mıvcuddur.

Məcburi əməyə cəlb olunan qurbanların hüquqi baxımdan məhkəməyə çıxışı olsa da faktiki baxımdan bu hüququn həyata keçirilməsi olduqca mürəkkəbdir və ya bir çox hallarda ümumiyyətlə mümkün deyildir.

Məcburi əməyə cəlb edən qurumlar müxtəlif vasitə və üsullardan istifadə edirlər ki, cəlb etdikləri işçilərin məhkəməyə müraciəti zamanı hər hansı sübutları olmasın.

Belə işçilərlə:

•Əmək münasibətləri hər hansı formada rəsmiləşdirilmir;

•Belə işçilərə aldıqları əmək haqqına görə hər hansı sənəd verilmir;

•İş yerlərinə daxil olmaq üçün verilən buraxılış sənədində hər hansı rekvizit olmur;

•İş yerlərində şəkil çəkilməsinə (ümumiyyətlə şəxsin həmin müəssisədə işləməsini nümayiş etdirə biləcək hər hansı bir sübutun toplanmasına) yol verilmir.

Əcnəbi və ya vətəndaşlığı olmayan və ölkədə əmək fəaliyyətini həyata keçirən miqrantlar üçün məhkəməyə çıxış daha mürəkkəb və bir çox hallarda ümumiyyətlə mümkün deyildir.

Əmək Miqrasiyası Haqqında Qanunun 8-ci maddəsinə görə "Fərdi icazənin müddəti bitdikdə və ya əmək müqaviləsi pozulduqda əməkçi miqrant Azərbaycan Respublikasını tərk etməlidir. Əmək müqaviləsi əməkçi miqrant-dan asılı olmayan səbəblərdən vaxtından əvvəl pozulduqda əməkçi miqrantın və onun ailə üzvlərinin geriyə qayıtması ilə bağlı xərclər onu işə qəbul edən hüquqi və ya fiziki şəxs tərəfindən ödənilir. Əməkçi miqrant bu Qanunun müddəaları pozulmaqla Azərbaycan Respublikasında haqqı ödənilən əmək fəaliyyəti ilə məşğul olduqda Azərbaycan Respublikasından çıxarılır və əməkçi miqrantın və onun ailə üzvlərinin geriyə qayıtması ilə bağlı xərclər onu işə qəbul edən hüquqi və ya fiziki şəxs tərəfindən ödənilir".

Beləliklə, ölkədə əmək fəaliyyətini həyata keçirən əcnəbi fərdi icazəsi olduqda və əmək fəaliyyətini tam qanuni əsaslarla yerinə yetirdikdə belə, onunla bağlanmış əmək müqaviləsi ləğv olunan kimi ölkəni tərk etməlidir. Bu isə əməkçi miqranta fərdi əmək mübahisəsinə başlamaq üçün məhkəməyə müraciət etməyə imkan vermir. Bu haldan işəgötürənlər sui-istifadə edirlər. Əməkçi miqrantı iş vaxtından artıq işlərə cəlb edirlər, onlara əmək haqqını tam şəkildə vermirlər, onun əmək funksiyasına aid olmayan işləri (xidmətləri) yerinə yetirməyə məcbur edirlər. Əməkçi miqrantın məhkəməyə faktiki çıxış imkanının olmaması, hətta o qanuni əsaslarla muzdlu əməyə cəlb edildikdə belə məcburi əməyə cəlb olunmasına gətirir.

Əgər əcnəbi və ya vətəndaşlığı olmayan şəxs qeyri-leqal əmək fəaliyyəti ilə məşğuldursa, onda onun məhkəməyə cıxış imkanı ümümiyyətlə çox çətin, bəzən isə mümkünsüz olur.

Belə şəxslər ölkədən deportasiya oluna bilir. Belə olan halda məcburi əməyə cəlb edilən və ya əmək hüquqları pozularaq əmək müqaviləsi ləğv edilən əcnəbi və ya vətəndaşlığı olmayan şəxsin məhkəməyə çıxışını mürəkkəbləşdirən səbəblər aşağıdakılardır:

•"Əmək miqrasiyası haqqında" Qanunun 8-ci maddəsinə görə əmək müqaviləsinin ləğvi, əməkçi miqranta verilən fərdi icazənin ləğvinə gətirir. Belə olan halda əməkçi miqrant ölkəni tərk etməlidir. O təyinat ölkəsində qalaraq məhkəməyə iddia vermək imkanını itirir.

•Ölkəni tərk edən və ya deportasiya olunan əməkçi miqrant bir qayda olaraq



qısa müddət ərzində vəkillə müqavilə bağlamaq imkanında olmur. Hətta vəkillə müqavilə bağlasa da, sonrakı məhkəmə pillələrində yenidən ölkəyə qayıdaraq yeni müqavilə bağlamaq imkanına malik olmur. Məhkəmədə hüquqların müdafiəsini təmin etmək, məhkəməyə müraciət etmək üçün etibarnamə vermək imkanı da məhdud olur.

•Ölkədə qeyri-leqal vəziyyətdə olan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxsin ümumiyyətlə etibarnamə vermək imkanı yoxdur. Çünki onun etibarnaməsinin notariat qaydasında təsdiqi üçün Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti tərəfindən verilən müvəqqəti şəxsiyyət vəsiqəsi olmalıdır. Hətta belə vəsiqələr olduqda belə onun müddəti keçmişdirsə notariat orqanları etibarnamələri təsdiq etmir.

İstanbul Çarşı İmport & Exsport Ltd şirkətinə qarşı həyata keçirilən məhkəmə işini təşkilatın məcburi əməyin tətbiqinin qurbanı olmuş səxslərin hüquqlarının təmin olunması istiqamətində uğurlu nəticə hesab etmək olar. Belə ki, bu məhkəmə işinin nəticələri ölkənin məhkəmə praktikasında bir sıra yeniliklərlə özünü göstərmişdir.

•Bu məhkəmə qərarı yeni məhkəmə praktikası yaratdı. Ölkənin məhkəmə praktikasında ilk dəfə olaraq qeyri leqal əmək fəaliyyətinə cəlb olunmuş əcnəbilər məhkəmə vasitəsi ilə hüquqlarını təmin edə bildilər;

•Məhkəmə qərarı Azərbaycanda əməkçi miqrantın məhkəməyə faktiki çıxış imkanını göstərdi. Məhkəməyə çıxış çətin, məhkəmə prosesi uzun müddət davam etsə də nəticə onu göstərdi ki, məcburi əməyin qurbanı olan şəxslər məhkəmə mexanizmlərindən istifadə edə bilər.

•Məhkəmə qərarı BMT-nin İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitəsinin və BMT-nin Əməkçi Miqrantlar və Onların Ailə üzvlərinin hüquqlarının Müdafiəsi üzrə Komitəsinin Azərbaycan dövlətinə irəli sürdüyü iradda göstərilən problemin (əmək miqrantlarının məhkəməyə faktiki çıxış imkanının olmamasına dair) qismən həllinə nail olunduğunu göstərdi;

•Məcburu əməyi tətbiq edən şirkət belə praktikaya son qoydu;

•Sonrakı hallarda fəhlələrə vəd olunan əmək haqqı tam həcmdə ödəndi.

Uzun müddət davam edən məhkəmə prosesi VƏHML-in bu istiqamətdə yeni işləri üçün əsas yaratdı. Belə ki:

•Təşkilat məhkəmə prosesində qanunvericiliyin və beynəlxalq normaların tətbiqinə əngəl yaradan halları (qanunların özü və onların tətbiqi praktikası) müəyyən etməyə imkan verdi.

•Təşkilat məhkəmə prosesi zamanı müdafiənin təmin olunmasının çətinliklərinin bağlı olduğu səbəbləri müəyyən etdi.

**Təmin olunmayan məhkəmə işləri və səbəbləri**

Ölkə məhkəmələrində məcburi əməyə cəlb olunan qurbanların, həmçinin əməkçi miqrantların hüquqlarının məhkəmələr vasitəsi ilə təmin olunması praktikası ilk dəfə Beynəlxalq Miqrasiya Təşkilatının sifarişi ilə Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası tərəfindən həyata keçirilən "Sedat Üstüntaş

və Tezcan İstək İstanbul Çarşı İmport & Exsport Ltd şirkətinə qarşı" işində yaranmışdır. Bir il yarıma qədər davam edən məhkəmə prosesi 30 yanvar 2012-ci ildə Ali Məhkəmənin Mülki İşlər Üzrə Məhkəmə Kollegiyası tərəfindən qəbul olunan qərarla başa çatmışdır. Ali Məhkəmənin Mülki işlər üzrə məhkəmə kollegiyası Bakı Apellyasiya Məhkəməsinin 28 sentyabr 2011-ci il tarixli qətnaməsini qüvvədə saxlamış və cavabdehin kassasiya şikayətini rədd etmişdir. Məhkəmənin qərarı ilə qurbanlara pul kompensasiyası müəyyən olunmuşdur. Lakin bu prosesdən əvvəl həyata keçirilən bütün məhkəmə prosesləri uğursuz nəticələnmişdir. Məhkəmələr tərəfindən iddiaların təmin olunmamasının əsas səbəblərindən biri zəruri sübutların təqdim olunmamasıdır. Yuxarıda qeyd olunduğu kimi, məcburi əməyə cəlb edən tərəflər maksimum səy göstərir ki, hər hansı sübutlar olmasın. Mülki proseslərdə sübut etmə yükünün tərəflərin üzərinə düşdüyünü nəzərə alaraq məhkəmə iddiaçı tərəfdən sübutlür tələb edir. Məsələn, 11 nəfər türk fəhləsi ilə bağlı İstanbul Çarşı İmport & Exsport Ltd-yə qarşı verilmiş iddia Bakı Apellyasiya Məhkəməsi tərəfindən təmin olunsa da Ali Məhkəmənin Mülki işlər üzrə kollegiyası tələb olunan ödənilməmiş əmək haqqının miqdarına dair sənədin olmamasını əsas götürərək Bakı Apellyasiya Məhkəməsinin qətnaməsini ləğv etmişdir.

Bu baxımdan BMT-nin Əməkçi Miqrantlar və onların ailə üzvlərinin müdafiəsi üzrə Komitəsi 20 aprel-01 may 2009-cu il tarixində keçirdiyi 10-cu sessiyasında Azərbaycan Hökumətinin ilk hesabatına və digər məlumatlara baxaraq dövlətə bir sıra qeyd-şərtlər irəli sürmüşdür. Qeyd- şərtlərdən biri də hüquq müdafiəsi vasitələrindən effektiv istifadə hüququnun təmin olunmaması ilə bağlıdır. Komitənin qeyd şərtlərində göstərilir ki, "Komitə hökumətin əməkçi miqrantların və onların ailə üzvlərinin məhkəmələrə çıxış imkanlarının olması ilə bağlı məlumatını nəzərə almaqla, narahatçılıq ifadə edir ki, bir çox hallarda statuslarının tənzimlənməsi ilə bağlı sənədlərə malik olsalar belə, onların özlərini müdafiə üçün inzibati və məhkəmə mexanizmlərinin olması barədə məlumatlarının olmaması, həmçinin işdən qovulacaqları və ölkədən çıxarılacaqları səbəbindən məhkəmələrə müraciət etmirlər".

Bu məsələ ilə bağlı Komitə Azərbaycan dövlətinə çağırış etmişdir ki, "Əməkçi miqrantların mövcud inzibati və məhkəmə mexanizmləri barədə məlumatlılığının artırılması və onların şikayətlərinə ən effektiv şəkildə baxılmasını təmin etsin. Komitə tövsiyyə edir ki, əməkçi miqrantlar və onların ailə üzvləri, o cümlədən qanuni statusu olmayan əməkçi miqrantlar da şikayət vermək və məhkəməyə iddia vermək, o cümlədən əmək mübahisələri ilə bağlı iddia vermək sahəsində vətəndaşlarla bərabər hüquqlara malik olsunlar".

BMT Komitəsini ciddi narahat edən məsələlərdən biri də yuxarıda qeyd etdiyimiz kimi ölkədən çıxarılması nəzərdə tutulan əməkçi miqrantların inzibati və məhkəmə şikayəti vermək üçün kifayət qədər vaxtının olmamasıdır. İşəgötürən tərəfindən qanunsuz işdən çıxarılan əməkçi miqrant fərdi əmək mübahisəsinə başlamaq üçün və mübahisə həll olunana qədər ölkədə qal-



maq üçün hər hansı hüquqa malik deyildir.

Komitənin bu məhdudiyyətini aradan qaldırmaq üçün verdiyi tövsiyyə indiyədək nəzərə alınmamışdır.

Əməkçi miqrant yalnız dolayı yolla, yəni onun deportasiya olunması ilə bağlı inzibati-iqtisadi məhkəmələrə şikayət verə bilər ki, əslində bu da formal xarakter daşıyır və belə praktika yox dərəcəsindədir.

Başqa bir problem isə məcburi əməyə cəlb olunan şəxsin öz hüquqlarını təmin etmək üçün zəruri vəsaitə malik olmamasıdır. Bu şəxslərin bir qayda olaraq nəinki yüksək keyfiyyətli hüquqi yardım almaq üçün ödəniş etmək, həmçinin yaşamaq üçün minimal tələbatını ödəməyə vəsaiti olmur. Milli qanunvericilik yalnız insan alverinin qurbanı kimi tanınan şəxslərə yardım edilməsi və onun müvəqqəti yaşayışının təmin edilməsi ilə bağlı tədbirləri nəzərdə tutur.

Digər bir problem isə ölkədə məcburi əməklə bağlı müdafiənin təşkil edilməsi sahəsində təcrübəsi olan vəkillərin yox dərəcəsində olması ilə əlaqədardır.

Məcburi əməyin qarşısının alınmasına yönələn effektiv tədbirlərdən biri də məlumatlılığın, maariflәndirmə işinin artırılmasıdır. BMT Komitəsinin hökumətə verdiyi tövsiyəyə baxmayaraq hökumət miqrantların və məcburi əməyin potensial qurbanlarının məlumatlandırılması və maarifləndirilməsi istiqamətində kifayət qədər tədbirlər həyata keçirmir. Yalnız insan alverinə qarşı mübarizə tədbirləri çərçivəsində hökumət müəyyən məlumatlandırıcı və maarifləndirici fəaliyyət həyata keçirir.

Beynəlxalq donor təşkilatları və yerli QHT-lər bu istiqamətdə müəyyən səylər göstərir. Lakin bu səylər də mövcud tələbatı ödəmək üçün yetərli deyil. Məcburi əməyin qarşısının alınmasına yönəldilmiş tədbirlər sırasında əmək müfəttişlərinin maarifləndirilməsi istiqamətində bir neçə təlimlər istisna olmaqla nəzarət orqanlarının imkanlarının artırılmasına yönələn ciddi tədbirlər yoxdur. Xüsusən regionlarda informasiyalara çıxış və hüquqi yardım almaq ciddi problemdir.

## TÖVSIYƏLƏR

1.Cinayət Məcəllәsindən, Əmək Məcəllәsindən və digər normativ hüquqi aktlardan məcburi əməyə şərait yaradan müddəalar çıxarılmalıdır. Məcburi əməyin cəza növü kimi qanunvericilikdə qalması Azərbaycan Respublikasının beynəlxalq öhdəliklərinə ziddir; Əmək Məcəllәsinin 17-ci maddəsi məcburi əməyi qadağan etsə də Məcəllənin 60-cı maddəsinə əsasən, işəgötürənlər işçinin razılığı olmadan onları əmək funksiyalarına aidiyyati olmayan işlərə bir ay müddətində cəlb edə bilərlər. Eyni zamanda maddədə işəgötürənin bu halı il ərzində neçə dəfə tətbiq edə biləcəyi göstərilmir. Belə olan halda işəgötürən işçinin razılığı olmadan onu bir ay müddətində başqa işlərə cəlb edə bilər və bu müddət bitdikdən bir neçə gün sonra işçi əmək funksiyasını yerinə yetirdikdə işəgötürən yenidən işçini bir ay müddətində başqa işlərə cəlb edə bilər. Beləliklə, işəgötürən bu qaydanı tətbiq etməklə işçiyə əmək funksiyasına aid olmayan işləri gördürə bilər. Bu hal beynəlxalq standartlara görə məcburi əmək kimi təsnif oluna bilər. Bu halda isə Konstitusiyanın 35-ci maddəsinin 3-cü bəndində əks olunmuş hüquq pozulur. 60-cı maddə məcburi əməyə cəlb etmək üçün işəgötürənə şərait yaradır. Maddədə olan boşluq isə işəgötürənə bu halı təkrarlamağa imkan verir . "Dövlət qulluğu haqqında" Qanunun 30.2. maddəsinə görə "Qulluq üçün zəruri olduqda dövlət orqanının rəhbəri müstəsna hallarda iş vaxtını ayda əvəzi ödənilmədən 5 saata qədər artıra bilər." Qanunun bu müddəası işəgötürənə imkan verir ki, il ərzində dövlət qulluqçusunu haqqı ödənilmədən 60 saata qədər (bir yarım iş həftəsi) işlərə cəlb etsin. Bu isə ölkə Konstitusiyasının 35-ci maddəsinin 3-cü və 37-ci maddəsinin 2-ci hissəsinə uyğun gəlmir. Qanunda belə müddəanın mövcudluğu məcburi əməyin tətbiqinə şərait yaradır. Hüquq mühafizəsi ilə məşğul olan bir sıra dövlət orqanlarını sahə üzrə normativ aktlarında və daxili nizam qaydalarında da məcburi əməyə şərait yaradan müddəalar vardır.

2.Məcburi əməyin insan alverinə səbəb olmayan formalarının qanunvericilikdə dəqiq anlayışı verilməlidir. Əmək Məcəllәsində məcburi əməyə cəlb etmə növləri dəqiq sadalanmalı və İnzibati Xətalar Məcəllәsində məcburi əmək formalarının tətbiqi üçün məsuliyyət və cərimələr yenidən müəyyən olunmalıdır;

3.Məcburi əmək hallarının müəyyən olunması üçün insan alverinə qarşı mübarizə aparan polis orqanının əməkdaşları və əmək müfəttişləri üçün xüsusi qaydalar (indikatorlar) hazırlanmalıdır; İnsan alverinin qurbanlarının müəyyən olunması üçün kriteriyalar müəyyən olunmuşdur. Azərbaycan Respublikasının Nazirlər Kabinetinin № 131 saylı, 3 sentyabr 2009-cu il tarixli qərarı ilə "İnsan alveri qurbanlarının müəyyən edilməsi Qaydaları (indikatorları)" təsdiq edilmişdir. Lakin bu qaydalar (indikatorlar) daha çox insan alverinin digər formalarını müəyyən etmək üçün yararlıdır. Bu qaydalar (indikatorlar) daha çox cinayət təqibini həyata keçirmək üçün qurbanın müəyyən edilməsini nəzərdə tutur. Beynəlxalq Əmək Təşkilatının müəyyən etdiyi kriteriyalar isə daha çox əmək müfəttışlərinin istifadəsi üçün yararlıdır. Bu baxımdan məcburi əməyin insan alveri ilə müşayət olunan formalarının



və insan alveri olmayan məcburi əmək formalarının müəyyən olunması üçün xüsusi indikatorlar müəyyən olunmalıdır.

4.Məcburi əməyin geniş tətbiq olunduğu qeyri-formal əmək bazarının məhdudlaşdırılmasına yönələn hüquqi tədbirlərin həyata keçirilməsi zəruridir; Bu tədbirlərə daxildir: Əmək Məcəllәsinə "sahibkar olmayan fiziki şəxs" anlayışı daxil edilməsi məqsədəuyğundur; Əmək Məcəllәsinə "Ev qulluğu işlərinə cəlb edilən şəxslərlə əmək münasibətlərinin tənzimlənməsinin xüsusiyyətləri" adlı fəslin daxil edilməsi zəruridir. Bu fəsildə ev qulluğu işlərinə cəlb edilən işçilərə münasibətdə Məcəllədə əks olunan ümumi qaydalardan fərqli qaydalar nəzərdə tutula bilər. Eyni zamanda bu kateqoriya işçilər və onları muzdlu əməyə cəlb edən sahibkar olmayan fiziki şəxslər üçün Əmək Məcəllәsinin 43-cü maddəsinin 2-ci hissəsinin tələblərindən fərqli və sadələşmiş əmək müqaviləsi forması müəyyən edilə bilər; Vergi Məcəllәsinə və "Sosial sığorta haqqında" Qanuna və digər normativ hüquqi aktlara müvafiq əlavə və dəyişikliklər etməklə ev işlərinə cəlb edilən və muzdlu əmək fəaliyyətini həyata keçirən işçilərə münasibətdə fərqli (daha az) vergi və icbari sosial sığorta üzrə ödəmə nəzərdə tutula bilər.

5."Əmək miqrasiyası haqqında" Azərbaycan Respublikası Qanununa və bu qanunun tətbiqini təmin edən digər normativ hüquqi aktlara yenidən baxılmalıdır; Xüsusən qanunun 5 və 8- ci maddələri yeni redaksiyada verilməli, ölkəyə gəlmiş əməkçi miqrantın iş yerini və vəzifəsini dəyişmək hüququ olmalıdır. Vəzifəsi dəyişdirilən əməkçi miqrant üçün yenidən fərdi icazənin alınması və rüsumun ödənilməsinə dair müddəa ləğv olunmalıdır. İnzibati qərar əsasında fərdi icazənin ləğv olunduğu halda əməkçi miqrantın inzibati-iqtisadı məhkəməyə şikayət verməsi və ya fərdi əmək mübahisəsi zəminində əməkçi miqrantla əmək müqaviləsinin ləğv olunması halında işəgötürənlə fərdi əmək mübahisəsinə başlaması üçün inzibati qaydada və ya məhkəmə qaydasında şikayət verməsi üçün ağlabatan müddət verilməli və o mübahisəni həll edənə qədər ölkədən çıxarılmamalıdır.

6.Məcburi əməklə bağlı məlumatlandırma və maarifləndirmə tədbirləri genişləndirilməlidir; İnsan alverinə qarşı mübarizə aparan ixtisaslaşmış təsisatların vəzifəli şəxslərinin, əmək müfəttişlərinin, vətəndaş cəmiyyəti nümayəndələrinin maarifləndirilməsi əsasən məcburi əmək anlayışı və onun müəyyən edilməsi və ona qarşı mübarizə qaydalarını əhatə etməldir. Risk qrupuna daxil olan potensial qurbanların məlumatlandırılması və maarifləndirilməsi isə daha geniş miqyaslarda həyata keçirilməli və bu zaman ənənəvi və yeni medianın imkanlarından maksimum səmərəli istifadə edilməlidir.

---

[17]Azərbaycan Respublikasında Əmək Hüquqlarının təminolunma vəziyyətinin monitorinqi: Qanunvericilik və praktika. Monitorinqin nəticələrinə dair hesabat. Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası. Bakı, 2007.
http://clrpl.az/upload/file/Monitoring%20of%20Labour%20Rights%203.pdf

**Uşaq alveri ilə mübarizə beynəlxalq və daxili qanunvericilik kontekstində**
*(AZƏRBAYCAN UŞAQLAR BIRLIYI)*

**1.Təşkilat haqqında məlumat**

Azərbaycan Uşaqlar Birliyi (AUB) 1993-cü ildə yaradılmış, uşaq və yeniyetmələrin hüquqlarının müdafiəsi sahəsində ixtisaslaşan ictimai birlikdir. Birliyin əsas məqsəd vəvəzifələri uşaq və yeniyetmələri müstəqil həyata hazırlamaqdan, onların layiqli vətəndaş kimi yetiçməsinə kömək etməkdən ibarətdir. Təşkilat ictimai qüvvələrin fəaliyyətini uşaq və gənclər problemi ətrafında birləşdirməyə çalışır, uşaq və yeniyetmələrin sosial, hüquqi mənafelərinin müdafiəsi, onların hərtərəfli inkişafı, istedad və bacarıqlarının aşkara çıxarılması, eləcə də asudə vaxtlarının təşkil olunması məqsədi ilə müxtəlif proqram və layihələr həyata keçirir.

2000-ci ildən etibarən taşkilat əsas istiqamətini baxımsız şəraitdə olan uşaq və yeniyetmələrin problemlərinin həlli məqsədi ilə tədqiqatlar, araşdırmalar aparmış, əldə olunan nəticələrə dair hesabatlar ictimaiyyətə və beynəlxalq qurumlara təqdim olunmuşdur. Aparılan tədqiqatlar insan alveri risk qrupuna daxil olan, HİV- virusuna yoluxma ehtimalı olan uşaq və yeniyetmələri əhatə etmişdir. 2004-cü və 2009-cu ildə Uşaq QHT Alyansının UNİCEF-in xətti ilə hazırlanan Alternativ Hesabatın küçə uşaqları haqqında bölməsi Azərbaycan Uşaqlar Birliyinə həvalə olunaraq tərtib edilmişdir.

2007-ci ildən təşkilat Zərərin Azaldılması Proqramı çərçivəsində "Zərərli vərdişlər təhlükəsi qrupuna daxil olan küçə uşaqları arasında HİV –in profilaktikası" layihəsi həyata keçirilmişdir. Layihə çərçivəsində əsas vaxtını küçədə keçirən uşaq və yeniyetmələr üçün "Gün Ərzində " Reabilitasiya Mərkəzi yaradılaraq maarifləndirici tədbirlər, tibbi müayinələrin təşkili , hüquqi, psixoloji xidmətlər, uşaqların ailələrinə qaytarılması , gün ərzində yeməklə təmin olunma və s. xidmətlər həyata keçirilmişdir.

Azərbaycan Uşaqlar Birliyi həssas qrupa daxil olan uşaq, yeniyetmələr və onların valideynləri ilə mütəmadi olaraq insan alverinin qarşısının alınması istiqamətində maarifləndirmə işi aparır. Təşkilatda çalışan sosial işçilər və autriç işçilərlə mövzuya aid davamlı seminarlar təşkil olunur, sosial işçilər, psixoloqların vasitəsi ilə həssas qruplara daxil olan uşaq və yeniyetmələrlə maariflənmə işi aparır. Beynəlxalq təşkilatların və yerli QHT-lərin insan alverinə qarşı mübarizə sahəsində həyata keçirdiyi tədbirlərdə aktiv iştirak edərək əməkdaşlıq edir.

Təşkilat 2007-ci ildən etibarən insan alveri qurbanlarının aşkarlanaraq onların İnsan Alverinə qarşı Mübarizə İdarəsinə istiqamətləndirməsini həyata keçirmişdir. Belə ki, benefisiarlarımız olan küçə uşaqlarının və ya həssas



qrupa daxi olan yeniyetmələrin ailələr-+i ilə kontaktlar yaradıldıqda onlarla reabilitasiya işləri aparıldıqda ailə üzvləri arasında insan alveri qurban və ehtimal olunan qurbanlar aşkarlanmış və təşkilat olaraq onların xüsusi polis qurumuna müraciət edərək cinayət faktının tanınması , qurban kimi tanındıqdan sonra reabilitasiya proqramına cəlb olunması həyata keçirilib.

2007-ci ildə xarici ölkədə istismar olunan 2 insan alveri qurbanı (18 yaşdan yuxarı), 2008-ci ildə xarici ölkədə 3 nəfər (18 yaşdan yuxarı), 2009-cu ildə xarici ölkədə 6 nəfər (18 yaşdan yuxarı), 2010-cu ildə xarici ölkədə 3 nəfər (18 yaşdan yuxarı) , 2 nəfər yeniyetmə ölkə daxilində fahişəliyə cəlb edilən və məcbur edilən , 2011-ci ildə 11 nəfər yeniyetmə ölkə daxilində məcburi əmək, dilənçiliyə sövq etmə, cinsi istismar faktı ilə müraciət edib.

2010-cu il yanvar ayının 14-dən etibarən Azərbaycan Uşaqlar Birliyinin nəzdində baxımsız şəraitdə olan, məcburi əməyin qurbanı olan, dilənçiliyə sövq olunan uşaq və yeniyetmələr üçün, ailədaxili zorakılığa məruz qalan, potensial insan alveri qurbanları olan valideynlər üçün 24 saat ərzində fəaliyyət göstərən Uşaq Sığınacaq - Reinteqrasiya Mərkəzi açılmışdır. Mərkəzə gün ərzində gələn və müvəqqəti sığınacaq verilən uşaqlar Daxili İşlər Nazirliyinin yerli polis bölmələrinin əməkdaşları tərəfindən və eyni zamanda təşkilatın əməkdaşları tərəfindən aşkarlanmış uşaqlar və valideynlərdir. Bu günədək evdən, internat məktəbindən qaçan, ailə daxii zorakılıqla qarşılaşan, valideynlərini itirdikdən sonra baxımsız şəraitdə olan 103 nəfər uşaq və yeniyetməyə, 21 valideynə Mərkəzdə müvəqqəti sığınacaq verilmiş, uşaqların ailələri tapılaraq valideynlərinə təhvil verilmiş, ailədaxili zorakılığa məruz qalan valideynlər tibbi ,hüquqi, psixoloji, sosial yardımlar göstərilmişdir.

2011-ci il ərzində baxımsız şəraitdə olan, vaxtının əsas hissəsini küçədə keçirən, valideyn nəzarətindən kənarda qalmış 748 nəfər uşaq və yeniyetmə Azərbaycan Uşaqlar Birliyində qeydiyyatdan keçmişdir.

2011-ci il ərzində təşkilat tərəfindən potensial insan alveri qurbanı, məcburi əmək qurbanı, dilənçiliyə sövq olunmuş 29 uşaq və yeniyetmə uşaq evləri və internat məktəbinə yerləşdirilimiş, 13 valideynə işlə təmin olunmasında yardım göstərilmişdir. 2 nəfər valideyn təşkilatın nəzdində fəaliyyət göstərən Mərkəzdə işlə təmin olunmuşdur. 11 azyaşlı hüquqlarının müdafiəsi ilə bağlı Uşaq Hüquqları Klinikasına , 79 uşaq tibb müəssisələrinə istiqamətləndirilmiş, 109 nəfərə psixoloji yardım göstərilmiş, 167 nəfər geyim, yeməklə təmin olunmuş, 31 baxımsız şəraitdə olan uşaq və yeniyetmə Bilgəh qəsəbəsindəki yay istirahət düşərgəsinə göndərilmişdir.

2012-ci ilin 9 ayı ərzində 4 nəfər qadın (18 yaşa çatmış) insan alveri qurbanı Azərbaycan Uşaqlar Birliyinə müraciət edib. Qurbanlar reabilitasiya olunma məqsədi ilə Təmiz Dünya Qadınlara Yardım İctimai Birliyinə istiqamətləndirilmişdir.

Yetkinlik yaşına çatmayanlar arasında məcburi əmək, dilənçiliyə sövqetmə ilə bağlı müraciətlərin sayı 2012-ci ilin 9 ayı ərzində ərzində 42 nəfər müraciət

etmişdir. Onlardan 3 nəfəri 18 yaşına çatmış qadınlardır. 39 nəfər isə yetkinlik yaşına çatmayan uşaq və yenitetmələrdir. Aylar üzrə müraciət edənlər:

**Yanvar-fevral ayında**

- 5 nəfər(4 məcburi əmək , dilənçiliyə sövq etmə faktı)
- 1 nəfər fahişəliyə cəlb etmə

**Mart ayında**

-2 nəfər məcburi əmək, dilənçiliyə sövq etmə faktı

**Aprel ayında**

-3 nəfər fahişəliyə cəlb etmə

-5 nəfər məcburi əmək, dilənçiliyə sövq etmə

**May ayında**

-3 nəfər insan alveri qurbanı (2 nəfər 18 yaşa çatmış, 1 nəfər azyaşlı ölkə daxilində cinsi istismar)

- 3 nəfər məcburi əmək,dilənçiliyə sövq etmə

**İyun ayında**

-4 nəfər məcburi əmək, dilənçiliyə sövq etmə

- 1 nəfər 18 yaşa çatmış insan alveri qurbanı

**İyul ayında**

-3 nəfər məcburi əmək, dilənçiliyə sövq etmə

-1 nəfər fahişəliyə məcbur etmə (18 yaşa çatmış)

**Avqust ayında**

-1 nəfər azyaşlı fahişəliyə cəlb etmə

-1 nəfər məcburi əmək

**Sentyabr ayında**

-6 nəfər məcburi əmək, dilənçiliyə sövq etmə

- 1nəfər azyaşlı fahişəliyə cəlb etmə

42 nəfərin hər biri təşkilatın nəzdində fəaliyyət göstərən Müvəqqəti Sığınacağa yerləşdirilmiş,tibbi, psixoloji, hüquqi yardımla təmin olunmuşdur.

Yetkinlik yaşına çatmayan uşaq və yeniyetmələrlə bağlı icra hakimiyyətləri yanında Yetkinlik yaşına çatmayanlarla iş və hüquqlarının müdafiəsi üzrə komissiyalara müraciətlər olunmuş, onların ailələri ilə görüşülmüşdür. Sığınacaq verilmiş uşaq və yenyetmələrin 9 nəfəri roman tayfalarından olan qaraçı uşaqlarıdır. Digər 30 nəfəri isə regionlardan Bakıya qazanc məqsədi ilə gəlmiş uğursuz ailələrin uşaqlarıdır. Müraciətlərimizə baxmayaraq bu uşaqların heç biri insan alveri qurbanı kimi tanınmamışdır. Belə ki, məcburi əmək və dilənçiliyə sövq edənlər əsasən valideynlər olduğundan uşaq valideyninə qarşı ifadə verməkdən çəkinir, sosial müdafiə proqramları olmadığından komissiyalar isə uşağı valideynindən təcrid etmək istiqamətində iş aparmaq istəmir. Belə ki, qeyd olunan komissiyaların cəmi 2 nəfər işçisi var ki, onlar məvcib müqabilində işləyirlər. 9-11 nəfərdən ibarət olan və rayon icra qurumlarının səlahiyyətli nümayəndələrini əhatə edən komissiya isə ictimai əsaslarla fəaliyyət göstərir. Rusiya, Avropa ölkələrinin təcrübəsini öyrəndiyimiz halda bu gün Azərbaycanda uşaqların müdafiə proqramı olduqca zəif və ya



fəaliyyətsizdir.

Yetkinlik yaşına çatmayanların avaralıq və dilənçiliyə, əxlaqsız həyat tərzinə, qeyri-qanuni qulluğa və başqa qanunazidd əməllərə cəlb edilməsinin qarşısının alınması və profilaktikası məqsədilə ötən il daxili işlər orqanlarının əməkdaşları tərəfindən 2100 reyd və yoxlama keçirilib. Bu barədə Nazirlər Kabinetinin 2009-cu ildəki fəaliyyətinə dair Milli Məclisə təqdim olunan hesabatda bildirilib. Müxtəlif qanun pozuntularına və nəzarətsizliyə görə polisə, xüsusi qəbul, saxlama və təcridetmə mərkəzlərinə 3980 nəfər gətirilərək barələrində qanunvericiliyə uyğun tədbirlər görülüb. Onlardan 682-si avaralıq və dilənçilik edən edən azyaşlılardır, 327-si uşaqları qanunazidd fəaliyyətə cəlb edən və cəmiyyətə zidd həyat tərzi keçirən valideynlərdir.Müəyyən edilmiş azyaşlılardan 362 nəfəri, eləcə də övladlarının təlim-tərbiyəsi ilə bağlı vəzifələrini yerinə yetirməyən, onları qanunazidd əməllərə cəlb edən 41 valideyn polisdə profilaktiki qeydiyyata götürülüblər. Ailə himayəsindən və pedaqoji təsir vasitələrindən kənarda qalan 939 azyaşlı təlim-tərbiyə müəssisələrinə qaytarılıb.

Yuxarıda qeyd olunan 2009-cu il üzrə keçirilmiş reydlər zamanı saxlanılmış azyaşlıların statistikası verilmişdir. Azərbaycan Uşaqlar Birliyi 2010-cu ilin yanvar- iyun aylarında küçə uşaqları ilə bağlı yaratdığı məlumat bazasına əsasən 602 uşaq və yeniyetmə qeydiyyatdan keçmişdir.

### 2.İnsan alveri qurbanı olan uşaqların müdafiəsi sahəsində beynəlxalq və daxili qanunvericiliyin müqayisəli təhlili

Bu Hesabatın məqsədi Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizəni gücləndirmək məqsədilə "İnsan alverinə qarşı mübarizə üzrə 2009-2013-cü illər üzrə Milli Fəaliyyət Planı"nda 2010-cu il üçün dövlət orqanlarına həvalə edilmiş vəzifələrin icrası baxımından insan alveri və məcburi əməyə qarşı mübarizənin vəziyyətini təhlil etməklə bu sahədəki vəziyyəti qiymətləndirmək və müvafiq tövsiyələr hazırlamaqdan ibarətdir. 2004-cü il may ayının 6-da Azərbaycan Respublikasında "İnsan alverinə qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı" təsdiq edildi. Həmin vaxtdan da Azərbaycan hökuməti tərəfindən insan alverinə qarşı mübarizə sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, dövlət orqanlarında infrastruktur dəyişikliyi, əhalinin maarifləndirilməsi və s. sahədə bir sıra işlər görülmüşdür.

"İnsan alverinə qarşı mübarizə üzrə 2009-2013-cü illər üzrə Milli Fəaliyyət Planı"na uyğun olaraq, insan alverinə qarşı mübarizə sahəsində görülən işlərin səmərəliliyinin artırılması, qurbanların müdafiəsi və sosial reabilitasiyası, mövcud resursların əlaqələndirilməsi, əməkdaşlıq və maarifləndirmə tədbirlərinin icrası, əvvəlki illərdə olduğu kimi, hesabat ilində də davam etmişdir. 2010-cu ildə Azərbaycan Respublikası "İnsan alverinə qarşı fəaliyyət üzrə Avropa Şurası Konvensiyasına (bundan sonra "Avropa Konvensiyası") qoşulmuş, AR Nazirlər Kabinetinin qərarı ilə "İnsan alverinin

qurbanı olmuş uşaqların sığınacaqda yerləşdirilməsi və saxlanılması Qaydaları" təsdiq edilmiş, insan alverindən zərər çəkmiş şəxslərə reinteqrasiya dövründə ödənilən müavinətin məbləği 33 manatdan 200 manata çatdırılmış, dövlət orqanları və həmkarlar təşkilatları ilə birlikdə həyata keçirilən layihələrin sayı dəfələrlə artmışdır. DİN-in İnsan Alverinə Qarşı Mübarizə İdarəsi (bundan sonra DİN) öz fəaliyyətini daha da təkmilləşdirmiş, insan alverinə qarşı mübarizə sahəsində QHT-lərlə əməkdaşlığı daha da inkişaf etdirmişdir.

**Uşaq alveri dedikdə** - uşaqların ölkə daxilində və ya ölkədən xaricdə istismar məqsədilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi başa düşülür. İnsan alverinə qarşı mübarizə haqqında Azərbaycan Respublikasının qanununa əsasən qurbanın uşaq olduğu hallarda cinayətin insan alveri hesab olunması üçün zor tətbiq etmək hədəsi və ya zor tətbiq etmək, hədə-qorxu və ya digər məcburetmə vasitələri, oğurlama, dələduzluq, aldatma, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etmək, yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddı və sair nemətlər, imtiyazlar və ya güzəştlər vermək və ya almaq kimi üsullardan istifadə olunmasına ehtiyac yoxdur. Uşaq - 18 yaşına çatmayan şəxsdir.

**Uşaq alverinin aşağıdakı formaları vardır:**

***kommersiya məqsədi ilə cinsi istismar:***
•Uşaq fahişəliyinin təşkili;
•Pornoqrafik materialların hazırlanması məqsədi ilə istifadə;

***əməyin istismarı məqsədi ilə:***
• xidmət və istehsal sahəsində (kənd təsərrüfatı sahəsinə cəlb etmə, maşın yuma və s.);
•– ev təsərrüfatı sahəsində (ev köləliyi);

**Gülnarənin (ad şərtidir) hadisəsi-məcburi əmək qurbanı:**

*Gulnarə Gurcustanda dünyaya gəlib. Atası Azərbaycan Respublikasının vətəndaşı, anası isə Gürcüstan Respublikasının vətəndaşıdır. 17 yaşındadır. Şəxsiyyətini təsdiq edən etibarlı sənədi yoxdur. Valideynləri qazanc əldə etmək məqsədi ilə Rusiya Federasiyasına miqrasiya etmiş, Gülnarə isə Gurcüstanda nənə və bibinin himayəsində qalmışdır. Azyaşlı 5 yaşından ev təsərrüfatında işlərə cəlb olunub, təhsildən yayındırılıb, qapalı mühitdə böyüyüb. Dəfələrlə nənəsi və bibisi tərəfindən fiziki zorakılığa məruz qalıb, işlədilib. 14 yaşından etibarən artiq Bakıda yerləşmiş valideynləri tərəfindən də istismar olunan Gülnarə əzablara dözməyərək evdən qaçır, Azərbaycan Uşaqlar Birliyinin autriç işçiləri tərəfindən parkda aşkarlanan qız təşkilatın Sığınacagına gətirilir və valideynlərinin axtarılması istiqamətində iş aparılır. Hüquq mühafizə orqanlarına müraciət edərək Gülnarənin axtarışa verilməsi bağlı ilə sorğumuza cavab olaraq bildirilir ki, valideynləri tərəfindən bu barədə heç bir müraciət olmamışdır. 15 gün müddətində Sığınacaqda yaşayan Gülnarənin valideynləri aşkralanan zaman onlar da təsdiq etdilər ki, həqiqətən qızlarını təhsildən yayındırmış, onu ev işlərini görməyə məcbur etmişlər. Valideynlər qızın əqli geriliyini əsas gətirmiş, heç olmasa ev təsərrüfatında onun xeyir verə biləceyini bildirmişlər. Psixoloqun rəyinə görə əqli gerilik kollektivdən kənarda qalmaq və təhsildən yayınma səbəbindəndir.*

**diləncilik məqsədi ilə:**
•Uşaqların "dilənçilik" məqsədi ilə istifadə edilməsi;
•Uşaqların dilənçilik məqsədi ilə "icarəyə" götürülməsi.

**Elnarənin (ad şərtidir) hadisəsi - məcburi əmək qurbanı:**

*Elnarə 13 yaşındadır. Gəncədə qeyri-rəsmi nikahdan doğulmuşdur. Anası tərəfindən dilənçiliyə sövq olunan azyaşlı həm də zərərli vərdişlərin aludəçisidir. Belə ki, uzun zaman küçə həyatı sürən bir çox uşaq və yeniyetmələr kimi o da toksik maddələrdən asılıdır, dilənçilik yolu ilə qazandığı vəsaitin əsas hissəsi anası tərəfindən əlindən alınır, az pul topladıqda anası və qardaşı onu döyüb yenidən küçələrə dilənçiliyə göndərir. Reabilitasiya məqsədi ilə Azərbaycan Uşaqlar Birliyinin nəzdində fəaliyyət göstərən Müvəqqəti Sığınacaq Reinteqrasiya Mərkəzinə müraciət edən Elnarə tibbi, psixoloji, hüquqi yardım, sığınacaqda müvəqqəti yerləşdirmə,t əhsilə dəstək xidmətlərinə cəlb olunur. Valideyni ilə söhbətlər aparılır. Valideynin şəxsiyyət vəsiqəsinin düzəldilməsi üçün müvafiq qurumlara müraciət edilir, valideyn vəsiqə və qeydiyyatla təmin olunur. Məhkəməyə doğum faktının təsdiq edilməsi ilə bağlı müraciət hazırlanır, ancaq valideyn məhkəməyə müraciət etməkdən imtina edir, belə ki, övladının doğum haqqında sənədinin alınması onun valideyn kimi məsuliyyətini artıracağını, qızı dilənməyə vadar etdikdə inzibati qaydada cərimə olunacağını başa düşür. Dəfələrlə onu hüquq mühafizə orqanları da xəbərdar etdiyinə baxmayaraq məsuliyyətdən yayınır.*

***orqanların və toxumaların transplantasiyası məqsədi ilə:***
•Orqan və toxumaların alqı-satqı məqsədi ilə cıxarılması

**Məsumənin(ad şərtidir) hadisəsi - Potensial qurban**

*Məsumə 2002-ci ildə dünyaya gəlib10 yaşı var. Azərbaycan Uşaqlar Birliyinin nəzdində fəaliyyət göstərən Müvəqqəti Sığınacaq-Reinteqrasiya Mərkəzinə istiqamətləndiriləndək müxtəlif insanların yanında yaşayıb. Bioloji atası narkoistifadəçidir. Məsumənin anası ilə təsadüfi tanışlıq və əlaqələri nəticəsində Məsumə dünyaya gəlib. Atası uşağın ondan olmasını inkar edib, uşaq xəstəxanada doğulduqdan sonra anası onun doğum haqqında şəhadətnaməsini almayıb. Qadın yüngül həyat tərzi sürdüyündən kirayədə qaldığı evin sahibi ilə məsləhətləşib və 6 aylıq uşağı körpələr evinə apararaq dövlətin himayəsinə təhvil verib, uşaqdan imtina edib. Körpələr evinin həmin dövrdə işləyən direktoru xarici ölkə vətəndaşına uşağı övladlığa verib, ancaq qadının tanışlarından olan jurnalist xanım bunu bildikdə uşağı geri qaytarılmasını tələb edərək məhkəməyə müracitə edib və övladlıq qərarını ləğv etdirib, körpənin rəsmi qəyyumu olmağı haqqında qərar əldə edib. Ancaq Məsumənin qəyyumu olan qadın bir müddətdən sonra uşağı təkrar olaraq anasına qaytarıb və beləliklə körpə qızcığaz tanımadığı insanların yanında illərlə yaşayıb. 2012-ci ilin mart ayında Məsumə təşkilatın Sığınacağına təhvil verilib. Hal-hazırda orta məktəbin birinci sinifində təhsil alır. Təhsil Nazirliyinin De-institutlaşma və uşaq hüquqlarının Müdafiəsi İdarəsi tərəfindən azyaşlının dövlət müəsssisəsnidə yerləşdirilməsi ilə bağlı qiymətləndirmə işi aparılır.*

***qanunsuz övladlığa götürülmə məqsədi ilə:***

•Qanunvericilikdə nəzərdə tutulmuş qaydaların pozulması ilə uşağın qanunsuz olaraq başqa bir şəxsə və ya ailəyə verilməsi

**Romanın (ad şərtidir) hadisəsi- Potensial qurban**

*Roman 9 yaşındadır. Doğularkən anası onu bacısının övladı olmadığına görə bacısına vermiş, ancaq övladlığa verilməsi ilə bağlı məhkəməyə müraciət olmamışdır. Övladlığa verilmiş körpə kiçik yaşlarından yaşadığı ana və atası tərəfindən fiziki zorakılığa məruz qalmış, səhhətində problemlər yaşamış, yaşıdlarından fərqli olaraq inkişafdan qalmışdır. Yüngül həyat tərzi sürən anası və narkoistifadəçi atası tərəfindən dilənçiliyə məcbur edilmişdir. Uşaq sürdüyü ağır həyatdan bezərək küçədə yaşamağa üstünlük vermişdir. Bioloji anasının Romandan əlavə daha 3 oğlu var və hər 3 uşaq dövlət uşaq müəssisəsində yaşayır. Azərbaycan Uşaqlar Birliyi Romanın bioloji anasının qeydiyyatda olan ərazi üzrə qəyyumluq komissiyasına müraciət edərək azyaşlının hüquqlarının müdafiəsi istiqamətində işlərin aparılmasını və ananın valideyn huquqlarının məhdudlaşdırılması ilə bağlı təklif irəli sürmüşdür. Hal-hazırda azyaşlı uşaq müəssisəsində təhsil alır.*



## UŞAQLARIN XÜSUSİ EHTİYACLARI

•Qəyyumun müəyyən və ya təyin edilməsi;

•Yaş həddi ilə bağlı ehtimalın müəyyənləşdirilməsi;

•"Uşaq" və "qurban" məfhumunu nəzərə alaraq, ikiqat müdafiənin təşkili;

•Zaman keçdikcə uşaqlar travmatik hadisələrini açıqladıqca, bu nəzərə çarpan dərəcədə əqli səhhətlərində problemlər yarada bilər;

•Travma sonrası stress, depressiya, uyğunlaşmaqla bağlı problemlər, intihar hissləri;

•Dəstək, təhlükəsizlik, ixtisaslaşmış əqli səhiyyə xidmətlərindən istifadə etmək çox vacibdir;

•İnsan alveri qurbanına çevrilmiş uşaqlara göstərilən dəstək və yardım beynəlxalq standartlara uyğunlaşdırılmış etik qaydalar çərçivəsində həyata keçirilməlidir (söhbətin aparılması, izahatın alınması və s.).

**İnsan alverinin qarşısının alınmasında profilaktik tədbirlər**

•Məlumat kampaniyaları: Məktəblilər və gənclər arasında məlumatlılıq səviyyəsinin artırılması;

•İqtisadi imkanların və geniş hüquqi məlumatın artırılmasına yönəldilmiş profilaktik proqramların işlənib hazırlanması;

•İnsan alveri təhlükələri və onun qarşısının alınması tədbirlərinə dair mütəxəssislərin hazırlanması.

İnsan alveri qurbanlarının sosial reabilitasiyası, onların cəmiyyətə və ailəyə reinteqrasiyası üçün müxtəlif tədbirlərin görülməsi vacibdir. Bu tədbirlərdən ən birincisi insan alveri qurbanlarının təhlükəsizliyinin və şəxsi həyatlarının qorunmasını təmin etməkdir. İnsan alveri qurbanlarının təhlükəsizliyi, onların şəxsi həyatın qorunması "İnsan alverinə qarşı mübarizə haqqında" Avropa Şurasının Konvensiyanın 11-ci maddəsində öz əksini tapmışdır. "İnsan alverinə qarşı mübarizə haqqında" Avropa Şurasının Konvensiyası və İzahat Məruzəsinə əsasən, Avropa Şurasının Konvensiyasının 11-ci maddəsi insan alveri qurbanlarının şəxsi həyatını qoruyur. İzahat Məruzəyə əsasən, Konvensiyanın 11-ci maddəsinin 2-ci bəndi, uşaqlar üçün xüsusi müdafiə tədbirləri təklif edir. Çünki media və ya digər vasitələrlə onların şəxsiyyətlərinin açıqlanması xüsusilə ağır ola bilər. Bu fikir şəxsiyyəti müəyyənləşdirməyə imkan verən detallara da aid edilir, belə ki, media insan alveri qurbanı olan uşağın adının çəkilməməsi şərti ilə bəzi detalları açıqlaya bilər ki, (məsələn, onlar hazırda haradadırlar və ya işləyilər) bu da onların şəxsiyyətinin müəyyənləşdirilməsinə kömək edə bilər.

Dövlətlər insan alveri qurbanı olmuş uşaqların şəxsiyyətinin və ya onun detallarının açıqlanmasının qarşısını almaq üçün hansı tədbirlərin görülməsini seçməkdə azaddırlar. Bu məqsədlə bəzi ölkələrin qanunları insan alveri

qurbanlarının şəxsiyyətini aşkar edə bilən hər hansı bir məlumatın açıqlanmasına görə xüsusi cəza tədbirləri tətbiq edir. Bununla belə 2-ci bəndə əsasən insan alveri qurbanı olan uşaqlar haqqında məlumatın açıqlanmasına o halda yol verilir ki, uşaqların qohumlarının tapılması və ya onların rifahının təhlükəsizliyinin təmin edilməsi məqsədi daşıyan müstəsna səbəblər olsun.

İzahat Məruzədə qeyd edilir, Konvensiyanın 11-ci maddəsinin 3-cü bəndi, tərəfləri kütləvi informasiya vasitələrini insan alveri qurbanı olan uşaqların şəxsi həyatlarını və şəxsiyyətlərini müdafiə etməyə sövq edən tədbirlər görməyə çağırır. Kütləvi informasiya vasitələrinin söz azadlığı prinsipinə müdaxilə edilməsinə yol verməmək üçün bu tədbirlər Avropa İnsan Hüquqları Konvensiysının maddələrinə uyğun olmalı və yalnız uşaqların şəxsi həyatlarının və şəxsiyyətlərinin müdafiəsi məqsədi daşımalıdır. "Özü-özünü tənzimləmə" şəxsi sektor tərəfindən tənzimləmə deməkdir, "əməkdaşlıq şəraitində tənzimləmə" şəxsi sektorla dövlətin səlahiyyətli orqanları arasında partnyorluq kontekstində tənzimləmədir, "tənzimləmə" isə dövlətin səlahiyyətli orqanları tərəfindən təsdiq edilmiş standartlara aiddir.

İnsan alveri qurbanlarının təhlükəsizliyinin və şəxsi həyatının qorunması Avropa Şurasının Konvensiyasının 12-ci maddəsinin 2-ci bəndində və 30-cu maddəsində də yer almışdır. Belə ki, Konvensiyaya əsasən, insan alveri qurbanlarının təhlükəsizliyi və müdafiəsinə lazımi diqqət yetirilməlidir. Tərəflər insan alveri qurbanlarının məhkəmə gedişatı dövründə insan alverindən zərərçəkmişlərin şəxsi həyatının, lazım gəldikdə isə şəxsiyyətinin qorunmasını təmin edən lazımi qanunverici, həmçinin öz daxili qanunlarına uyğun olaraq zərərçəkənlərin təhlükəsizliyi və hədə-qorxudan müdafiəsi, əgər zərər çəkən uşaqdırsa, onun ehtiyaclarına xüsusi qayğı göstərilməsi və hüquqlarının xüsusi olaraq qorunmasına təminat verilməsi üçün tədbirlər görməlidirlər.

---

[18]"İnsan alverinə qarşı mübarizə haqqında" Avropa Şurası Konvensiyası və İzahat Məruzəsi, səh.44, (142) http://coe.az/AZ/pdfdoc/konvensiyalar/PDF_Conv_197_Trafficking_Azeri.pdf
[19]"İnsan alverinə qarşı mübarizə haqqında" Avropa Şurası Konvensiyası və İzahat Məruzəsi, səh 44, (143-144) http://coe.az/AZ/pdfdoc/konvensiyalar/PDF_Conv_197_Trafficking_Azeri.pdf
[20]"İnsan alverinə qarşı mübarizə haqqında" Avropa Şurası Konvensiyası və İzahat Məruzəsi, səh.44, (145) http://coe.az/AZ/pdfdoc/konvensiyalar/PDF_Conv_197_Trafficking_Azeri.pdf
[21]"İnsan alverinə qarşı mübarizə haqqında" Avropa Şurasının Konvensiyası, maddə 12.2, http://coe.az/AZ/pdfdoc/konvensiyalar/PDF_Conv_197_Trafficking_Azeri.pdf



Avropa Şurasının Nazirlər Kabineti tərəfindən 19.05.2000-ci ildə Nazirlərin Nümayəndələrinin 710-cu görüşündə qəbul edilmiş, "Cinsi istismar məqsədilə insan alverinə qarşı mübarizə tədbirlərinə" dair Avropa Şurasının Nazirlər Kabinetinin üzv dövlətlərinə R(2000)11 saylı Tövsiyəsinin 2-ci maddəsinə əsasən, insan alveri qurbanlarının, əsasən də qadın, uşaqlar və yeniyetmələrin hüquqlarının və qanuni mənafelərinin müdafiəsi üçün dövlətlərə qanunvericilik və praktik tədbirlərin hazırlanması tövsiyə olunur. Tövsiyələrin 31 və 32-ci maddəsinə əsasən, insan alveri qurbanlarının və onların ailələrin, həmçinin insan alveri qurbanlarına yardım edən təşkilatların əməkdaşlarına cinayət və mülki məhkəmə icraatı zamanı müdafiənin artırılması tövsiyə olunur.

İnsan alveri qurbanı olmuş uşaqların təhlükəsizliyinin təmin olunması başqa Avropa Şurasının sənədində öz əksini tapmışdır. Avropa Şurasının Nazirlər Kabinetinin 31.10.2001-ci il tarixli 771-ci görüşündə qəbul edilmiş, "Uşaqların cinsi istismardan müdafiəsi haqqında" üzv dövlətlərinə (2001)16 saylı Tövsiyəsinə əsasən, üzv dövlətlər uşaqların cinsi istismardan müdafiəsi üçün effektiv tədbirlərin tətbiq edilməsini, öz qanunvericiliyinə bu tövsiyələrin əsas prinsiplərinə uyğun olaraq yenidən baxmalarını, qanunvericiliyə düzgün riayət edilməsi və adekvat texniki yardımın göstərilməsini təmin etməlidirlər.

Beynəlxalq sənədlərdə nəinki uşaqların şəxsi təhlükəsizliyinin təmin edilməsi məsələsi müzakirə olunur, hətta uşağın ailəsinin təhlükəsizliyinə də diqqət yetirilməsi tövsiyə olunur. Məsələn, Lüksemburq şəhərində 19.07.2002-ci ildə qəbul edilmiş, "İnsan alverinə qarşı mübarizə" haqqında Avropa Birliyi Şurasının Çərçivə Qərarının 7-ci maddəsinin 3-cü bəndinə əsasən, insan alveri qurbanı uşaq olduqda, üzv dövlətlər onun ailəsinə adekvat təhlükəsizlik tədbirlərin və yardımın göstərilməsi üçün bütün lazımı tədbirləri görməlidirlər.

İnsan alveri qurbanlarının və cinayət icraatında iştirak edən şahidlərin şəxsi həyatlarının təhlükəsizliyinin təmin edilməsi, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin 17.02. 2006-cı il tarixli 67 nömrəli əmri ilə təsdiq edilmiş, "İnsan alveri qurbanlarının müvəqqəti yaşaması üçün sığınacaq haqqında" Nizamnaməsində qeyd olunmuşdur.

Nizamnaməyə əsasən, Sığınacağın təyinatı insan alveri qurbanlarının müdafiəsini və müvəqqəti yaşamasını təmin etməkdən ibarətdir. Sığınacağın əsas funksiyalarından biri, insan alveri qurbanlarını, ehtimal olunan qurbanları və şahidləri müdafiə etmək, onlar üçün təhlükəsiz mühit yaratmaqdan ibarətdir. Sığınacağın və oradakı şəxslərin təhlükəsizliyi İnsan Alverinə qarşı Mübarizə İdarəsinin xüsusi struktur qurumu tərəfindən həyata keçirilir.

---

[22]"İnsan alverinə qarşı mübarizə haqqında" Avropa Şurasının Konvensiyası, maddə 30, http://coe.az/AZ/pdfdoc/konvensiyalar/PDF_Conv_197_Trafficking_Azeri.pdf
[23]"Uşaqların cinsi istismardan müdafiəsi haqqında" üzv dövlətlərinə (2001)16 saylı Tövsiyəsi
[24]"İnsan alverinə qarşı mübarizə" haqqında Avropa Birliyi Şurasının Çərçivə Qərarı, maddə 7, bənd 3
[25]"İnsan alveri qurbanlarının müvəqqəti yaşaması üçün sığınacaq haqqında Nizamnamə", maddələr 2.1, 2.2.1 və 2.2.4
[26]"İnsan alveri qurbanlarının müvəqqəti yaşaması üçün sığınacaq haqqında Nizamnamə", maddə 3.1

Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Kollegiyasının 22.01.2007-ci il tarixli 01 saylı qərarı ilə təsdiq edilmiş "İnsan alveri qurbanlarına Yardım Mərkəzinin Nizamnaməsi"nə əsasən, insan alveri qurbanları üçün Yardım Mərkəzində insan alverı qurbanlarının şəxsiyyətinin anonimliyi təmin edilir və onların razılıqları olmadan barələrində cinayət təqibi orqanlarına və ya digər dövlət orqanlarına, təşkilati hüquqi-formasından asılı olmayaraq heç bir hüquqi, habelə fiziki şəxsə məlumat verilmir. İnsan alverinin qurbanı uşaqlar olduqda onlar barədə Yardım Mərkəzi tərəfindən qəyyumluq və himayə orqanına və Yetkinlik yaşına çatmayanların işləri və hüquqlarının müdafiəsi üzrə Komissiyaya dərhal məlumat verilir.

İnsan alveri qurbanı olmuş uşaqlarının təhlükəsizliyinin və şəxsi həyatlarının qorunması da Azərbaycan Respublikasının qanunvericiliyində öz əksini tapmışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19.11.2009-cu il tarixli 180 nömrəli qərarı ilə təsdiq edilmiş, "İnsan alverinin qurbanı olmuş uşaqların sığınacaqda yerləşdirilməsi və saxlanılması" Qaydalarına əsasən, sığınacağa yerləşdirilmiş hər bir uşağa və onun valideynlərinə dair məlumatlar Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş qaydada konfidensial saxlanılmalıdır.

Qurbanlara tibbi və psixoloji yardımlar göstərilərkən onlar haqqında konfidensial məlumatları toplama və yayma yolverilməz olmaqla, belə hərəkətlərin cinayət əməli kimi qiymətləndirilməsi nəzərə alınmalıdır.

İnsan alveri qurbanlarının təhlükəsizliyi və şəxsi həyatlarının qorunması sahəsində Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş tədbirlərin müəyyən hissəsi təcrübədə həyata keçirilsə də, bəzi tələblərinin təcrübədə həyata keçirilməsində müəyyən çətinliklər var.

İnsan alverinin qarşısının alınması və qurbanlara kömək məqsədi ilə həftənin bütün günləri 24 saat ərzində yalnız respublika ərazisində ödənişsiz xidmət göstərən, dünyanın hər bir ölkəsindən zəngləri qəbul edən telefon "Qaynar xətt" xidməti (telefon 152 və 5622112) 2007-ci ilin oktyabr ayından fəaliyyət göstərir. "Qaynar xətt"in təyinatı insan alveri ilə mübarizə və bu növ cinayətdən zərər çəkənlərə, xüsusən qadın və uşaqlara yardım məqsədilə məlumat məsləhət xidməti göstərməkdən ibarətdir. "Qaynar xətt"in əsas funksiyaları, insan alverinin və onunla bağlı təhdidlərin qarşısını almaq, İnsan alverindən zərər çəkmiş şəxslərə köməklik göstərmək, xarici ölkələrdə işə düzəlmək, təhsil almaq, istirahət etmək, əcnəbi vətəndaşlara ərə getmək üçün müraciət edənlərə lazımi məsləhətlər vermək, yaşayış yerindən və sosial statusundan asılı olmayaraq vətəndaşlara telefonla vaxtında və mümkün psixoloji yardım göstərilməsini təmin etmək, kömək və məsləhət almaq üçün müraciət etmiş hər bir şəxslə etibarlı dialoqu təmin etmək, müraciətlərin ixtisaslı cavablandırılması və həll edilməsi məqsədilə abonentləri aidiyyati üzrə istiqamətləndirməkdən ibarətdir.

İnsan alveri qurbanlarına yardım edilməsi Avropa Şurasının "İnsan alverinə qarşı mübarizə haqqında" Konvensiyasının 12-ci maddəsində öz əksini



tapmışdır. Həmin maddəyə əsasən, hər Tərəf alver qurbanlarının fiziki, psixoloji və maddi cəhətdən özlərinə gəlmələri üçün qanunverici və ya digər tədbirlər hazırlamalıdır. Bu tədbirlərə ən azı aşağıdakılar daxildir:

a.müvafiq təhlükəsiz ev şəraitinin yaradılması, psixoloji və maddi yardım göstərilməsi yolu ilə onların yaşamasına imkan verən həyat standartlarının təmin edilməsi;

b.təcili tibbi yardım ala bilmək imkanı;

c.lazım olan yerdə tərcüməçi xidmətləri;

d.onların hüquqları və onlara göstərilməli olan xidmətlər barədə başa düşəcəkləri dildə məsləhət və məlumat ala bilmələrinə imkan yaradılması;

e.onların hüquqlarını pozan şəxslərin məhkəmə araşdırmalarının müvafiq mərhələlərində alver qurbanlarının hüquqlarının və maraqlarının təmsil olunmalarını təmin etmək üçün lazımi yardım göstərilməsi;

f.uşaqların təhsil ala bilmək imkanı.

Konvensiyanın bu maddəsində irəli sürülmüş şərtlərin həyata keçirilməsi üçün hər Tərəf əmin olmalıdır ki, xidmətlər razılaşdırılmış əsaslarla, insanların xüsusi ehtiyacları, onların acınacaqlı vəziyyətdə olmaları, və uşaqların yaşayış yeri, təhsil və müvafiq tibbi yardım almaq hüquqları nəzərə alınmaqla təqdim olunur.

Uşaqlara gəldikdə, yaşayış yeri spesifik ehtiyaclar baxımından müvafiq olmalıdır. İnsan alveri qurbanı olan uşaqlar bəzən karantin müəssisələrində yerləşdirilirlər. Bəzi hallarda bu ona görə baş verir ki, uşaq sağlamlıq müəssisələrində yer olmur. Uşağın karantin müəssisələrində yerləşdirilməsi müvafiq yaşayış yeri hesab edilə bilməz. İnsan alveri qurbanlarının keçirdikləri sarsıntıdan özlərinə gəlmələri və yenidən cəmiyyətə qayıda bilmələri üçün psixoloji yardıma ehtiyac duyulur. Konvensiya maddi yardım da göstərməyi nəzərdə tutur, çünki insan alveri qurbanlarının insan alverçilərin əlindən qurtarandan sonra heç bir maddi imkanları olmur. Konvensiyasının 12-ci maddəsinin 1-ci bəndinin (a) yarımbəndində nəzərdə tutulan maddi yardım onlara yaşamaq üçün maddi vəsait vermək məqsədi daşıyır. Maddi yardım maliyyə yardımından fərqlənir, çünki maddi yardım heç də həmişə pul yardımı formasında olmur. Bu, ərzaq və geyim də ola bilər.

Konvensiyanın İzahat Məruzəsinə əsasən, Konvensiyanın 12-ci maddəsinin 7-ci bəndi bildirir ki, insan alveri qurbanlarına yardım göstərilməsi məlumatlandırılmış və razılaşdırılmış əsaslarla həyata keçirilməlidir. Həqiqətən də, insan alveri qurbanları onlara göstərilən xidmətlərə razılıq verməlidirlər.

---

[30] "İnsan alverinə qarşı mübarizə haqqında" Avropa Şurası Konvensiyası, maddə 12.1, http://coe.az/AZ/pdfdoc/konvensiyalar/PDF_Conv_197_Trafficking_Azeri.pdf

[31] "İnsan alverinə qarşı mübarizə haqqında" Avropa Şurası Konvensiyası, maddə 12.7, http://coe.az/AZ/pdfdoc/konvensiyalar/PDF_Conv_197_Trafficking_Azeri.pdf

[32] "İnsan alverinə qarşı mübarizə haqqında" Avropa Şurası Konvensiyası və İzahat Məruzəsi, səh 45, (152-156) http://coe.az/AZ/pdfdoc/konvensiyalar/PDF_Conv_197_Trafficking_Azeri.pdf

Məsələn, QİÇS kimi xəstəliklərin müəyyənləşdirilməsinin qanun çərçivəsində olması üçün insan alveri qurbanları buna razılıq verə bilməlidirlər. Bundan əlavə, təqdim edilən xidmətlər çıxılmaz vəziyyətə düşmüş adamların spesifik ehtiyaclarını və uşaqların yaşayış yeri, təhsil və sağlamlıqla əlaqədar hüquqlarını nəzərə almalıdır.

İnsan alveri qurbanı olmuş uşaqlar barəsində yardım göstərilərkən, onların xüsusi tələbatları nəzərə alınmalıdır. Bu xüsusiyyətlərin nəzərə alaraq, uşaqların birinci növbədə məktəb və peşə təhsilindən istifadə etmək imkanı təmin edilməlidir. Qurbanların sığınacaqla və sosial reabilitasiya yardımlarla təmin edilməsi, onların lazımı qaydada müdafiə olunması, maliyyə resursları ilə təmin edilməsidir. Mənşə və təyinat ölkələrində insan alveri qurbanlarına yardım prosesinə qoşulmuş QHT-lər, sosial işçilər və digər təşkilatlar arasında məlumat mübadiləsini aktivləşdirmək lazımdır. Bu insan alveri qurbanlarının problemlərinin daha da dərindən başa düşülməsi və onların sosial reabilitasiyası və cəmiyyətə reinteqrasiyası prosesinə köməklik edəcəkdir. İnsan alveri qurbanlarına yardım göstərən təşkilatlar mənşə ölkələrinin təşkilatları ilə əməkdaşlıq etməlidirlər. İnsan alveri qurbanları ciddi cinayətin qurbanları kimi qəbul edilməlidirlər. Onlar insan alveri cinayəti dövründə törətdikləri pozuntulara görə tutularaq, həbs edilərək, cinayət təqibinə məruz qalaraq və ya rüsvay edilərək təkrar qurbana çevrilməməlidirlər.

Avropa Şurasının Nazirlər Kabinetinin üzv dövlətlər üçün 09.09.1991-ci il tarixli "Gəlir əldə etmək üçün cinsi istismar, pornoqrafiya, fahişəlik, uşaq və yeniyetmələrin alveri" haqqında R(91)11 saylı Tövsiyəsinə əsasən, üzv dövlətlər riskə məruz qalmış uşaq və yeniyetmələrin müdafiə edilməsi, onların müəyyən edilməsi və bu cür cinayətlərin qarşısının alınması sahəsində xüsusiləşdirilmiş ictimai və özəl xidmətlərin yaradılması və fəaliyyət göstərməsi üçün tədbirlərin görülməsi tövsiyə olunur. Üzv dövlətlərə cinsi istismara məruz qalmış uşaq və yeniyetmələrə tibbi, psixoloji, sosial və hüquqi xidmətlərin göstərilməsi üçün yardım mərkəzlərin yaradılması təşəbbüsü ilə çıxış edən ictimai və özəl təşkilatları milli səviyyədə dəstəklənməsi üçün tədbirlərin görülməsi tövsiyə edilir.

[33]"İnsan alverinə qarşı mübarizə haqqında" Avropa Şurası Konvensiyası və İzahat Məruzəsi, səh.47, (171) http://coe.az/AZ/pdfdoc/konvensiyalar/PDF_Conv_197_Trafficking_Azeri.pdf

[34]"İnsan alverinin aradan qaldırılması və ona qarşı mübarizə haqqında" Brüssel Bəyannaməsi, "Əməkdaşlıq və koordinasiya üçün mexanizmləri, tövsiyələr, standartlar və qabaqcıl təcrübə" əlavə, maddə 13

[35]Avropa Şurasının Nazirlər Kabinetinin üzv dövlətlər üçün 09.09.1991-ci il tarixli "Gəlir əldə etmək üçün cinsi istismar, pornoqrafiya, fahişəlik, uşaq və yeniyetmələrin alveri" haqqında R(91)11 saylı Tövsiyəsi, maddə 10.c)

[36]Avropa Şurasının Nazirlər Kabinetinin üzv dövlətlər üçün 09.09.1991-ci il tarixli "Gəlir əldə etmək üçün cinsi istismar, pornoqrafiya, fahişəlik, uşaq və yeniyetmələrin alveri" haqqında R(91)11 saylı Tövsiyəsi, maddə 11



Avropa Şurasının Nazirlər Kabinetinin 31.10.2001-ci il tarixli 771-ci görüşündə qəbul edilmiş, "Uşaqların cinsi istismardan müdafiəsi haqqında" üzv dövlətlərinə (2001)16 saylı Tövsiyənin 15-ci və 16-cı maddələrində üzv dövlətlərə, cinsi istismara məruz qalmış uşaqların müəyyən edilməsi, onlara yardım edilməsi üçün xüsusi ictimai və özəl mərkəzlərin, həmçinin QHT-lərin yaradılması və ya mövcud mərkəzlərə dövlət dəstəyinin artırılmasını, və ya QHT-lərin mərkəzi rolunun artırılmasını təmin edilməsini tövsiyə edir. Həmin Tövsiyənin 49-cu və 50-ci maddələrində üzv dövlətlərə, fahişəliyə cəlb edilmiş uşaqlara maddi, psixoloji və digər müvafiq yardım növlərinin təqdim edilməsi və uşaqların yenidən fahişəliyə cəlb edilməməsinin təmin edilməsi tövsiyə olunur. Həmçinin, uşaqların tədris proqramlarının, onların peşə təhsilinin və uşaqların reinteqrasiya proqramlarının rolunun artırılmasının təmin edilməsi tövsiyə edilir.

"Uşaqların seksual istismarına dair" Avropa Şurasının 1099(1996) saylı, 25.09.1996-cı il tarixli Qətnaməsinin 11-ci maddəsinin ii bəndinə əsasən, Baş Assambleya üzv dövlətləri, cinsi istismarın qurbanı olmuş uşaqlara maarifləndirici və psixoloji qayğının artırılması üçün məlumatlandırıcı və profilaktik tədbirlərin keçirilməsinə çağırır.

Azərbaycan Respublikasının qanunvericiliyində də insan alveri qurbanlarının sosial reabilitasiyası və reinteqrasiyası üçün onlara müxtəlif yardımların göstərilməsi nəzərdə tutulmuşdur.

"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının qanununun 16.1-ci maddəsində, həmçinin Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19.11.2009-cu il tarixli, 180 nömrəli qərarı ilə təsdiq edilmiş, "İnsan alverinin qurbanı olmuş uşaqların sığınacaqda yerləşdirilməsi və saxlanılması Qaydaları"nın 2.2-ci maddəsinə əsasən, insan alveri qurbanı olmuş uşağa yardım göstərərkən onun xüsusi tələbatlarının nəzərə alınması göstərilmişdir. İnsan alverinin qurbanı olmuş uşağa yardım göstərilərkən, onun mənafeləri üstün tutulmalı, «Uşaq hüquqları haqqında» Azərbaycan Respublikasının Qanununa, «Uşaq hüquqları haqqında» BMT-nin Konvensiyasına, habelə Azərbaycan Respublikasının digər qanunlarına və tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun olaraq uşağın hüquqlarının və qanuni maraqlarının qorunması üçün bütün tədbirlər görülməlidir.

[37]Recommendation Rec(2001)16 of the Committee of Ministers to member states on the protection of children against sexual exploitation (Adopted by the Committee of Ministers on 31 October 2001
at the 771` meeting of the Ministers Deputies)

[38]Resolution 1099 (1996) on the sexual exploitation of children

[39]"İnsan alverinin qurbanı olmuş uşaqların sığınacaqda yerləşdirilməsi və saxlanılması Qaydaları" maddə 2.2

[40]"İnsan alverinin qurbanı olmuş uşaqların sığınacaqda yerləşdirilməsi və saxlanılması" Qaydaları, maddə 2 1

[41]"İnsan alverinin qurbanı olmuş uşaqların sığınacaqda yerləşdirilməsi və saxlanılması" Qaydaları, maddələr 2.3-2.5

Uşaqların sığınacaqda yerləşdirilməsi və saxlanılması könüllülük, konfidensiallıq, fərdi yanaşma, qurbanların mənafelərinin müdafiəsi, təhlükəsizliyin təmin edilməsi, bərabərlik, qurbanlara hörmət, təxirəsalınmaz yardım, yardımların pulsuz göstərilməsi prinsipləri əsasında həyata keçirilir.

Sığınacaq daxilində nəzərdə tutulmuş bütün xidmət və tədbirlər ilkin olaraq uşaqların maraq və ehtiyaclarına uyğunlaşdırılır. Kimliyindən asılı olmayaraq, sığınacağa yerləşdirilmiş bütün uşaqlara münasibətdə heç bir ayrı-seçkiliyə yol verilmir. Sığınacağa yerləşdirilmiş uşağın yaşı, kamillik səviyyəsi nəzərə alınmaqla, onların vəziyyəti, hüquqları, göstəriləcək xidmətlərə dair məlumatlar uşaqların dərk edəcəyi formada verilməlidir.

"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun 16.4 və 16.5-ci maddələrinə, "İnsan alveri qurbanları üçün xüsusi müəssisələrin yaradılması, maliyyələşdirilməsi, fəaliyyəti, habelə onların fəaliyyətinə nəzarət Qaydalarının 3.5 və 3.6-cı maddələrinə əsasən, sığınacaqlarda uşaqlar bir qayda olaraq, ayrıca yerləşdirilirlər. Uşağın mənafeyi nəzərə alınaraq, o, valideynləri ilə (uşağın insan alverinin qurbanı olmasına valideynlərinin səbəb olması güman edilən hallar istisna olmaqla) və ya uşağın psixoloji durumuna müsbət təsir göstərən digər şəxslərlə də yerləşdirilə bilər. Burada uşaqlara təhsillərini davam etdirmək, valideynləri ilə (uşağın insan alverinin qurbanı olmasına valideynlərinin səbəb olması güman edilən hallar istisna olmaqla) əlaqə və ünsiyyət saxlamaq imkanı yaradılır.

Qeyd olunan uşaqların təhsillərinin davam etdirilməsi, valideynləri ilə əlaqə və ünsiyyət saxlamaq imkanının yaradılması həmçinin, "İnsan alveri qurbanlarının müvəqqəti yaşaması üçün sığınacaq haqqında" Nizamnaməsinin 3.3-cü maddəsində qeyd olunmuşdur.

İnsan alveri qurbanlarının sosial reabilitasiyası həyata keçirilərkən onların, xüsusən uşaqların yaşı, cinsi və tələbatları, o cümlədən zəruri təhlükəsiz sığınacaq, təhsil və qayğıya olan ehtiyacları nəzərə alınmalıdır.

Sığınacağa yerləşdirilən uşaqlara zəruri tibbi, psixoloji, hüquqi, sosial yardımlar göstərilir, onlara təhsillərini davam etdirmək imkanı yaradılır. Sığınacaqda uşaqların şəxsiyyətinin anonimliyi təmin edilir. Sığınacaqda yerləşdirilmiş uşaqlara onların hüquq və mənafelərini müdafiə edən şəxslərlə (həmin şəxsin uşağın insan alverinin qurbanı olmasına səbəb olması güman edilən hallar istisna olmaqla) əlaqə və ünsiyyət saxlamaq imkanı yaradılır. Sığınacaqda yerləşdirilən uşaqlara yardım göstərilərkən onların yaşı, cinsi və tələbatları nəzərə alınır və hər bir uşaq barəsində sosial reabilitasiya proqramı hazırlanır. Sığınacaqda uşaqlara telefonla danışmaq və tərcüməçinin imkanlarından istifadə etmək imkanı verilir. Sığınacaqda yerləşdirilmiş uşaqların təhlükəsizliyi qanunvericiliyə müvafiq şəkildə təmin edilir.

İnsan alveri qurbanı olmuş uşaqların sosial reabilitasiyasının həyata keçirilərkən onların xüsusi ehtiyaclarının nəzərə alınması, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 19.11.2009-cu il tarixli, 180 nömrəli qərarı ilə təsdiq edilmiş, "İnsan alverinin qurbanı olmuş uşaqların sığınacaqda yerləşdirilməsi və saxlanılması Qaydaları"nda da öz əksini tapmışdır.



Ölkəmizdə qəbul edilmiş digər normativ sənəddə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 07.03.2008-ci il tarixli, 66 nömrəli qərarı ilə təsdiq edilmiş "Yetkinlik yaşına çatmayanlar üçün ixtisaslaşdırılmış sosial reabilitasiya müəssisələrində yetkinlik yaşına çatmayanlara xidmət göstərilməsi Qaydası"na əsasən, həyatda çətin vəziyyətə düşmüş və təcili dövlət yardımına ehtiyacı olan yetkinlik yaşına çatmayanlara sığınacaqda aşağıdakı xidmətlər göstərilir:

•sanitariya-gigiyena normalarına uyğun şəraitə malik müvəqqəti sığınacaq verilməklə, onların pulsuz yemək, geyim, tibbi yardımla təmin edilməsi və normal inkişafı üçün hər cür şəraitin yaradılması;

•psixoloji və hüquqi yardımın göstərilməsi;

•sosial təhlükəli vəziyyətdə olan ailələrə psixokorreksiya yardımı göstərilməklə, yetkinlik yaşına çatmayanların ailə mühitinə qaytarılması.

Həyatda çətin vəziyyətə düşmüş yetkinlik yaşına çatmayanlara mərkəzdə aşağıdakı xidmətlər göstərilir:

•sanitariya-gigiyena normalarına uyğun şəraitdə yerləşdirilməsi, onların normal inkişafı üçün hər cür şəraitin yaradılması, lazım gəldikdə isə pulsuz yemək, geyim və tibbi yardımla təmin edilməsi;

•psixoloji və hüquqi yardımın göstərilməsi;

•kimsəsiz uşaqların daimi yaşayış yerinin müəyyənləşdirilməsi və mərkəzdə yerləşdirilməzdən əvvəl onların sosial adaptasiyası, fiziki və emosional inkişafı məqsədi ilə həmin uşaqlara fərdi sosial reabilitasiya proqramlarına uyğun olaraq lazımi yardımın göstərilməsi;

•yetkinlik yaşına çatmayanların təhsil səviyyəsinin müəyyənləşdirilməsi və təhsilinin davam etdirilməsi üçün fərdi qaydada və ya kiçik qruplarda lazımi təlimin aparılması;

•yetkinlik yaşına çatmayanların yaradıcılıq qabiliyyətlərinin inkişaf etdirilməsi məqsədi ilə fərdi işin aparılması, onların sağlamlaşdırılmasına və istirahətinin təşkilinə yardım edilməsi;

•sosial təhlükəli vəziyyətdə olan ailələrə psixokorreksiya yardımı göstərilməklə, yetkinlik yaşına çatmayanların ailə mühitinə qaytarılması;

•yetkinlik yaşına çatmayanlar arasında baxımsızlığa gətirən səbəblərin araşdırılması və qarşısının alınması istiqamətində profilaktik işin aparılması;

•yetkinlik yaşına çatmayanlara müvafiq xidmət göstərilməsinə sosial reabilitasiyanın müasir metodikalarının və texnologiyalarının tətbiq edilməsi;

[42]"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu, maddələr 16 4 və 16.5

[43]İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi Qaydaları, maddə 6.6

[44]"İnsan alverinin qurbanı olmuş uşaqların sığınacaqda yerləşdirilməsi və saxlanılması" Qaydaları, maddə 6

•mərkəzdə olan şəxs yetkinlik yaşına çatdıqda, onun məşğulluq xidməti orqanının köməkliyi ilə işlə təmin olunması və ya peşə hazırlığı kurslarına cəlb edilməsi, eləcə də belə şəxslərin cəmiyyətə sabit reinteqrasiyasının təmin olunması məqsədi ilə onlara müvafiq hüquqi və təşkilati dəstək göstərilməsi;

•yetkinlik yaşına çatmayanların çətin həyat şəraitinin aradan qaldırılmasında, onların yaşayış yerində, təhsil müəssisələrində, iş yerlərində sosial statusunun bərpa edilməsində yetkinlik yaşına çatmayanlara, onların valideynlərinə və ya digər qanuni nümayəndələrinə sosial, psixoloji və digər köməklik göstərilməsi, yetkinlik yaşına çatmayanların ailələrinə qayıtması üçün tədbirlərin görülməsi.

İnsan alveri qurbanlarının sosial reabilitasiya və reinteqrasiya dövründə onlara göstərilən yardımlar barədə daha bir normativ aktda göstərilmişdir. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 11.08.2009-cu il tarixli, 123 nömrəli qərarı ilə təsdiq edilmiş, "İnsan alveri qurbanları ilə bağlı Milli İstiqamətləndirmə Mexanizmi Qaydaları"nda öz əksini tapmışdır.

İnsan alveri qurbanlarının sosial reabilitasiyası və onların reinteqrasiyası üçün onlara yardım edilməsi sahəsində Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş tədbirlərin əksəriyyəti təcrübədə həyata keçirilir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 09.11.2005-ci il tarixli 203 saylı qərarına əsasən, Bakı şəhərində insan alveri qurbanlarının müvəqqəti yaşaması üçün xüsusi müəssisə - sığınacaq təsis edilmişdir. Bu məqsəd üçün Bakı şəhərində 3 mərtəbəli bina ayrılmışdır. Burada 50 çarpayı yerləşdirilmişdir. Bina tam təmir edilmiş və beynəlxalq standartlara uyğun müasir avadanlıqlarla təchiz edilmişdir. Sığınacaqda, mətbəx və yemək otağı, 22 yataq otağı, hər mərtəbədə sanitar qovşaq və duş otaqları, sığınacağın işçiləri üçün otaqlar, anbar, camaşırxana, psixoloji yardım üçün otaq, müsahibə otağı, görüş otağı (ailə və yaxınları ilə), idman zalı, uşaqlar üçün dərs otağı, uşaqlar üçün oyun otağı, tele-video aparatura ilə təchiz edilmiş dincəlmək üçün xollar insan alveri qurbanlarının istifadəsindədir. Sığınacağın eyni zamanda 50 nəfəri yerləşdirmək imkanı vardır.

İnsan alveri qurbanı olmuş uşağın reinteqrasiyası üçün onun ailəsi öyrənilir, ailə üzvləri ilə əlaqələr saxlanılır, mediasiya işləri aparılır, eyni zamanda, qəyyumluq və himayəçilik şöbələri ilə, uşaq evləri, internat məktəbləri və uşaqların hüquqlarının müdafiəsinin həyata keçirən dövlət orqanları və QHT-lərlə danışıqlar aparılır.

Azərbaycan Respublikasının qanunvericiliyində insan alveri qurbanlarına düşünmə üçün vaxtın verilməsi nəzərdə tutulmayıb.

[45]"Yetkinlik yaşına çatmayanlar üçün ixtisaslaşdırılmış sosial reabilitasiya müəssisələrində yetkinlik yaşına çatmayanlara xidmət göstərilməsi" Qaydası, maddə 2



Qanunvericilikdə insan alveri qurbanlarına düşünmə və özünə gəlmə üçün vaxt verilməsi nəzərdə tutulmasa da, Avropa Şurasının hüquqi sənədlərində nəzərdə tutulmuş insan alveri qurbanlarının ölkədən çıxarılmaması məsələsi öz əksini tapmışdır.

Belə ki, Azərbaycan Respublikasının "İnsan alverinə qarşı mübarizə haqqında" qanuna əsasən, əcnəbi və ya vətəndaşlığı olmayan şəxs insan alverindən zərər çəkmiş şəxs hesab olunduqda, onun barəsində 1 il müddətində Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartma tətbiq edilmir. Bundan başqa, əgər bir ildən sonra əcnəbi və ya vətəndaşlığı olmayan şəxs insan alveri ilə bağlı cinayət işləri üzrə cinayət təqibi orqanlarına yardım göstərirsə, onun Azərbaycan Respublikasından inzibati qaydada çıxarılma cinayət təqibi başa çatana qədər tətbiq olunmur. Həmçinin insan alverinin qurbanı olan uşaqlar barəsində Azərbaycan Respublikasının hüdudlarından kənara inzibati qaydada çıxartma tətbiq olunmur. İnsan alverinin qurbanı olmuş uşaqların öz ölkələrinə, yaxud valideynlərinə qaytarılmasına yalnız uşağın yenidən insan alverinin qurbanı olması ehtimalı istisna edildikdə yol verilir. İnsan alverinin qurbanı olmuş uşaqların öz ölkələrinə, yaxud valideynlərinə qaytarılması məsələsi həll olunarkən 10 yaşından böyük uşaqların məsələyə dair münasibəti öyrənilir və nəzərə alınır.

"İnsan alverinə qarşı mübarizə haqqında" Avropa Şurasının Konvensiyanın 14–cü maddəsinə əsasən, hər Tərəf qurbanlara aşağıdakı iki haldan birində və ya hər ikisində yeniləşdirilmiş qeydiyyat vəsiqəsi (yaşamaq üçün icazə) verməlidir.

Qanun uşaqlara qeydiyyat vəsiqəsinin verilməsini tələb etdiyi hallarda uşaqların maraqları nəzərə alınmalı və lazım gələrsə, həmin şərtlər altında yeniləşdirilməlidir. Qeydiyyat vəsiqələrinin yeniləşdirilməməsi və ya geri alınması Tərəflərin öz daxili qanunlarının şərtlərindən asılıdır. Əgər alver qurbanı başqa cür qeydiyyat vəsiqəsi almaq üçün müraciət edirsə, aidiyyəti Tərəf onun birinci bəndə uyğun gələn qeydiyyat vəsiqəsi olduğunu hesaba almalıdır. Tərəflərin bu Konvensiyanın 40-cı Maddəsində müəyyən edilmiş öhdəliklərini nəzərə alaraq, hər Tərəf əmin olmalıdır ki, qeydiyyat vəsiqələrinin bu şərtlərə müvafiq olaraq verilməsi qurbanların sığınacaq axtarmaq və almaq hüquqlarını pozmur.

[46]"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu, maddə 20.1
[47]"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu, maddə 20.5
[48]"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu, maddə 20.3
[49]"İnsan alverinə qarşı mübarizə haqqında" Avropa Şurası Konvensiyası, maddə 14.2, http://coe.az/AZ/pdfdoc/konvensiyalar/PDF_Conv_197_Trafficking_Azeri.pdf

Uşaqlara gəlincə, onların maraqlarına üstünlük verilir: Konvensiyaya görə uşaqlar üçün qeydiyyat vəsiqəsi (pasport) "uşaqların maraqlarına uyğun olaraq verilməlidir və lazım gələrsə, həmin şərtlərə əsasən təzələnməlidir" "Qanunla tələb olunursa" sözləri ona görə əlavə olunur ki, bəzi ölkələrdə uşaqlar üçün qeydiyyat vəsiqəsi (pasport) tələb edilmir. Konvensiya pasportun müddətini müəyyən etməyi Tərəflərin ixtiyarına buraxır, lakin Tərəflər bu müddəti qərarların şərtlərinə uyğun olaraq müəyyənləşdirməlidirlər. Məsələn, Avropa Birliyinin 29.04.2004-cu il tarixli göstərişinə əsasən insan alverinin qurbanları olan və ya qanunsuz mühacirət obyekti olan, səlahiyyətli şəxslərlə əməkdaşlıq edən üçüncü ölkələrin vətəndaşları üçün bu müddət minimum 6 ay müəyyənləşdirilmişdir. Konvensiya pasportlar üçün heç bir müddət müəyyənləşdirməsə də, onların təzələnə bilməsini şərtləndirir. 3-cü bəndə əsasən, pasportun təzələnməməsi və ya geri alınması hər bir Tərəfin daxili qanunlarının şərtlərindən asılıdır. İnsan alverinin qurbanı olmuş uşaqların öz ölkələrinə, yaxud valideynlərinə qaytarılmasına yalnız uşağın yenidən insan alverinin qurbanı olması ehtimalı istisna edildikdə yol verilir. İnsan alverinin qurbanı olmuş uşaqların öz ölkələrinə, yaxud valideynlərinə qaytarılması məsələsi həll olunarkən 10 yaşından böyük uşaqların məsələyə dair münasibəti öyrənilir və nəzərə alınır. İnsan alverinin qurbanı Azərbaycan Respublikasının hüdudlarını tərk etmək arzusunda olduqda, onun müvafiq sənədlərlə təmin edilməsinə, nəqliyyat və digər zəruri xərclərin ödənilməsinə köməklik göstərilir, qəbul ediləcəyi ölkədə insan alverinin qurbanı olması təhlükəsinin azaldılmasına dair tövsiyələr verilir.

İnsan alveri qurbanlarına kompensasiya və dəyən zərərin ödənilməsi Avropa Şurasının digər hüquqi sənədlərində də öz əksini tapmışdır. Avropa Şurasının Nazirlər Kabinetinin üzv dövlətlər üçün 09.09.1991-ci il tarixli "Gəlir əldə etmək üçün cinsi istismar, pornoqrafiya, fahişəlik, uşaq və yeniyetmələrin alveri" haqqında R(91)11 saylı Tövsiyəsində, üzv dövlətlərə cinsi istismara məruz qalmış uşaq və yeniyetmələrin müvafiq kompensasiya almaları üçün tədbirlərin görülməsi və bu cinayət ilə bağlı əldə edilmiş gəlirin müsadirə edilməsi və alınması ilə bağlı imkanların yaradılmasını təmin etmək tövsiyə edilir.

Ölkəmizin qanunvericiliyini Avropa Şurasının hüquqi sənədləri ilə müqayisə etdikdə müəyyən olunur ki, insan alveri qurbanlarının repatriasiyası prosesində Avropa Şurasının öz sənədlərində nəzərdə tutduğu tələblər Azərbaycan qanunvericiliyində öz əksini tam şəkildə tapmamışdır. Məsələn, Avropa Şurası öz sənədlərində tələb edir ki, insan alveri qurbanlarının repatriasiyası qurbanların hüquqlarının, təhlükəsizliyi, şərəf və ləyaqətinin təmin olunması əsasında aparılır. Həmçinin insan alveri qurbanlarının öz ölkədə onları gözləyən risklər araşdırılmalıdır. Bundan başqa insan alveri qurbanlarının repatriasiyası zamanı onların öz ölkələrində fəaliyyət göstərən insan alveri qurbanlarına yardım edən QHT-lər, hüquq mühafizə orqanları, sosial müdafiə orqanları, hüquq müdafiəçiləri, vəkillər v.s. barədə



məlumatların verilməsi Avropa Şurasının Konvensiyasının 16-cı maddəsinin 6-cı bəndində nəzərdə tutulmuşdur.

Azərbaycan qanunvericiliyində isə, "İnsan alverinin qurbanı Azərbaycan Respublikasının hüdudlarını tərk etmək arzusunda olduqda, onun müvafiq sənədlərlə təmin edilməsinə, nəqliyyat və digər zəruri xərclərin ödənilməsinə köməklik göstərilir, qəbul ediləcəyi ölkədə insan alverinin qurbanı olması təhlükəsinin azaldılmasına dair tövsiyələr verilir."

[50] "İnsan alverinə qarşı mübarizə haqqında" Avropa Şurası Konvensiyası, maddə 14.3, http://coe.az/AZ/pdfdoc/konvensiyalar/PDF_Conv_197_Trafficking_Azeri.pdf

[51] "İnsan alverinə qarşı mübarizə haqqında" Avropa Şurası Konvensiyası, maddə 14.4, http://coe.az/AZ/pdfdoc/konvensiyalar/PDF_Conv_197_Trafficking_Azeri.pdf

[52] "İnsan alverinə qarşı mübarizə haqqında" Avropa Şurası Konvensiyası, maddə 14.5, http://coe.az/AZ/pdfdoc/konvensiyalar/PDF_Conv_197_Trafficking_Azeri.pdf

[53] "İnsan alverinə qarşı mübarizə haqqında" Avropa Şurasının Konvensiyası və İzahat Məruzəsi, səh.49, (184-188) http://coe.az/AZ/pdfdoc/konvensiyalar/PDF_Conv_197_Trafficking_Azeri.pdf

[54] "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu, maddələr 20.3 və 20.4

[55] Avropa Şurasının Nazirlər Kabinetinin üzv dövlətlər üçün 09.09.1991-ci il tarixli "Gəlir əldə etmək üçün cinsi istismar, pornoqrafiya, fahişəlik, uşaq və yeniyetmələrin alveri" haqqında R (91) 11 saylı Tövsiyəsi, maddə 15

[56] Avropa Şurasının Nazirlər Kabinetinin üzv dövlətlər üçün 09.09.1991-ci il tarixli "Gəlir əldə etmək üçün cinsi istismar, pornoqrafiya, fahişəlik, uşaq və yeniyetmələrin alveri" haqqında R (91) 11 saylı Tövsiyəsi, maddə 16

[57] "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu, maddələr 20.3 və 20.4

## TÖVSİYƏLƏR

**1.İnsan alveri qurbanına çevrilmiş uşaqlara, uşaq və qurban statusu ilə yanaşılması üçün tədbirlər görülməlidir;** Qəyyum statusunun ixtisaslaşmış QHT-lərə verilməsinin zəruriliyi (bir çox hallarda QHT-lər tərəfindən aşkarlanan uşaq və yeniyetmələrin məcburi əmək və dilənçiliyə məcbur edilmə faktlarını insan alveri qurbanlarını müəyyən etmək üçün indikatorlara uyğun olaraq müəyyən etdiyi halda, qəyyum statusuna malik olan qurumlar (İcra hakimiyyəti yanında qəyyumluq orqanları) bunu inzibati xəta əməli kimi qiymətləndirirlər. Nəticədə bu da uşaq və yeniyetmənin insan averi qurbanı olması riskini yüksəldir.)

**2.Uşaq və yeniyetmələrin insan alveri təhlükəsi, eləcə də həyati bacarıqların artırılmasına dair məlumat xarakterli xüsusi profilaktik proqramların hazırlanması;** Maarifləndirici xarakterli məlumatlandırma kampaniyalarının keçirilməsi, bukletlərin hazırlanaraq təhsil və təlim-tərbiyə müəssisələrinə paylanması, seminarların keçirilməsi, həssas ailələr haqqında məlumat bazasının yaradılması, sosial çarxların hazırlanması və s.

**3.Uşaqların və onların ailələrini insan alverin asılılığına salan səbəbləri aradan qaldırmaq üçün köklü tədbirlərin həyata keçirilməsi;** Sosial müdafiə proqramlarının hazırlanması, reabilitasiya və reinteqrasiya mərkəzlərinin yaradılması (regionlarda, eləcə də böyük şəhərlərdə). Yetkinlik yaşına çatmayanların öz valideynləri və ya başqa şəxslər tərəfindən avaralığa cəlb edilməsinə görə (avaralıqla məşğul olan dedikdə - müəyyən yaşayış yeri və yaşamağa vəsaiti olmayan, hər hansı ictimai faydalı işlə və ya peşə fəaliyyəti ilə məşğul olmayan (qanunvericiliklə müəyyən edilmiş qaydada işsiz statusu almış şəxslər istisna olmaqla), mütəmadi olaraq xırda oğurluq və ya dilənçilik yolu ilə dolanan şəxslər başa düşülür.) həmin əməlin inzibati xəta sayılması və bu əmələ görə kiçik məbləğdə cərimə və ya 15 günlük inzibati həbsin nəzərdə tutulması göstərilən əməlin ictimai təhlükəlilik dərəcəsinə və xarakterinə adekvat olmaması səbəbindən cinayət məcəllesinə xüsusi norma kimi daxil edilməlidir.

**4.Təhlükəsizlik və insan alveri faktının aşkarlanmasının asanlaşdırılması məqsədilə potensial insan alveri qurbanlarının da DİN İAQMİ-nin nəzdində fəaliyyət göstərən Sığınacağında yerləşdirilməsi istiqamətində işlər görülməlidir;** 2009-cu ildən İnasan Alveri qurbanları Sığınacağının tərkibində Uşaq Sığınacağı da yaradılmışdır. Sığınacağa ancaq uşağa qarşı cinayət fakti təsdiqini tapdıqdan sonra yerləşdirmək mümkündür. Bəzi hallarda baxımsız vəziyyətdə olan uşaqlarla iş aparılarkən onların arasında potensial və ehtimal olunan uşaqlar da aşkarlanır. Ancaq onların təhlükəsizliyini təmin edərək, ailəsindən və ya ətrafından təcrid olunaraq ona qarşı zorakılıq faktının aşkarlanması üçün bu tipli Sığınacaqda yerləşdirilmə həyata keçirilmir. Bu səbəbdən DİN İnsan Alverinə Qarşı mübarizə İdarəsinin tabeçiliyində olan İAQ Sığınacağına yerləşdirilməsi daha məqsədə uyğun ola bilər.





**QADIN KRİZİS MƏRKƏZİ** 2001-ci ildə yaradılmışdır, əsas məqsədi zorakılığa məruz qalmış qadınlara hüquqi, tibbi və psixoloji yardım göstərməkdir. Mərkəzdə – «qaynar xətt» fəaliyyət göstərir ki, ehtiyacı olanlar həmin «qaynar xətt»-ə müraciət edirlər. Mərkəzdə bütün xidmətlər pulsuzdur və müraciətlilərin anonimliyi qorunur. 2010-cu ildən 2012-ci ilə qədər olan müddət ərzində 53 insan alverinin qurbanı olmuş şəxs və ya onların yaxın qohumları mərkəzə müraciət etmişdir.

Müraciət edənlərə yardım edilmiş, onlar məlumatlandırılmış və müvafiq dövlət orqanlarına göndərilmişdirlər. Təşkilata müraciət edənlərin bir qismi yaxın qohumları tərəfindən, digər qismi isə rəfiqələri və tanışları tərəfindən aldadılmaqla insan alverinin qurbanına çevrilmişlər.

"Qadın Krizis Mərkəzi"nin məqsədi - qadınların və uşaqların zorakılıqdan müdafiəsi, insan alveri qurbanlarına hüquqi yardımın göstərilməsi, bu sahədə hüquqi araşdırmaların aparılması, hüquqi maarifləndirmədir. Mərkəz bir QHT kimi öz imkanlarında istifadə edərək insan alveri qurbanlarına (qadınlara) hüquqi yardımın göstərilməsi sahəsində kifayət qədər təcrübə əldə etmişdir. İnsan alverinin qurbanları olmuş şəxs Mərkəzə müraciət edən zaman başına gəlmiş hadisəni danışmamışdan əvvəl onun məxfi saxlanılacağına dair təminat almaq istəyir. Müşahidələr göstərir ki, bu hal müraciət edən tərəfindən güman etmək olar ki, birinci addım sayılır, çünki insan alverinin qurbanı olmuş şəxs başına gələn hadisəni danışdıqdan sonra bu məlumatın başqa şəxslərə ötürülməsi nəticəsində ona aid olan məsələnin kimlərəsə açıqlanması onun gələcəkdə şəxsi həyatına mənəvi təsir edəcəyindən bir növü təminat alır.

Mərkəzə edilmiş müraciətlərin üzərində ümumiləşdirmə aparılan zaman məlum olur ki, əksəriyyət müraciət edənlərin hüquqi məlumatları çox aşağı səviyyədədir. Yəni insan alverinin qurbanına çevrilmiş şəxs, qarşı tərəfin ona qarşı törətdiyi cinayət əməlinin həyata keçirilməsində sanki özünün də günahının və məsuliyyətinin olması qənaətinə gəlir. Bu zaman insan alverinin qurbanı olmuş şəxs baş vermiş hadisənin birbaşa hüquq mühafizə orqanlarına çatdırmasına ehtiyat edir. Çünki insan alverini qurbanı olmuş, yəni qeyd edilən cinayət əməlindən zərərçəkmiş şəxs cinayət törədənin nə kimi məsuliyyətə cəlb ediləcəyi, həmçinin özünün nə kimi hüquqları vardır kimi hüquqi biliklərdən xəbərsiz olur. Qeyd etmək lazımdır ki, insan alverinin qurbanı olmuş şəxsin başına gəlmiş hadisəni hüquq mühafizə orqanlarına çatdırması üçün hüquq mühafizə orqanlarında münasib şəraitin yaradılmamağı əsas şərtlərdən biridir. Hüquqi mühafizə orqanları-cinayət törətmiş insan alverçisinin əməlinə hüquqi qiymətin verilməsi və həmin şəxsin cinayət məsuliyyətinə cəlb edilməsi məsələsində müstəsna hüquqa malikdirlər. Təcrübə göstərir ki, baş vermiş cinayət barədə məlumatlar Hüquq mühafizə orqanlarına vaxtında veriləndə həmin cinayətlərin araşdırılması

daha da effektli olur. İnsan alveri qurbanının başına gəlmiş hadisənin hüquqi nəticələri – insan alverinin qurbanı olmuş şəxsə öncə açıqlanmalıdır. Bu açıqlama zamanı hüquqi dil izahlı, başa düşülən sadə formada olmalıdır. Hazırda qüvvədə olan "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun 1.0.1-ci maddəsində insan alveri - zor tətbiq etmək hədəsi ilə və ya zor tətbiq etməklə, hədə-qorxu və ya digər məcbur etmə vasitələri ilə, oğurlama, dələduzluq, aldatma yolu ilə, təsir imkanlarından və ya zəiflik vəziyyətindən sui-istifadə etməklə, yaxud digər şəxsə nəzarət edən şəxsin razılığının alınması üçün maddi və sair nemətlər, imtiyazlar və ya güzəştlər verməklə və ya almaqla insanların istismar məqsədilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi (uşağın istismar məqsədilə cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsi, bu maddədə göstərilən üsullardan istifadə olunmasa da, insan alveri hesab edilir) kimi anlayışla verilmişdir. Burada qeyd edilən anlayış göründüyü kimi çox əhatəlidir və nəticə etibarı ilə mürəkkəbdir. Yəni fikrimizi insan alverinin qurbanına sadə dildə ifadə etmək üçün mövcud qanunun bu maddəsini imkan daxilində başa düşülən formada açıqlamaq lazım gəlir. Bu qanun xüsusi qanun olduğu səbəbdən gərəkdir ki, qeyd edilən maddə yəni insan alveri anlayışında qeyd edilənlərə ayrıca açıqlama gətirilsin. Düzdür, bu anlayışın belə formalaşması Qanunverici orqanın üzərinə düşür-bütün bunlara baxmayaraq qanununda müvafiq izahlı dildə dəyişikliyin edilməsi qanunla mümkündür. Çünki insan alverinin qurbanı olmuş şəxs üçün birbaşa maraqlı olan odur ki, özü hadisəni kimsəyə açıqlanmamışdan qabaq özü qanunla şəxsən tanış olsun və qanunvericiliyin hüquqi təminatını ala bilsin.

Qeyd etdiyimiz kimi təcrübə göstərir ki, adətən insan alverinin qurbanlarının təhsil səviyyələri aşağı olur. Bütün bunlara baxmayaraq insan alverinin qurbanı olmuş şəxsin, həmçinin onunun müdafiəsi ilə məşğul olacaq QHT və digər müvafiq qurumların nümayəndələri qanunun sadə formada olmasından daha çox bəhrələnə bilərlər. Məsələn, götürək Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin 144-1-ci maddəsini, həmin maddədə yazılır ki, İnsan alveri, yəni şəxsin alqı-satqısı və ya ona sahiblikla əlaqədar digər əqdlərin bağlanması, yaxud onun istismar edilməsi məqsədilə Azərbaycan Respublikasının dövlət sərhədindən keçirilməsi üçün və ya eyni məqsədlə digər şəxslərə verilməsi üçün cəlb edilməsi, əldə edilməsi, saxlanılması, gizlədilməsi, daşınması, verilməsi və ya qəbul edilməsidir. Azərbaycan Respublikasının Cinayət Məcəllesinin 144-1-ci maddəsində də verilən anlayışla «İnsan alverinə qarşı mübarizə haqqında» Azərbaycan Respublikasının Qanununun 1.0.1-ci maddəsində verilən insan alverinə anlayış arasında fərq vardır.

Buradan belə çıxır ki, "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun 1.0.1-ci maddəsində sadalanan əməllərin dairəsi Cinayət Məcəllesinin 144-1-ci maddəsində əksini tapmış əməllərdən daha



çoxdur. Həmçinin "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiya və onu tamamlayan "İnsan alverinin, xüsusilə qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" Protokolunda maddə 3-də qeyd edilir ki, a) İnsan alveri anlayışı istismar məqsədi ilə insanların cəlb edilməsi, daşınması, bir yerdən digərinə aparılması, sığınacaq verməsi, borc iltizamlarından istifadə edilməsi, hədələmək, güc tətbiq etmək və ya başqa fiziki təzyiq üsulları ilə insanların oğurlanması, qorxudulması. Aldadılması, onların çıxılmaz vəziyyətində olmalarından istifadə edilməsi, pul vermək və ya pul almaq yolu ilə bir tərəfin başqa biri üzərində ağalığına nail olması kimi başa düşüləcəkdir. İstismar anlayışı, ən azı başqa seksual istismar formalarını, məcburi əmək və xidmətləri, qul kimi satılmağı və ya buna oxşar halları və hətta insan orqanlarının kəsib götürülməyini nəzərdə tutur.

Protokolun müvafiq maddəsindən göründüyü kimi, insan alveri anlayışı daha geniş verilmişdir. İnsan alveri cinayəti törətmişlərin əməlinə hüquqi qiymətin verilməsi baxımından anlayışın özü mühüm rol oynayır. Bu baxımdan nəzərdən qaçırmaq lazım deyildir ki, Cinayət Məcəllesində mövcud olan insan alveri maddəsinin dispozisiyası münasibətlər dairəsini müəyyənləşdirir. Bu münasibətlər dairəsindən kənarda olanlar həmin maddənin təsiri altına düşməyəcəkdir.

Qadın Krizis Mərkəzi Gürcüstan Respublikasının "Harmonik İnkişaf Cəmiyyəti" ilə sıx əməkdaşlıq edir. Belə ki, Gürcüstanda İnsan alverinin qurbanı statusunu almış Özbəkistandan olan qadınların öz vətənlərinə qayıtmaları üçün müvafiq sənədləşmə işinə köməklik edir.

Mərkəzə müraciət etmiş şəxslərə sadə, başa düşülən formada qüvvədə olan mövcud normativ hüquqi aktlar barəsində izahlar verilir və həmin şəxslərə hüquqi yardımlar göstərilir.

Mərkəzə müraciət etmiş şəxs barəsində aşağıdakı məlumatlar maraqlı ola bilər:

Nazlının (ad şərtidir) zəiflik vəziyyətindən sui-istifadə edərək əri onu işlədiyi yerdə müəyyən imtiyazlar və güzəştlər əldə etmək məqsədilə özünün tabe olduğu şəxslə cinsi əlaqədə olmağa sövq edirdi. Nazlının savadsızlığı, maddi imkanlarının məhdud olması, ərindən tam maddi asılılığı, ona çətin anda dəstək olacaq qohum-əqrəbasının olmaması, uşaq olarkən atasının onları atıb getməsi, ər evinə gəlməmişdən əvvəl anası ilə kirayədə yaşaması onun sosial dayaqlarının zəif olmasının gıstəriciləridir. O, ərə gedəndən sonra anası ölmüş, əri ilə gedib qaldığı ərazinin qapalı olması və həmin yerdə cinsi istismara məruz qalması, bir daha göstərirdi ki, o, özünü müdafiə etmək alətlərindən (hüquq müdafiəsi ilə məşğul olan təşkilatlara müraciət etmək-birbaşa getmək, ərizə yazmaq, telefon açmaq və s.) məhrum olmuşdur. Nazlı ilə əri arasında yaş fərqi 12 il idi, yəni əri ondan 12 yaş böyük idi. Ər fiziki görkəm baxımından təxminən ondan iki dəfə böyük, xüsusi təlim görmüş hərbçi idi. Nazlının dediyinə görə ərə qarşı hər hansı itaətsizlik əri tərəfindən ona qarşı müvafiq cəza verilməsi ilə nəticələnə bilərdi və cəza verilən zaman

heç kim onu müdafiə etməyəcəkdi.

Nazlı Mərkəzə müraciət edərkən başına gəlmiş hadisəni çox həyəcanlı formada danışırdı, əlbəttə ona şərait yaradılırdı ki, söylədiyi fikirlərə müdaxilə olunmasın və o, sözünü axıra qədər deyə bilsin. Nazlı danışdıqları göstərirdi ki, o, insan alverinin qurbanı olmuş olsa da qarşı tərəf cəzasız qalmışdır.

Nazlını tam dinlədikdən sonra aydın olur ki, onun nikaha daxil olmasl, ərinin regionda yerləşən müəssisədə çalışması, ərinin tabe olduğu rəislər tərəfindən onun cinsi istismara məruz qalması, bundan faydalanaraq ərinin iş yerində müəyyən güzəştlər əldə etməsi əri tərəfindən əvvəlcədən düşünülmüş və planlaşdırılmışdır. Nazlı regiondan şəhərə qaynanası yaşadığı mənzilə əri tərəfindən gətirilmiş və orada da qaynanası tərəfindən gəlir əldə etmək məqsədilə cinsi istismara məruz qalmışdır. Qaynanası əvvəlcədən müəyyən şəxslərdən müəyyənləşdirilmiş məbləğdə pulu əldə edərək onun cinsi istismarından mənfəət əldə edirdi. Nazlının başına gətirilən bu hadisələrin əsas səbəbkarları barədə müvafiq hüquq mühafizə orqanlarına məlumat verməməsi əri və qaynanası tərəfindən ona qarşı zor tətbiq etmək hədəsi və ya digər məcbur etmə vasitələrinin baş verə biləcəyi ilə bağlı olmuşdur. Nazlının anası vəfat etmiş, atası isə - uşaq olanda anasını və onu tərk edib getmiş və heç vaxt onlarla maraqlanmamışdır. Odur ki, Nazlı ərini tərk edərsə hara gedəcəyini və necə yaşayacağını bilmirdi.

Nazlı insan alverinin qurbanına çevrilməklə yanaşı ərinin və qayınanasının tapşırıqlarını yerinə yetirməkdən imtina etdikdə onlar onu evdən qovmuşdular. Mərkəz tərəfindən Nazlıya mənzil, əmlak və digər hüquqlarının müdafiəsi ilə bağlı ətraflı hüquqi məlumat verilmiş və hüquqi yardım göstərilmişdir. Mərkəz tərəfindən müvafiq rayon məhkəməsinə nikahın pozulmasına dair iddia ərizəsi tərtib edilmiş, lazımi sənədlərin iddia ərizəsinə əlavə edilməsində kömək göstərilmişdir. Eləcə də, nikah münasibətlərindən yaranmış hüquqların əldə edilməsi istiqamətində Nazlıya hüquqi məsləhətlər verilmiş, izah edilmişdir ki, onun əri ilə birgə yaşadığı mənzildən istifadə hüququnun tanınması ilə bağlı məhkəməyə müraciət etmək hüququ vardır. Ona izah olunmuşdur ki, əgər onun mənzildən istifadə hüquqları məhkəmə qaydasında təsdiqlənərsə gələcəkdə mənzilin mülkiyyətçisi tərəfindən mənzili (yəni daşınmaz əmlakı) özgəninkiləşdirilməsi (satmaq, bağışlamaq və s.) zamanı onun razılığı olmadan qarşı tərəf bu cür hüquqları həyata keçirə bilməyəcəkdir. Lakin Nazlı nikahın pozulması ilə bağlı iddia tələbindən əlavə digər hüquqların məhkəmə qaydasında həyata keçirilməsində istəyinin olmadığını bildirmişdir.

Eləcə də, müraciət edənə izah edildi ki, o, insan alverinin qurbanı olmuşudur və bu halla bağlı Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin İnsan Alverinə Qarşı Mübarizə İdarəsinə də müraciət edə bilər. Müraciət edən şəxsə qeyd olunan idarənin əlaqələri, elektron ünvanı və idarədə fəaliyyət göstərən qaynar xəttin nömrəsi təqdim olundu. Eləcə də, ona insan alverinə qarşı mübarizə ilə məşğul olan müvafiq qeyri-hökumət təşkilatlarının əlaqə telefonları da təqdim olundu və izah edildi ki, həmin QHT-lərin insan alverinin



qurbanının məhkəmə müdafiəsi ilə məşğul olan vəkilləri vardır

Mərkəzə müraciət edən Təranə (ad şərtidir) adlı digər bir şəxs anası tərəfindən məcbur olunaraq, anasının tanışları tərəfindən cinsi istismara məruz qaldığını bildirmişdir. Təranənin dediyinə görə, anası spirtli içkilər içirdi, əxlaqsızlıqla məşğul olurdu və övladına qarşı laqeyd idi. O, azyaşlı qız övladına gəlir mənbəyi kimi baxır, onu özünün tanışları ilə cinsi əlaqədə olmağa məcbur edirdi və əvəzində pul qazanırdı. Təranə Mərkəzə müraciət etdikdən sonra təşkilat tərəfindən ona hüquqi məsləhətlər verildi və izah edildi ki, anasının hərəkətləri barədə müvafiq icra hakimiyyəti orqanına məlumat verilə bilər. Lakin Təranə anası barədə hər hansı məlumatın orqanlara verilməsinə razı olmadı. O, yaxın qohumlarının - nənəsi və xalasının olduğunu bildirdi və onların himayəsində qalmasına köməklik göstərilməsini xahiş etdi. Təranənin qohumları ilə əlaqə yaradıldı, onlar Mərkəzə dəvət edildi onlara vəziyyət barədə məlumat verildi. Təranənin nənəsi və xalası (onlar bir mənzildə yaşayırlar) onu öz evlərinə apardılar. Təranəyə və qohumlarına qəyyumluq və himayəçilik barədə geniş hüquqi izahlar verildi. Həmçinin, Təranəyə şəxsiyyət vəsiqəsi almasına köməklik göstərildi.

"İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun 9–cu maddəsinə görə, insan alverinə qarşı mübarizə sahəsində vəzifələr birbaşa dövlətin üzərinə qoyulmuşdur. İnsan alverinə qarşı mübarizə tək dövlətin işi olmamalıdır, çünki insan alverinin qurbanı - uşaqların və qadınların olması daha çox ehtimal olunduğundan bu işlərdə QHT - vətəndaş cəmiyyətləri bacardıqları səviyyədə iştirak etməlidirlər. Həmçinin "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanununun 10–cu maddəsinə görə, dövlət orqanları insan alverinin qarşısının alınması sahəsində qeyri-hökumət təşkilatları ilə əməkdaşlıq edirlər. İnsan alverinin qarşısının alınması sahəsində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları insan alverinin potensial qurbanlarının maarifləndirilməsi işlərinə, insan alveri qurbanları üçün xüsusi müəssisələrin fəaliyyətinin təşkil edilməsinə, insan alveri qurbanlarına hüquqi yardımın göstərilməsinə və onların sosial reabilitasiyasına cəlb edilirlər. Azərbaycan Respublikasının müvafiq icra hakimiyyəti orqanı "İnsan alverinə qarşı mübarizə haqqında" Qanunun 10.2-ci maddəsində nəzərdə tutulan məqsədlər üçün zəruri ehtiyacları Milli Koordinatorla birlikdə müəyyən edərək qrantlar verə bilər.

Hal-hazırda Azərbaycan Respublikasında insan alverinə qarşı mübarizə sahəsində mövcud olan normativ hüquqi baza qənaətbəxşdir. Belə ki, Azərbaycan Respublikasının insan alverinə qarşı mübarizə ilə bağlı qoşulduğu beynəlxalq sənəd "İnsanlarla ticarətə və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarına qarşı mübarizə haqqında" Konvensiya olmuşdur. 12 dekabr 2000-ci ildə Azərbaycan Respublikası tərəfindən "Transmilli mütəşəkkil cinayətkarlığa qarşı" Konvensiya və onu tamamlayan "İnsan alverinin, xüsusilə qadın və uşaq alverinin qarşısının alınması, aradan qaldırılması və cəzalandırılması haqqında" Protokol ratifikasiya edilmişdir. 20

sentyabr 2002-ci ildə Azərbaycan Respublikası "İnsan alverinin qarşısının alınması və ona qarşı mübarizə haqqında" Brüssel Bəyannaməsini imzalamışdır. Azərbaycan Respublikası Prezidentinin 6 may 2004-cü il tarixli 208 saylı Sərəncamı ilə "Azərbaycan Respublikasında İnsan Alverinə Qarşı Mübarizə üzrə Milli Fəaliyyət Planı" təsdiq edilmişdir. 19 may 2004-cü il tarixli 231 saylı sərəncamın icrası ilə əlaqədar DİN-in tərkibində İnsan Alverinə qarşı Mübarizə idarəsi yaradılmış və Daxili İşlər Nazirinin müavini Milli Koordinator təyin edilmişdir. 28 iyun 2005-ci ildə "İnsan alverinə qarşı mübarizə haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. 30 sentyabr 2005-ci ildə "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına əlavələr və dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. Həmin Qanunla Azərbaycan Respublikasının Cinayət Məcəlləsinə "İnsan alveri" (maddə 144-1), "Məcburi əmək" (maddə 144-2), "İnsan alverindən zərər çəkmiş şəxs haqqında konfidensial məlumatları yayma" (maddə 316-1) maddələri əlavə edilmişdir. 09 noyabr 2005-ci ildə "İnsan alveri cinayəti qurbanları üçün xüsusi müəssisələrin yaradılması, maliyyələşdirilməsi, fəaliyyəti, habelə onların fəaliyyətinə nəzarət Qaydaları"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən Qərar qəbul edildi. 12 yanvar 2006-cı ildə "İnsan alveri qurbanlarına kömək Fondu haqqında" Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən Qərar qəbul edildi. 17 fevral 2006-cı ildə Azərbaycan Respublikası DİN-nin əmri ilə "İnsan alveri qurbanlarının müvəqqəti yaşaması üçün sığınacaq haqqında Nizamnamə" təsdiq edildi. 17 iyun 2006-cı ildə "İnsan alverindən zərər çəkmiş şəxslərə reinteqrasiya dövründə ödənilən müavinətin məbləğinin müəyyən edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən Qərar qəbul edildi. Azərbaycan Respublikası Prezidentinin 01 avqust 2006-cı il Fərmanı ilə DİN-nin strukturunda dəyişiklik edildi və İnsan Alverinə Qarşı Mübarizə İdarəsi yaradılmışdır. Hal-hazırda insan alverinə qarşı mübarizə məqsədilə ölkəmizdə kifayət qədər normativ hüquqi aktlar qəbul olunmuşdur. Bütün bu yuxarıda adlarını çəkdiyimiz normativ hüquqi aktların cəmində onların icrası mühümdür.

İnsan alverinə səbəb kimi göstərilə bilən və son illər ərzində onun artmasını təhrik edən bir çox amillər vardır və buraya aşağıdakılar daxildir:

- Dövlətlər arasında və dövlət daxilində artan bərabərsizlik;
- İnsan alverinin təhlükələri barədə məlumat çatışmazlığı;
- Təhlükəsiz miqrasiya imkanları haqqında məlumat çatışmazlığı;
- İnsan və malların hərəkət etməsini əngəlləyən manеələrin azaldılması, eləcə də sərhədlərarası daşınmanın bu halda daha yaxşı və ucuz olması;
- Əmək və seksual istismardan əldə olunan «yaxşı» gəlirlə mütəşəkkil cinayətkarlığın marağını oyatma;
- Daha yaxşı həyat arzusu və insan alveri və onun nəticələri barədə cahillik.

Yuxarıda qeyd etdiyimiz hallar insan alverinə səbəb olan hallardır.

İnsan alveri cinayətinin qarşısının alınmasında həm dövlət, həm qeyri-



dövlət təşkilatları və həmçinin beynəlxalq təşkilatlar öz səy və bacarıqlarını birləşdirməlidir. Bu zaman müsbət nəticəyə nail olmaq olar və bu tip cinayətin artmasının qarşısı alınar.

Hazırda Mərkəz - qadınların və uşaqların zorakılıqdan müdafiəsini, insan alveri qurbanlarına hüquqi yardımın göstərilməsini, bu sahədə hüquqi araşdırmaların aparılmasını və hüquqi maarifləndirməni davam etdirir.

Mərkəz insan alverinin qurbanı olmuş şəxslərə yardımın edilməsini yəni onların adından müvafiq orqanlara ərizə və şikayətlərin yazılması və sair hüquqi məsləhətlərin verilməsini təmənnasız edir.